**Mahmud ALLAHMANLI**

# Rasim Gənzəlinin bədii əsri



**"Elm və təhsil"**
**Bakı- 2012**

*Redaktor:* **Paşa Əfəndiyev**
*Əməkdar elm xadtmi,*
*filologiya elmləri doktoru, professor*

*Rəyçilər:* **Akif Əliyev**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Nazilə Məmmədova**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Mahmud Allahmanlı.**
**Rasim Gənzəlinin bədii nəsri.**
**Bakı, “Elm və təhsil”, 2012, 188 səh.**

Kitabda son dövr ədəbiyyatımızın istedadlı yazarlarından olan Rasim Gənzəlinin yaradıcılığı təhlil olunur. Hekayələrinin, povestlərinin, romanlarının mövzu istiqamətləri, problematikası elmi-nəzəri şərhini tapır.

$\frac{4702000000}{N098-2012}$ qrifli nəşr

**© «Elm və təhsil», 2012**

## BƏDİİ SÖZƏ VƏ DÜŞÜNCƏYƏ ETİRAF

Doğrusu, harda, hansı məkanda olmağımdan asılı olmayaraq həmişə ədəbi prosesi izləmək, ona münasibətimi bildirmək bir məqsəd kimi diqqətimdə olubdu. Son dövrün ictimai, siyasi, mədəni mühitində baş verənlər də bura daxildir. Hətta yaradıcı aləmdə elə imzalar olubdu ki, onları ardıcıl şəkildə izləməyə çalışmışam. Və izləməyim, münasibətimi bildirməyim tədricən kitablara gətirib çıxarıbdı. Bir də görmüşəm ki, artıq düşüncələrim, təhlillərim bir kitab qədərindədi. Müasir ədəbi prosesin istedadlı nümayəndələrindən olan R.Gənzəlinin yaradıcılığı haqqında təhlillərim də məhz beləcə kitaba gəlib çıxdı.

R.Gənzəlinin yaradıcılığı təxminən keçən əsrin doxsanıncı illərindən marağımda olubdu. Onun etnoqrafik xarakterli publisistik yazıları ilk öncə bir folklorşünas kimi diqqətiçi çəkibdi. Sonralar kitabları ilə rastlaşmışam. Və onları oxumuşam. Müxtəlif vaxtlarda həmin kitablar içimdə sözə ehtiyac doğurubdu. Və ayrı-ayrı mətbuat səhifələrində qənaətlərimi bölüşmüşəm. Hətta mənə yaxın olan həmkarlarıma əlimdə olan əsərlərini verib onunla tanış olmağını məsləhət bilmişəm. Bəzən ədəbiyyatşünas alimlərimizlə bu istiqamətdə söhbətlər də aparmışam.

Bütün bunlar mənə ədəbiyyata sevgimdən, ədəbiyyatın həyatımın bir hissəsi olmasından irəli gəlibdi. Bir növ mənəvi ehtiyac kimi görünübdü.

R.Gənzəlinin zəngin yaradıcılığında açılmalı müxtəlif istiqamətlər var. Bunlar ilk növbədə müasir ədəbi proses, son dövr ədəbiyyatımızın boyartımı anlamında əhəmiyyətlidi. Çünki ədəbi prosesdə sənətkarın mühitlə, mühitin problemləri ilə ayaqlaşması və ictimai-siyasi mühiti izləyə bilməsi başlıca məsələlərdəndi. Məsələ təkcə bununlda da bitmir. Burada digər məsələ mühiti həmin yaratdığı nümunələrdə təqdim edə bilmə bacarığıdı. Bu isə R.Gənzəlinin yaradıcılığında bütün tərəfləri ilə görünür. Heç şübhəsiz, ədəbiyyat həyatla, həyatın bütün ağırlıqları ilə irəliləyir. Onun əksinin başlıca faktına çevrilir. Tarixçilər tarixi yazır, ədəbiyyatın işi isə olanları bədiilik müstəvisində fakta çevirə bilməkdi. Və əslində elə real həqiqətlər də daha çox bədii nümunələrdə daşınır. Məhz son dövrün ictimai, siyasi, mədəni mühitində baş verən ağrılar bu mənada R.Gənzəlidə bir obyektivliklə, təbiiliklə, vətəndaşlıq duyğusu ilə ifadəsini tapır. Bu özlüyündə yarpadıcılıq keyfiyyətidi.

Digər istiqamətdə R.Gənzəlinin yaradıcılığında diqqətimi cəlb edən yaradıcı şəxsiyyətidir. Onun bütün əsərlərində həmin yaradıcı şəxsiyyət tərəfləri ilə görünür. Biz yazıçını bütün xarakterləri, xarakter keyfiyyətləri ilə əsərlərində görə və oxuya bilirik. Belə hal isə yazıçı ilə onun yaratdıqları arasında müvazilik yaradır. Və müəllifi

təbiiliyə, vətəndaş duyğusu ilə olanları təqdim etməyə təhrik edir. Ədəbiyyatşünas alimlərimiz həmişə yaradıcı şəxsiyyətini başlıca məsələ kimi vurğulayıblar. Çünki yaradıcı şəxsiyyəti özlüyündə bədii düşüncəyə, oxucunun mənəvi dünyasına təsir və tərbiyə faktıdır. R.Gənzəlidə bu daha aydınlığı ilə görünür.

R.Gənzəli ilə şəxsi tanışlığım xeyli sonraların hadisəsidir. Şəxsi tanışlıqdan çox-çox əvvəl onun yaradıcılığı ilə tanış olmuşdum. Şəxsi tanışlığım isə bir daha onun haqqında olan qənaətlərimi bütövləşdirdi. Və bu yaradıcılığı, əzəmət və qəhrəmanlıq nümunəsi kimi qiymətləndirdim. Onun həyat duyumuna, təsvirlərindəki obyektivliyə heyrət etdim. Bir-birindən maraqlı hekayələri, povestləri, romanları bütünlükdə böyük sevgiyə, vətən, torpaq sevgisinə boyandığını gördüm. «Qanlı çay» (Bakı, Gənclik, 1999), «Qara sevda» (Bakı, Gənclik, 2000), «Qurdlar və manqurdlar» (Bakı, Adiloğlu, 2004), «Qaranlıq gündüzlər» (Bakı, Vektor, 2005), Qalib gələn adam» (Bakı, Vektor, 2007), «Qəlbi asiman kimi» (Bakı, Qanun, 2007), «Qiyamət qopanda» (Bakı, Vektor, 2010), «Qurdbəşər» (Bakı, EL, 2011) kitabları buna nümunədir. Onu da qeyd edim ki, R.Gənzəli təkcə Azərbaycan, türk dünyası üçün deyil, bütünlükdə dünyamız üçün nümunədi. İnsanın az imkanı daxilində nəyə qadirliyini göstərən faktdı. R.Gənzəli mənim nəzərimdə insanlığın, insanlığın nəyə qadirliyinin, həyat sevgisinin nümunəsidi. Onun içindən keçən-

lər millətin və xalqın, bütünlükdə türkün böyüklüyünə yönəlikli olanlardı. Ona görə də böyük amallar uğrunda mübarizə ruhu onu həmişə ideallara, ucalıqlara səsləyir. Əsərlərində yaratdığı qəhrəmanları da bu düşüncəyə kökləyir. R.Gənzəlinin əsərlərində ağrıdan, düşülən problemdən, fəlakətdən usanma yoxdu. Əksinə, onun çıxış yollarının axtarışı var. Bütünlükdə Azərbaycanımız, onun yaşanan tarixi problemləri təmsil olunur. Ona görə də onun əsərləri qazanır və oxucu hisslərinə, düşüncəsinə köklənmiş görünür. Bunların böyük bir hissəsi Azərbaycanımızın düşnüdüyü fəlakətlərlə bağlıdı. Sovetlər dönəmində baş verənlər, otuz yeddinci il repressiyası, imperiyanın çöküşündən sonrakılar hamısı bütün tərəfləri ilə R.Gənzəlinin yaradıcılığını, yaradıcı düşüncəsini məşğul edir. Burada eyni zamanda daha əvvəlki dövrlərin hadisələri də var. Məsələn, ruslarla farsların imperiya siyasəti nəticəsində Azərbaycanın iki yerə parçalanması, xalqın manqurtlaşdırılması siyasəti, əlifbasının dəyişdirilməsi, ruslaşdırma və farslaşdırma prosesi bir xətt kimi əsərlərində əks olunur. R.Gənzəli təkcə bunları təqdim etməklə kifayətlənmir, eyni zamanda onlara qarşı xalqın içində böyüyən qəzəbi, azadlıq ideyalarını da verir. Və daha çox həmin müstəmləkə siyasətinə qarşı mübarizə əzmini təqdim etmək məqsədində görünür. Ona görə də onun bütün yazıları keçmişdən ibrət götürmə və göləcəyə köklənmə ruhundadır.

R.Gənzəli yaradıcılığı üçün xarakterik xüsusiyyətlərdən birisi xalq ruhunun görünüşüdü. Onun əsərlərində xalqın zəngin məişəti, mərasimləri, ilkin təsəvvürdən bu yana olan yaddaş var. Bu yaddaşın bir tərəfində mifik düşüncə, həyatın mifik dərki, əfsanə rəvayət, nağıl, dastan təhkiyyəsi var. Məhz bu mənada xalqın zəngin düşüncəsindən bəhrələnmə, əsərlərini bu zənginliklə süsləmə təsirediciliyi daha da artırmış, onu bir yaradıcılıq keyfiyyətinə gətirib çıxarmışdı. Bütün bunlar və bu kimi faktlar R.Gənzəli yaradıcılığı haqqında qənaətlərimi bölüşməyə təhrik etmişdi. Vaxtaşırı R.Gənzəlinin əsərləri içimdə sözə ehtiyac doğurmuşdu. Bu ehtiyac isə, təkrar deyək, son olaraq məqalədən kitaba qədər böyük bir işə gətirib çıxarmışdı. Bu kitab da elə həmin təbiiliyin nümunəsidi. Azərbaycanımıza, bədii düşüncəmizə, yaradıcı mühitimizə olan sevginin faktıdı. Həmin böyük sevgi ilə yaşamağımızdı.

## ÖN SÖZÜN TƏƏSSÜRATI ALTINDA OXUDUĞUM KİTAB

Son dövr ədəbi proesdə bir durğunluq hökm sürür. Müstəqillikdən sonrakı dövrdə lazımı qədər səviyyəli nümunələr yaranmır fikri dolaşır. Ancaq belə deyildir. İnsafən bu dövrdə də kifayət qədər yüksək səviyyəli bədii nümunələr yaranmaqdadır. Bu qənaətlər məndə çoxdandı və Rasim Gənzəlinin «Qanlı çay» (Bakı, Gənclik, 1999) kitabını oxuduqdan sonra bir daha qətiləşdi. Kitaba Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, professor Əlyar Səfərli maraqlı ön söz yazıb. Elə ön sözün təəssüratı altında da bu kitabı oxudum. Hər povesti, hekayəni oxuduqca müəllifin obrazı gözlərim önündə canlandı. İnsan şəxsiyyətinin böyüklüyünə, onun xarüqələr yaratmaq qüdrətinə bir daha inandım. Kitabdakı «Qanlı çay», «Bəyaz gecələr», «Həsrət» povestləri povestləri, özünəməxsusluğu ilə bir-birindən fərqlənən maraqlı hekayələr toplanmışdır. Burada Azərbaycan həyatının reallıqları əks olunur. «Qanlı çay» bu reallıqların ümumiləşdirilməsində daha tipikdir. Sovet rejiminin törətdiyi fəsadlar, Göydaşlının başına gələn bəlalar bizə ibrət dərsidir. Bu müəllifin Azərbaycan səviyyəsində keçən əsrin 37-ci il hadisələrini ümumiləşdirməsidi. Qarının qoca ilə söhbətində «bir çaya

bax, qoca, çayın yerində qan axır» deyimində hadisələrin bütünlükdə mahiyyəti əksini tapı rvə bütün epizodlar cəmiyyətdə bu gərginliyi yaradan vəziyyəti müəyyənləşdirməyə xidmət edir. Müəllifin həyatın mənfiliklərinə rəvac verən Abdal, Cahil, Tufan kimi obrazları da var. Əsərin ümumi xəttindən aydın olur ki, Qanlı çayı axıvdanlar bu tipli şəxslərdir. Və düşünürsən ki, Azərbaycan reallığında çaylara su əvəzinə qan axıdanlar indi də var.

«Bəyaz gecələr» sırf məişət problemləri üzərində qurulmuş povestdir. Müəllifin yaratdığı Mətin, Çilənay, Sürmə, Tacay həyatiliyi ilə maraq doğurur. Burada Sürmənin şəxsində ümumiləşdirilən mənfiliklər nəticə etibarilə onun özünün də öz əməllərinə qurban olması ilə dolğunlaşır.

«Həsrət» povestində adi bir səhvin ucbatından xoşbəxt bir ailənin başına gələnlər ümumiləşdirilir. Ancaq povestdə təsvir olunan səhv elə də adi deyildir. Bu ilkin başlanğıcda ad iola bilər. Hadisələrin gedişində həmin səhv bağışlanmaz bir dərəcədə dayanır və bağışlanmır.

Rasim Gənzəlinin hekayələri ilə povestləri arasında möhkəm bir təsvir və düşüncə bağlılığı görünür. Burada yığcamlıq, həyat hadisələrinin konkret təsviri maraqlı təsir bağışlayır. «Ağrı», «Bir əlçim işıq», «Qoca dəmirçi», «Həyatın sonu», «Yaşamaq dərdi» kimi hekayələr hadisə və təsvir rəngarəngliyi ilə diqqəti cəlb edir. Yaşadığımız, qarşılaşdığımız reallığın bir hissəsinin

təsviri kimi görünür. Bütün bunlar kitabın yüksək bədiilik məqamlarını əks etdirir.

Rasim Gənzəlini şəxsən tanımıram. Ancaq bu kitab məndə onun haqqında uğurlu bir təsəvvür yaratdı. Kitabın ön sözündə yazılmış «Dəmir iradəli insan» məqaləsinin yaratdığı təəssüratla əsər boyu müşahidə etdiyim hadisələr məndə müəllif , yaradıcı bütövlüyü qənaətini bir daha ümumiləşdirdi.

*«Sərbəst düşüncə» qəzeti, 02-14 mart,*
*2000-ci il, № 05-06 (118-119).*

# SÖZÜN VƏ QƏLƏMİN GÜVƏNC OLDUĞU YER

Təxminən on il bundan əvvəl Rasim Gənzəlinin «Qanlı çay» (Gənclik, 1999) kitabını oxudum. Mətbuat səhifələrində ona öz münasibətimi bildirmək, ədəbi proses kontekstində fikirlərimi bölüşmək qərarına gəldim. «Ön sözün təsiri altında oxuduğum kitab» («Sərbəst düşüncə» qəzeti, 2-14 mart 2000) başlığı altında bir yazı yazdım. Burada müəllifin «Qanlı çay», «Bəyac gecələr», «Həsrət» povesti və bir-birindən maraqlı iyirmiyə yaxın hekayəsi verilmişdi. Bu kitab müstəqillikdən sonrakı dövr ədəbi prosesin uğurları təsiri bağışladı. Müstəqillik insanların üzünə bütün qapıları açdı. Yaradıcı imkanları ortaya qoymağa şərait yaratdı. Belə olan vəziyyətdə ədəbi mühitdə çoxlu kitab bolluğu yarandı. Bütünlükdə onu izləmək, layiqlilərin qiymətini verməyə çalışmaq özü problemə çevrildi. İşbazlar, boğazdan yuxarı, şair, yazıçı olmaq iddiasına düşənlər meydan sulamağa başladı. Bir növ tənqid geri çəkildi. Sanki bu məcburiyyətdə qaldı. Halbuki belə vaxtda ədəbi mühitdə tənqidin kəsərinə, həqiqi sözə daha çox ehtiyac duyulur. Ağırlıq yaşlı nəslin, ədəbiyyatın həmişə keşiyində durmaq istəyənlərin üzərinə düşdü. Onlar öz məsuliyyəti ilə karvanını sürürdülər Heç nəyə əhəmiyyət vermədən

yenə yazdıqları ilə nümunə olmaq funksiyasını yerinə yetirirdilər. Ədəbi gənclikdə isə kifayət qədər istedadlı, sözün və sənətin qədrini bilənlər vardı. Onların işi hamısından çətin idi. Çünki bələlərini arayıb-axtarmaq, ortaya çıxarmaq özü qəhrəmanlıq idi. Bu gün də belədir. Hələ bütün istiqamətlərdə olduğu kimi, ədəbi mühitdə də axıra qədər durulma baş verməyib. Ona görə də bunun üçün bütün olanlara sinə gərmək, qətiyyət göstərmək, qaya səbri lazımdı. Rasim Gənzəli bunlara sinə gərdi, öz işində oldu. Daha doğrusu, qələmlə yaşadı, sözü hər şeydən uca tutdu. Sözün işığında o, günü-günə caladı. Və son olaraq bir-birindən maraqlı kitablarla ədəbiyyatımıza özünün adını yazdı. İndi qarşımda onun ilk kitabından sonra nəşr olunmuş müxtəlif səpkili digər altı kitabı var.

Görkəmli şairimiz R.Rza yazılarının birində xüsusi olaraq vurğulayırdı ki, yer üzündə ən böyük səadət ana dilinin ən gözəl əsərini yaratmaqdır. R.Gənzəli öz düşüncəsi ilə bu tezisə, ana dilinin ən gözəl əsərlərini yazmağa xidmət edir. Burada ictimai-mədəni həyatımızın müxtəlif tərəfləri, dövrümüzün bir-birindən fərqlənən çoxsaylı problemləri xarakterlərin müxtəlifliyində əksini tapır. «Qanlı çay»dan «Qiyamət qopanda» (2010) kitabına qədər olanlar bunu, inkişafı aydınlıqla göstərir. Bu bir növ Azərbaycan bədii nəsrinin inkişafıdı. Azərbaycan bədii nəsri özünün inkişafında xeyli uğurlarla səciyyələnəcək bir yol gəlib. Qayaüstü yazılardan, daş kitabə-

lərdən, Xaqani Şirvaninin məktublarından M.Füzulinin nəsrinə gələn bu yol elə də kiçik zamanı əhatə etmir. Burada ayrı-ayrı çağların düşüncəsi qarşılaşır. Füzuli nəsri birmənalı etiraf edək ki, klassik nəsrimizin uğurudu. «Şikayətnamə», digər məktubları, eləcə də farca yazdığı «Səhət və Mərəz», «Rindü Zahid» əsəri bunu aydınlıqla göstərir. Lakin bir məsələ var ki, nəsrdən, bədii düşüncəsinin klassik nümunələrindən danışanda birmənalı olaraq ən yüksəkdə dayanan «Kitabi-Dədə Qorqud» dastanlarıdır. Fikrimizcə, bu zirvədi, bədii sözün əlçatmaz ucalığıdı. Bütünlükdə türk, Şərq, dünya fikrinin söz deyilən nəsnədə yüksəklik kredosudu. Məhz sonrakı dövrün uğurları ənənə baxımından ona borcludu. Bu ənənənin on doqquzuncu yüzillikdə M.F.Axundov zirvəsi var. İ.Qutqaşınlı, Ə.Haqverdiyev, N.Vəzirov, N.Nərimanov, Y.V.Çəmənzəminli, C.Məmmədquluzadə və sonrakı dövrün uğurları davamlı olaraq yaşanır. On doqquz və iyirminci yüzillik Azərbaycan nəsrinin inkişafı baxımından ürəklə danışmağa dəyər. Çünki daha sonrakı mərhələdə M.Hüseyn S.Rəhimov, Ə.Vəliyev, İ.Hüseynov, İ.Şıxlı, Y.Səmədoğlu, Ə.Əylisli, Anar, Elçin və s. kimi görkəmli simaların şəxsində yeni-yeni uğurlara imza atdı. Keçən əsrin altmışıncı və səksəninci illərinin nəsri buna nümunədi. Müstəqillik dövrü siyasi proseslərin kəskinliyi müqabilində bədii nəsrin publisistikaya nisbətən bir qədər geriliyi müşahidə olunmağa başladı. Bu isə başa düşüləndi. Çevik si-

yasi proses publisistik düşüncəni aktuallaşdırdı. Ləngərli bədii nəsr (povest, roman, hekayə) bir qədər arxa plana keçdi. Lakin bu o da demək deyil ki, bunlar bir forma kimi ömrünü başa vurdu. Xeyr, sadəcə olaraq, mühit gündəlik informasiya qıtlığında nəsrin bu ehtiyacları ödəyə bilməyəcəkləri ilə üz-üzə qaldı. Çünki publisistika bir forma kimi müasir dünyamızda operativ informasiyanı, hətta həftəyə də yox, saata, günə hesablanmış məlumatın çatdırıcısıdır. Ona görə də bugünkü bədii nəsrin oxunaqlığının bir qədər azalması başa düşüləndir. Ancaq bütünlükdə problemə bu kontekstdən də yanaşmaq düzgün deyil. Etiraf edək ki, müasir çağımızda bədii nəsrin klassik nümunələrinin yaranması elə də müşahidə olunmur. Söhbət klassikadan, müasir Azərbaycanın ağrılarını əks etdirəcək nümunələrin yaranmasından gedir. Ağrılar, problemlər, Qarabağ savaşı, tarixi Qərbi Azərbaycan torpaqlarının itkisi, qaçqınlıq hadisələri, oradakı fəlakətlər, soyqırım məsələləri ümumiləşdirmədə bütün ədəbi mühiti silkələmədi. Kifayət qədər əsərlər yarandı. Ancaq yenə də gözlənilən nümunə yaranmadı. Lakin əminik ki, belə nümunələr ortaya çıxacaq. Bu hal poeziyada da var. Biz onu da qəbul edirik ki, klassik nümunələrin yaranması hər addımbaşı baş vermir. Bir məsələ var ki, mühiti əks etdirəcək uğurlu bədii nümunələr var. Poeziyamız, nəsrimiz uğurlar baxımından lazımı qədər təhlillərin də ehtiyacındadı. Ümumiyyətlə nəsr anlamında son dövrün uğurla-

rından danışarkən Rasim Gənzəli daha çox diqqət önünə gəlir.

Rasim Gənzəlinin yaradıcılığı kifayət qədər əhatəlidi. Onun mühüm bir hissəsini publisistik yazıları təşkil edir. Özü haqqında verdiyi yazılarında uzun müddət publisistik məqalələr yazdığını söyləyir. «O ki, qaldı ədəbiyyata gəlişim, bu əvvəl qəzetlərə məqalələr yazmaqla başladı. Müxtəlif qəzetlərdə müxtəlif səpkili yazılarla çıxış edirdim. Ən çox da «Yeni Ordubad» rayon qəzetində yazılarım dərc olunurdu. Qəzetin məsul katibi, yazıçı Rafiq Babayev mənə çox kömək edirdi, yollar göstərib yazılarımın sanballı olmasına çalışırdı. Bir az sonra gördüm ki, artıq bədii ədəbiyyata girmişəm, hekayələr yazıram. Düzdü, əvvəllər yazdıqlarımı bəyənmirdim, bir ayda yazdıqlarımı bir saatda cırıb atırdım. Sonra isə yazdıqlarımı bəyəndim və üzə çıxarmağa başladım. «Ağrı» adlı hekayəm «Araz» almanaxında dərc olundu». Bu, Rasim Gənzəlinin «Qaranlıq gündüzlər» kitabından bir parçadır. Və müəllif haqqında lazımı qədər təfərrüatlı informasiya yaradır, ədəbiyyata gəlişinin təsadüfi olmadığını göstərir. Təkrar qeyd edim, R.Gənzəli haqqında ilk yazımdan sonra arxiv materiallarımın arasında bir məqaləsinə rast gəldim. Bu məqalənin adı «Ordubadda Novruz bayramı» idi, «Ulduz» jurnalında çap olunmuşdu. Novruz bayramı mərasimlər toplusudu, bizim ən əziz və daha çox yayılmış, böyükdən kiçiyə hamının sevinclə qarşıladığı bayramdır. Regionlarda keçi-

rilmə spesifikasının öyrənilməsi baxımından bu tip məqalələr lazımı qədər dəyərlidir. Bu məqalə folklorşünaslar, etnoqraflar üçün mənbə xarakteri daşıyır.

Ədəbi tənqid R.Gənzəlinin haqqında bir-birindən maraqlı, kifayət qədər diqqəti cəlb edəcək məqalələr yazıb. Ə.Səfərli, K.İsmayılov, G.Həsənli və başqaları onun yaradıcılığına özünün münasibətini bildirib. Bu yazıların mühüm bir hissəsi kitablarına ön söz səciyyəsi daşıyır. Və yazılardan məlum olur ki, müəlliflə yaxından tanışlıqları da var. Ə.Səfərli onun ilk kitabı «Qanlı çay»a «Dəmir iradəli insan» başlıqlı bir giriş sözü yazıb. Burada yazıçı haqqında təfsilatlı, bir qədər də kövrək məlumat var. «Rasim cismən deyil, ruhən, qəlbən yazıb yaradır. Bir insan kimi də o, sanki ruhu və qəlbi ilə mövcuddur, qədim sufilər kimi diri ikən maddilikdən özünü təcrid etmiş, qurtulmuş, mənəvi-ruhi aləmi ilə yaşamaqdadır. Onun varlığı ayrıca bir bədənin, fiziki bir varlığın yox, hiss və duyğuların, ruh və qəlbin mücəssəməsi, maddiliyə meydan oxuyan mənəviyyat və hissiyyatın heykəlidir. Bədii yaradıcılığı da cismani maddiliyin deyil, iradə, ruh və könül duyğularının özünü ifadəsi, təsdiqi, gerçəkləşməsi, maddiliyi əvəz etməsidir.

Ulu tanrı Rasimi yaradarkən, onun cismi və bədənindənsə, ağlına, xəyalına qol-qanad vermiş, onun cövəhri dözüm, mətanətdən yoğrulmuş, taleyinə insani kədər və mənəvi bir səadət yazmışdır. Buna görədir ki, həyatın ağrılı-acılı

şərbətini içən Rasim heç olmasa bu müstərib taleyindən, iztirab və üzüntülərindən şikayətlənib giley-güzar etməmiş, yaşamaqdan da, yazıb-yaratmaqdan da usanmamış, sarsılıb bədbinliyə qapılmamışdır» (səh.5). Doğurdan da, ulu tanrı Rasim Gənzəliyə bir istiqamətdə yaradıcı düşüncədə, istedad anlamında, ətrafı dərk edib onu qələmə gətirmədə daha çox pay verib. Burada digər bir məqamı xüsusi olaraq vurğulamaq lazımdır. Rasim Gənzəli təkcə istedadı ilə deyil, eyni zamanda dözümü, qətiyyəti, mübarizliyi, bütün ağrılara dəyanət göstərməsi və göstərə bilməsi ilə insanlığa nümunədi. Təkzə Azərbaycan insanına deyil, dünyaya, dünya insanlığına nümunədi. Mən onu bu yaxınlara qədər, yəni yanvarın səkkizinə kimi şəxsən tanımamışam. Kitablardan tanımışam. Ancaq təkrar qeyd edim ki, əsərlərini, çap olunan kitablarını, povest, hekayə, romanlarını oxumuşam. Eyni zamanda həmin əsərlərin problem qoyuluşu, məsələlərə aktual yanaşması ilə bağlı fikirləri bölüşməyi qərara almışam. Çünki indi ədəbi mühitdə bu tip əsərlərin ədəbi mühitə təqdiminə daha çox ehtiyac var. Kitab bolluğunda olanları axıra qədər izləmək olmur. R.Gənzəlinin əsərləri isə məndə onun yaradıcılığına diqqətlə yanaşmaq zərurəti doğurub. Yuxarıda dedim, Rasim Gənzəlini şəxsən tanımamışam. Oxuduğum əsərləri isə mənə çox şey deyib. Onun özü, ailəsi, yaşadığı region, kənd, əhatəsində olduğu adamlar, qohum-əqrəbəsi, yaxınları, qardaş-bacısı haq-

qında kitablarından tanımışam. Həmin kitablarla Rasim özünü onu oxuyanlara, Azərbaycan oxucusuna çatdırıb. Rasim təkcə özü yox, ailəsi etibarilə tipik azərbaycanlı ailəsinin nümunəsidir. Onun qardaşları, qohumları, yaxınları insanlığa nümunədir. Tanrı bu ailəyə, bu qardaşlara bütün qapıları, insanlığın qapılarını taybatay açıb.

Rasim haqqıda düşüncələrim görüşənə qədər olandan elə də fərqlənmədi. Çünki onu yazılarında oxuyub tanıyırdım. Sadəcə olaraq bu görüş, onunla bağlı təşkil olunmuş yaradıcılıq gecəsi yadıma çox-çox əski zamanları saldı. Dünya ədəbiyyatı, şərq və türk xalqları ədəbiyyatı Əhməd Yügnəklidən Aşıq Veysələ qədər hamısı gözlərim qarşısında canlandı. C. Londonun «Həyat eşqi», E.Hemenqueyin «Qoca və dəniz»i yadıma düşdü. Çox şeyləri xatırladım, fikir məni uzaqlara apardı. Görkəmli alimimiz prof. Q.Paşayev söhbətində onu Nikolay Alekseyiviç Ostrovski ilə müqayisə etdi. «Polad necə bərkidi» romanındakı Pavel Korçagini xatırlatdı. Ədəbiyyatşünas alimimiz Ə.Səfərli də R.Gənzəlinin ilk kitabına yazdığı ön sözdə onu N.A.Ostrovski ilə müqayisə etmişdi. Əzəmətli bir gecə idi. Şeir, sənət, əhli-ürfan məclisi idi. Mən çox görüşlərdə olmuşam, çox tribunalar görmüşəm, ancaq bunun qədər təsirli, kövrəyi və coşqunu görməmişəm. Hamı söz demək, hamı dinləmək ehtiyacında idi. Vaxt isə özün də bilmədən axırdı. Bu sənətin, sənətə hörmətin, Rasim Gənzəli yaradı-

cılığına diqqətin ifadəsi idi. Ürəklər riqqətiə gəlirdi. Ancaq mən Rasimi bir yazıçı kimi bütün vəziyyəti ilə əvvəldən tanımışdım. Yadıma isə bu tədbirdə bir başqa şeylər gəldi. Suallar başımda dolandı, biz onu ədəbiyyatımıza, ədəbi ictimaiyyətimizə lazımınca təqdim edə bilmişikmi? Bütün bu görünənləri ilə onu niyə xalqımıza, millətimizə, bütünlükdə dünyaya  çatdıra bilmirik? Məsələ təkcə yaradıcılıqla, yaradıcılığın bədii keyfiyyətləri ilə bitmir. Onun digər tərəfində bu keyfiyyətlərdən heç də geri qalmayan yaradıcı şəxsiyyəti məsələsi dayanır. Rasim Gənzəlidə bütünlükdə ədəbiyyatın, ədəbi düşüncənin, siyasi ideologiyanın, insanlığın təqdim edib örnək bildiyi bir dəyanət, hər şeyə qadirlik var. «Qaranlıq gündüzlər» (Vektor Beynəlxalq elm mərkəzi, 205) kitabında «Qaranlıqdan gündüzə və yaxud, qoyun, bir az da özümdən deyim» adlı yazısında müəllif özü haqqında yazır: «İyirminci əsrin ikinci yarısında mən dünyaya gələndə deyirdilər ki, qış axşamı imiş. Qurdlar uca dağların başında ağız-ağıza verib ulayırmışlar. Hətta bundan şək eləyənlər, təlaşa düşənlər də olubmuş. Atam isə bir kənara çəkilib fikirli-dalğın qaranlığa baxırmış. Bəlkə də atamın fikri qurdların yanında, ulamasında deyilmiş. Onu xəyala salan başqa məsələymiş. İş burasındadır ki,  mən onun dalbadal dünyaya gələn yeddinci oğul övladıyam.

....Deyirlər ki, atam məni qucağına az götürürmüş, az əzizləyirmiş. Lakin heç kəs bilmirmiş ki, bir müddət ötəcək və mən atamın ən

sevimli, ən istəkli balası olacağam... Məsələ burasındadır ki, mən uşaqlar kimi böyüsəm də, bütün uşaqlar kimi ayaq açıb yerimirdim» (səh. 5). Müəyyən ixtisarlarla verdiyimiz bu epizod R.Gənzəlinin həyatı haqqında, fikrimizcə, tam təsəvvür yaradır. Onun həyatı sözün həqiqi mənasında sınaqlardan keçib. Orta məktəbi böyük mübarizələr, təkidlər əsasında evdə qurtarıb. Ali məktəbi də eynilə dözüm, dəyanət göstərərək evdə başa vurub. Onun bu tələbkarlığı, taleyi ilə barışmamazlıq, ən çətin anda belə vəziyyətdən çıxa bilmək mümkünlüyünü ortaya qoyur. Qurdan qurda bir qurd yolu qalır deyirlər. Türkdən türkə də bir

Rasim Gənzəli ağrılarla, əzablarla dolu taleyi olan bir yaradıcıdır. Mənə belə gəlir onun özü böyüklüyündə ürəyi var. Bu ürək böyük ideallarla, sabaha doğru yönələn arzuların çiçəklənməsi ilə yaşayır. Mən R.Gənzəlinin həyatı, yaradıcılığı ilə kitablarda olanları oxumuşdum. Ancaq bir məsələni düşünürdüm ki, bu qədər qətiyyət, dözüm, nümunə ola bilmək kimi əvəzsiz keyfiyyətlər hardandır. Yaradıcılıq gecəsində onun haqqında bir senari verdilər, göz açdığı ev, dünyaya gəldiyi ocaq, kənd burada təsvir olunurdu. Müəllif özü haqqında danışırdı. Bu danışıq məni çox-çox uzaqlara apardı. Təbiət və onun bir parçası olan insan, böyük şairimiz S.Vurğunun yer üzünün əşrəfi adlandırdığı insan haqqında düşündüm. Son olaraq bu qənaətdə oldum ki, Rasimə bu dağlardan, füsunkar təbiət-

dən, qaya dözümü, bulaq kimi həzin axan, yerin təkindən qaynayan qaynar istedad, yaradıcı təbiət bəxş olunub. Ona insanlığa, dünyaya nümunə olmaq payı verilib. F.Köçərli iyirminci yüzilliyin əvvəllərində bir məsələni vurğulayırdı. Deyirdi ki, bizdə bir biganəlik var. Ona görə də millətimizin, xalqımızın istedadlarını lazımı qədər təlqin və təqdim edə bilmirik. Əgər belə olmasaydı müqtədir sənətkarlarımızın bir hissəsi belə unudulmazdı. Rasim Gənzəli də məhz öz istedad və xarakter keyfiyyətləri ilə nəinki Azərdaycan, bütünlükdə dünyaya tanıtdırılmalı şəxslərdəndi. Mənə belə gəlir, hər cür dürlü, bəzəkli, dəbdəbəli adları ilk olaraq bu cür insanlara vermək lazımdır. Lap elə Nobel mükafatını da. Əgər sözün həqiqi mənasında öz istedadı ilə Nobel mükafatına layiq bilinən Ernest Hemenquey və bu sıradan hər hansı bir nəfər Rasim Gənzəlini bütün tərəfləri ilə tanısaydı, onunla bir zamanda yaşasaydı özündə qətiyyət tapıb deyərdi ki, o mükafatı mənə yox, R.Gənzəliyə verin. Ancaq təəssüf ki, bu iyirmi birinci yüzilikdə öz vətənimizdə, yaşadığımız məmləkətdə hər cür adların səxavətlə paylandığı (müğənnilərə verilən adlar nəzərdə tutulur) halda, Rasim Gənzəliyə verilmir. Heç onu yada da salmırıq. Budu bizim problemimiz. Yüz il öncə F.Köçərlinin dediyi ağrılarımız.

Rasim Gənzəli haqqında danışarkən onun xarakterini səciyyələndirən bir epizodu da yeri gəlmişkən xatırladım. Bu insanlıq üçün tipikdir.

Bizim görkəmli ziyalımız, gözəl alim, xeyirxah insan Müzəffər Məmmədov (Rasimin böyük qardaşıdır) maraqlı olacaq bir əhvalat danışdı. Dedi ki, bir neçə il bundan əvvəl Qəbələ rayonundan yataq xəstəsi olan bir qız kömək üçün müraciət etdi. Rasim onda xəstəliyinə görə aldığı təqaüdünü həmin qıza göndərdi. Səbəbini soruşanda cavabı bu oldu ki, siz onu bilməzsiniz. Nələr çəkdiyini mən bilirəm və mən də belə edirəm. Bu Hatəm səxavətidi, bəlkə də ondan da artıqdı. Yadıma orta əsrlərin böyük sənətkarı Əbdürrəhman Caminin verdiyi bir hekayət düşdü. Orada deyilir ki, günlərin birində Hatəmin yanına gəliib ondan soruşurlar ki, bu dünyada səndən səxavətli bir kimsə varmı? O, kasıb bir kişini göstərir və məndən səxavətli odur deyir. Ətrafındakılar inanmır. Hatəm isə baş vermiş olayı danışır. Deyir ki, mən o kasıb kişiyə adamlarımla qonaq oldum. Həyətində bir neçə qoyunu vardı. Tərəddüd etmədən hamısını kəsdi. Məndən varlı odur. Bütün olanlarını səxavətlə bizə verdi. Mən isə olsa-olsa dövlətimdən ancaq bir hissəni verirəm. R.Gənzəli də belə böyük ürəyə malik olanlardandı. Bu keyfiyyətlər onun yaradıcılığı boyu səpələnib. Bütün düşüncəsini, istəyini, insanlara demək istədiklərini, hansı duyğularla yaşamasını yazılarında görürük. Ayrı-ayrı obrazlarında o bütün olacaqları, baş verənləri, mühiti tam incəliyi ilə təqdim edir. Yaradıcı dərki, yaradıcı istedadı budur.

Rasim Gənzəli göz açdığı Gənzədən, onun bir parçası olan kümələrindən dünyaya baxır. Bu baxmaqla o, dünyanı görür desək çox az olar, onu bütün tamlığı ilə dərk edir. Geniş həcmli «Qara sevda», (2000), «Qurdlar və manqurdlar» (2004), «Qiyamət qopanda» (2010) romanları da bunu göstərir. Bu romanlar müasir ədəbiyyatımızın, bədii düşüncənin ifadəsi və ifadəliliyi kontekstində təhlil edilməlidir. Onu da qeyd edək ki, R.Gənzəlinin bütün əsərləri bir-birindən fərqlənən məsələləri sərgiləyir. Orada həyat, həyatın mürəkkəb, ziqzaqlı tərəfləri, onun doğurduğu ağrılar, bir qədər də sevinc var. Məsələn, ilk romanında sovetlər zamanında baş verən hadisələr təsvir olunur. Elsevərlə Günalın bir-birinə məhəbbəti timsalında uğurlu təsvirlər, ümumiləşdirmələr var. Roman belə başlayır: «Günal küçəyə çıxdı. Otuz-qırx addımlıqdakı keçidə getməyib qaydanı pozdu. Rənbərəng maşın axınının içindən sivişib küçənin o tayına keçdi. Və… ancaq indi ötmüş təhlükəni hiss etdi. Bayaqdan narahatlıqdan döyünən ürəyi qəfəsə salınmış zərif quş kimi çırpınmağa başladı. Səsli-küylü küçədə ürəyinin çırpıntısını özü eşitdi» (səh. 7). Bu əsərin ilk abzasıdır. Sonda isə bir başqa maraqlı epizod var. Roman bu epizodla yekunlaşır: «Mələk donuna bürünmüş iblis simalı böyük məmləkət Allahın qəzəbi ilə dağılıb getmişdi. Xalqlar azadlığa qovuşmuşdu.

…Doğmaları bir-birindən ayıran tikanlı məftillər sökülüb atılmışdı. Milyonlardan biri

kimi o taylı Azər də bu taylı bacısı Surətin vüsalına yetmişdi. İndi bu doğmaların bir bayrağa tapınması uğrunda mübarizə gedirdi. Ulu Şəhriyarın ruhu el-el, oba-oba gəzərək insanları bütövlüyə çağırırdı.

Ya aza dol, ya tamam yan Azərbaycan!

Respublika prokurorluğunun məsul işçisi Elsevər Arazlı prokurorluğun dəhlizində Şəkər Şirinzadəni görmüşdü. Sonra öyrənib bilmişdi ki, o, respublika prokurorluğunda məsul vəzifə daşıyır.

...Xəzərin sahilində bir qadın meyidi tapılmışdı. Bu qadın Ceyran idi.

...Zərrin nənəni nəvəsi Asifin yanında dəfn eləmişdilər.

...Kolxoz quruluşu dağılandan sonra işsiz qalan Rəşid Arazlı ailəsini də götürüb yaxın ölkələrdən birinə getmişdi.

...Qılman Arazlı qayıdıb gəlmişdi. Və bilmişdi ki bu dünya zəiflərin dünyası deyil. Bilmişdi ki, çirkin cəmiyyətdə əsil insan öz ləyaqətini qoruyub saxlaya bilər. Bir də onu bilmişdi ki, bu dünyanın kələfi uzundur. Lap uzun. O insanın başına da dolana bilər, ayaqlarına da dolaşa bilər, boğazına keçib onu boğa da bilər... Bu dünya belə dünyadır» (səh.323-324). «Qara sevda» romanının başlanğıc və sonundan verdiyimiz bu epizod cəmiyyətimizin bir sıra problemlərini, sovetlər imperiyasının müşküllərini, Azərbaycanımızın cənub ağrılarını, ayrılığın nə demək olduğunu yüksək bədii pafosla təqdim

edir və bu dünya belə dünyadır deyir. Cənub mövzusu Azərbaycanın ikiyə bölünməsindən sonra bu günə qədər ədəbiyyatımızı izləyib. Ayrılıq, bir xalqın zorla ikiyə bölünməsi, dünyada bundan ağır nə ola bilər? Bu problem xalq ədəbiyyatı nümunələrindən yazılı ədəbiyyata qədər hamısında özünə yer tapır. Sovetlər imperiyasının dağılması bu problemin bir qədər aradan qaldırılmasına, yolların açılmasına səbəb oldu. Ancaq hələ bu bütünlükdə məsələnin həlli deyil. Məhz Rasim Gənzəli də öz əsərlərində bir istiqamətdə bu ağrıları təqdim edir. «Qurdlar və manqurdlar» romanında isə bu daha kəskinliklə qoyulur. «Vətənpərvər bir yazıçı olan Rasim bəy də bu ümummilli mübarizədən kənarda qalmır, öz bədii əsərləri, yazıçı qənaət və düşüncələri ilə milli borcuna sadiq qalır, önəmli bir mövqedə duraraq oxucuya yol göstərir. Xurafat və nadanlıq toxumu səpən düşmən təbliğatına qarşı səsini qaldırır, mürtəce düşmən məkr və hiyləsinə qarşı öz əsərləri ilə mübarizə aparır, düşmən təbliğatına qarşı zirehdən mənəvi dayaqlar qurur» (səh.9). Bu kitaba ön söz yazmış görkəmli alimimiz Ə.Səfərlinin dediklərindəndir. Azərbaycan uğrunda savaşlar, müharibələr zaman-zaman baş vermiş, məmləkətimiz ağır müharibələr meydanı olmuşdur. Son olaraq ruslarla farsların Azərbaycan uğrunda savaşları vətənimizin iki yerə bölünməsinə səbəb oldu. Bir tərəfdə rus şovinizmi, digər tərəfdə fars molla rejimi hökm sürdü. Əsərdə Eltürk, onun atası Qılman, sevgi-

lisi Ayçiçək, Əhməd Yavuz kimi diqqəti cəlb edəcək mütərəqqi düşüncəli obrazlar var. Hacı Rza, Fərhad, Ərşad müəllim əks cəbhədə dayanır. Hacı Rzanın kəndə gəlişindən sonra hər şey alt-üst olur, onun havadarları, manqurd təbiətlilər kəndi qarışdırırlar. Ərşad mənfi bir tipdir. Əvvəllər kənddə müəllim işləmişdir. İndi isə ağasından aldığı pullar hesabına adamları öz təsirində saxlamağa çalışır. Əsərdə Əhməd Yavuz kimi mütərəqqi insanlar təsvir olunur. O, Eltürklə birlikdə Təbrizə, Bəz qalasına getməyi planlaşdırır. Bu addımı atmaları isə Əhməd Yavuzun tutulması və Eltürkün isə mal tövləsinə salınması ilə başa çatır. Müəllif qurdlar və manqurdlar dünyasında inandırıcı və həyati təsvirlərlə dolu maraqlı, bir qədlər də ağrılı məsələlərə toxunur. Manqurdların çoxaldığı bir zamanda işin çətinliyini, yaşamağın ağırlığını göstərir. Ancaq son olaraq həyatın bütünlüklə bundan ibarət olmadığını Eltürk, Əhməd Yavuz kimi qətiyyətli, mübariz insanların olduğunu bir daha oxucuya çatdırır. Bu roman Rasim Gənzəli yaradıcılığında məmləkətin ağrılarına yönəlmiş problemləri təqdim edən bir əsərdir. «Qiyamət qopanda» ( Vektor, 2010) həyatımızın bir başqa problemləri, ağrıları, çatışmamazlıqları Ziyad, Nazənin, Şahnaz, Dərya və digərlərinin şəxsində ümumiləşdirilir.

Rasim Gənzəlinin yaradıcılığı mövzu baxımından kifayət qədər zəngindir. Onun yaradıcılığı üçün xarakterik cəhət daha çox həyatiliyi ilə

bağlıdır. Mövzu zənginliyində bu kitablar hər birisi orijinal düşüncəni əks etdirməsi ilə diqqəti cəlb edir. Məsələn «Qalib gələn adam» (Vektor, 2007), «Qəlbi asiman kimi» (Qanun, 2007) avtobioqrafiik xarakterlidir. Bu tip əsərlər son dövrlərdə daha çox görünməkdədir. Ayrı-ayrı şəxsiyyətlərin həyatını, fəaliyyətini əks etdirən əsərlərin yaranması indi ənənəvi hal alıb. Bir forma kimi genişliklə yayılıb. Bunların bir hissəsini yubiley kitabları təşkil edir. Məsələn, əlli, altmış, yetmiş, yetmiş beş yaşların tamamında belə kitabların yazılması görünür. Bu özlüyündə müsbət haldır. Çünki burada ayrı-ayrı regionun spesifikası, ziyalı mühiti, Azərbaycanın ictimai, siyasi, mədəni həyatında baş verənlər bir təfərrüatı ilə əksini tapır. Bir-birindən maraqlı xatirə yazıları verilir. Bunlar özlüyündə tarixdir. Mühiti, onda gedən prosesləri ifadə edir. R.Gənzəlinin «Qalib gələn adam» kitabı da məhz bu hala hesablanıb. Yazıçının özü demişkən «çünki Hacı Müzəffər Qulu oğlu Məmmədov bu dünyanın Sözə layiq oğullarından biridir» (səh.3). Bu kitab boyu tam aydınlıqla görünür. Burada Müzəffər müəllimin şəxsində bir obanın, elatın, nəslin tarixini öyrənirik. Və sevinirik ki, Azərbaycan xalqının tarixində yaşanan əslə-kökə bağlılıq, əsrlər boyu daşınan dəyərlər bir nəslin şəxsində bütün təfərrüatı ilə açılır. Atalar ot kök üstə bitər deyiblər. Müzəffər müəllim kökə, ulu dəyərlərə söykənən və onunla yaşayıb nümunə olan Azərbaycan kişisidir. Kitabda maraqlı bir hekayə verilir. Mən

deyərdim bu hekayə nəinki Azərbaycan ədəbiyyatının, bütünlükdə dünya ədəbiyyatının fondunda ləyaqtli yer tutacaq nümunədir. Hekayənin adı «Durnalar qayıdanda» adlanır. Başlanğıcda hər şey təfərrüatı ilə görünür: «Anam, mənim gözəl anam xəstə idi. Mən də balaca, bapbalaca bir oğlan idim. Anamı heç belə görməmişdim; rəngsiz, ruhsuz, hərəkətsiz. Elə bil bir müddət əvvəl deyib-gülən, sonalar kimi gəzib dolaşan qadın deyildi.

Məni gətirib yanına qoymuşdular. Özüm gələ bilmirdim axı; səkkiz yaşım vardı, amma yeriyə bilmirdim. Uşaqlıqdan iflic olmuşdu ayaqlarım» (səh.19-20). Bu epizod çox şey deyir, bir tərəfdə ana narahatçılığı, hansı ana ki, ağrıların içində vurnuxduğu halda, oğlunun taleyindən narahatdı. Onu belə qoyub gedirdi. Digər tərəfdə problemlər içərisində yaşayan səkkiz yaşlı uşağın ana istəyi. Son olaraq bir sual qoyulur və kitab da bu sualla tamamlanır. «Görəsən, durnalar qayıdacaqmı»?... Kitabda kifayət qədər etnoqrafik məlumatlar var. Burada sözlərin etimalogiyasından tutmuş, regionun tarixinə qədər hər şey əksini tapır. Ordubad, Gənzə və digər adlarla bağlı şərhlər özünün inandırığılığı ilə diqqəti cəlb edir. «Qanzak, Qanza, Kənzə, Gənzə…

Tarixçi alimlərin tədqiqatlarına görə, qədim türklərin Qanzak adında bir tayfası olub. Tarixin müxtəlif dönəmində, həyatın qara burulğanında bu tayfa dağılıb, parçalanıb və ayrı-ayrı yerlərə səpələnib.

Türkiyə, İran, İraq, Azərbaycan…

Qanzak tayfalarının yuva qurub məskunlaşdığı yerlərin kiçik siyahısı bu dövlətlərdir.

Bu dövlətlərin ərazisində Qanzak sözünü özündə ehtiva edən adlar mövcuddur» (səh.47). Göründüyü kimi, kitabı təkcə Müzəffər müəllimin fəaliyyəti ilə məhdudlaşdırmaq olmaz. Əslində onu formalaşdıran mühit, yaşayıb-yaratdığı, uşaqlıq illərini keçirdiyi kənd təhsil illəri, atası Qulu kişi, anası Rəfiqə xanım, qardaşları Valeh, Cəmil, Oqtay, Rahim və başqaları haqqında verilən informasiyalar bir ailənin şəxsidə nümunə olacaq tipik Azərbaycan ailəsini səciyyələndirir. Ucqar dağ kəndindən gəlib əməkdar müəllimliyə qədər yüksələn, beynəlxalq iqtisadiyyatın problemlərini lazımı qədər öyrənən və onu gələcək nəslə çatdıran Müzəffər müəllimin həyat yolu şərh olunur. Bu cür kitablara indi ehtiyacımız çoxdur. Sabah isə daha çox olacaq.

Rasim Gənzəlinin avtobioqrafik səciyyəli digər bir kitabı «Qəlbi asiman kimi» (Qanun, 2007) adlanır. Kitab təkcə Azərbaycan elminə, musiqi mühitinə deyil, eyni zamanda bütünlükdə geniş oxucu kütləsinə töhfədir. Bu müəllifin geniş və zəngin dünyagörüşünü, əhatəli bir yaradıcılığa malik olduğunu göstərir. Kitabda doğurdan da qəlbi asiman kimi olan gözəl müğənnimiz Nuriyyə Hüseynovanın zəngin musiqi istedadı, həyat yolu əksini tapır. Doğrusu, xeyli əvvəl Nuriyyə xanımın yaradıcılığına mənim elə də bələdliyim yox idi. Azərbaycan musiqisinə, xüsusilə xalq

musiqisinə həmişə maraqlı olmuşam. Onun haqqında eşitmişdim. Şəxsən özü ilə tanışlığım olmayıb. Ancaq bu kitab və yoldaşlarımın Nuriyyə xanımın oxusuna marağı məni də xeyli düşündürmüşdü. Hətta hörmətli akademikimiz, el ağsaqqalı Teymur Bünyadovun kitabının əlyazmasında ona aid bayatını da oxumuşdum. Belə qərara gəlmişdim ki, bu təsadüfi deyil. Azərbaycan mühitində çoxlu kitab bolluğu olan kimi, müğənni bolluğu da var. Ancaq Nuriyyələr azdı, barmaqla göstərilə biləndi. Məsələ burasındadır.

Kitabda Dırnıs kəndi haqqında müfəssəl məlumat verilir, onun adamları, adamlarının geyimləri, məşğuliyyəti, Dırnıs sözünün mənşəyi və s. diqqəti cəlb edir. Yazıçı maraqlı bir məqama toxunur: « Düzdür, Ordubadda bir-bibğindən maraqlı, qeyri-adi gözəlliyi, qəribəliyi, təbiəti ilə göz oxşayan əzəmətli dağlar, sıldırım qayalarla əhatə olunan kəndlər az deyil…Vənənd, Kələki, Katam, Dəstə, Əylis, Əndərnic, Gənzə, Anabat, Tivi, Bist, Azçı, Dizə… Hamısının da öz görkəmi oturuşu, duruşu. Adamları da özləri kimi qəribə, bir-birindən fərqli, seçilən.

…Belə deyirlər ki, rayon mərkəzində oturan yaşlı adamlar buraya gələnlərin hansı kənddən olduğunu geyimindən, yerişindən, hərəkətindən bilirlər. Bu qəribəliyin haradan, nədən qaynaqlandığını bilmək çətindi. Bəlkə yaşı min illərlə ölçülən bu kəndlərin görünməyən yaddaş kodunda əbədilik formalaşan «bir dünya var» və

bu dünyanın sərhədlərini dağıdıb «ümumi məkan» yaratmaq heç də asan deyil» (səh.9). Bu fikirlər məndə belə qənaət yaratdı ki, hələ bizim məişətimizdə öyrənilməmiş çox məsələlər var. Xalqımızın geyim mədəniyyəti, məişəti, adət-ənənəsi kənd-kənd müqayisələrlə, eləcə də regionlar üzrə öyrənilməlidi. Düzdü, bu istiqamətdə müəyyən işlər görülüb, ancaq daha təfərrüatlı araşdırmalara indi ehtiyac duyulmaqdadır.

Kitabda Nuriyyə xanımın ailəsi, ətrafı, orta məktəbdə təhsil illəri və s. yığcam, lakin təfərrüatlı şəkildə təsvir edilir. «Yollara iz düşəndə», «Salam, doğma məktəb», «Unudulmaz günlərin işığı», «Müsabiqələr, festivallar» və s. başlıqlarda Nuriyyə xanımın həyatının müxtəlif tərəfləri açılır. Daha sonra N.Hüseynova haqqında söz demiş elm, sənət adamlarının ürək sözləri verilir. Bu kitab bizim üçün bir sıra baxımdan əhəmiyyətlidir. Ən birincisi, musiqimizdə yeri və haqqı olan gözəl bir müğənninin haqqını vermək anlamında. Daha sonra Azərbaycan musiqisinin inkişaf tarixini öyrənmək və davamlı yaşanışını izləmək baxımından. Burada digər məsələlər də var.

Rasim Gənzəli təkcə iri həcmli romanlar, povestlər müəllifi kimi diqqəti cəlb etmir, eyni zamanda hekayə ustadı kimi də maraq doğurur. Onun hər bir hekayəsi bütövlüyü, hadisələri əks etbirmə, tipik xarakterlər yaratma bacarığı ilə seçilir. Bu müəllifin klassik ənənəyə bağlılığını, C.Məmmədquluzadədən, A.Şaiqdən, Ə.Haqver-

diyevdən, S.S.Axundovdan və başqalarından gələn ənənənin yaşarlığını göstərir. «Düşmən qardaşlar», «Sonsuz ana», «Zəlzələ», «Yurda çəkən yuxular», «Arzuya gedən yol», «Lal fəryadlar», «Ölən adam» və s. hekayələri son dövr hekayə yaradıcılığına olan töhfədir. Bu hekayələrin hər birində tipik təqdimetmə xüsusiyyəti var. Hadisələr axarında elə maraqlı və təsirediciliklə inkişaf edir ki, həmin təsirdə olacaqları izləməli olursan. Və son olaraq orijinal bir düşüncə ilə qarşılaşırsan. «Nakam» hekayəsində başlanğıcda göstərilir: «Nakam arvad dümağ saçlarını darayıb ortadan ayırdı. Gəlin kimi bəzənib yaşmaq tutdu. Əlli il əvvəl gəldiyi otağa utancaq nəzər salıb bayıra çıxdı. Qəbristanlıq evin qənşərindəydi. Qaynatasının, qaynənəsinin, qaynının məzarları görünürdü. Üzünü yana çevirdi, utanırdı onlardan. İcrakom sədrinin səhər zəng eləyib dediyi sözlər nöqtəsinəcən yadında qalmışdı. «Nakam arvad, gərdəyi hazırla ərin Amerikadan gəlir. Əlli ildən sonra təzədən gəlin olacaqsan» (səh.138). Əlli ildən sonrakı görüş, bundan dəhşətli, bundan ağrılı nə ola bilər. Burada müəllif kifayət qədər psixologi məqamları, insan hisslərinin hansı ağrılardan keçdiyini təqdim edir. Bu təqdimetmə sadəcə olaraq yazıçı təxəyyülü də deyil, burada real həyat həqiqətləri, ona söykənikli olacaqlar özünə yer tapır. Çünki tarix boyu bu tip qarşılaşmalar, tipik hadisələr olub? Dastanlarımızda, nağıllarımızda, əfspnə, əsatirlərimizdə, eləcə də mahnılarımızda belə ayrılıq mo-

tivli təsvirlər kifayət qədərdi. Bu tarixin insanlara bəxş etdiyi ağrılardı. Rus-alman müharibəsi də Nakama belə bir zərbəni vurmuşdu. Rüstəm hamı kimi müharibəyə yollanıb rus ordusu sıralarında almanlara qarşı ağır döyüşlərdən keçmişdi. Son olaraq vətənə qayıtmaq yox, əlli il yad məmləkətdə yaşamaq məcburiyyətində qalmışdı. «Həyət-baca səs-küylüydü, qonaq-qaralıydı. Rüstəm kişini görməyə gəlmişdi hamı. Tanıdığı lap az idi Rüstəmin. Tanıdıqlarını əlli ildə dünya süpürüb-sovurmuşdu. Ancaq onu tanıyırdılar. Yurd yerinin yaddaşı möhkəm olur. Balaca uşaq da bilirdi ki, bu yurdun Rüstəm adında oğlu var – o nə vaxtsa qayıdacaq, bu torpağa qovuşacaq…

Nakam yaşmağını açmadı Rüstəmlə görüşəndə.

-Salam, Nakam.

-Salam, Rüstəm.

Elə bu qədər. Əlli ilin hicranını ürəklərində boğdular. Əlli il əvvəldəki kimi utancaqlıq vüsallarına qəlblərində qovuşdular. (səh.139-140). Burada maraqlı bir tipik obraz da var. Bu Sadıq kişidir. Həmin müharibə ağrılarını yaşayıb, vətənə dönərkən ona əsir düşdüyü üçün damğa vurulmuşdu. Hələ bu az imiş kimi əsirlikdən sonra on illiyə Sibirə sürgünə göndərilmişdi. Yazıçı bu ağrıları sanki özü yaşayıb görürmüş kimi təqdim edir və inandırıcılıqla sovetlər dönəmində müharibənin vurduğu yaraların hələ də sağalıb qurtarmadığını verir. R.Gənzəli psixoloji məqamlar ya-

radan və onu təqdim edə bilən sənətkarlardandır. Onun bütün hekayələrində bu aydınlıqla müşahidə olunur. «Qoca dəmirçi» hekayəsi isə həyatımızın tamamilə bir başqa məqamını ifadə edir. Hekayənin başlanğıcında oxuyuruq: «Kişi yorğun nəzərlərini keçib gəldiyi kələ-kötür, ilan kimi qıvrılan dolayı yollarda gəzdirdi. Hamarı da vardı o yolların, dəvə beli kimi diki, yoxuşu da. Onun ömür yoluna bənzəyirdi bu yollar. O yollarda çətinə də düşmüşdü, dara da, bəzən büdrəmişdi o yollarda. Ancaq yıxılmamışdı. Ömrün ləyaqət deyilən zirvəsinə yüksəlmək üçün hamar yolları tələsmişdi. Beləcə yollarda yorulub, dolaylardan yol aşmışdı. Və indi dayandığı uzaq ömür yolunun sonunda dayanmışdı.

Üzündə dərin bir hüzn vardı. Gözlərindən yorğunluq tökülürdü. Üz-gözünü basmış ağlı-qaralı saç-saqqalının tükləri də kişi kimi yorğun görünürdü.

Nəzərlərini yollardan yığışdırdı. Asta addımlarla qədim milli üslubda kərpicdən işlənmiş qapıya tərəf addımladı.

-Xeyir ola Polad kişi?!

-Həmişə qulluq sahibi olasan, sənə işim düşüb.

-Buyur, eşidirəm səni.

Polad kişi qamətini şax tutub yorğun gözlərini otaqda gəzdirdi. Sonra əlinin içində yorğun tüklərini tumarladı.

-Orxan, gəlmişəm bir başdaşı düzəldəsən.

-Allah rəhmət eləsin. Qəbri nurla dolsun. Ölən kimdir?

-Mən.» (səh.173).

Dünyanın bütün ağrılarından keçən, hər cür əziyyətlərə sinə gərib halal bir zəhmətlə yaşayan Polad kişi hansı səbəbdən bu qənaətə gəlmişdi? Onu nə vadar etmişdi ki, həmyerlisi Orxana belə bir işi görməyi tapşırırdı? Marpaqlı olan budur. Çünki Polad elə də asan həyat yaşamamışdı, ağır güzaran onu sınaqlardan çıxarmış, əyilməz etmişdi. Oğlunun da dəmirçi sənətinə yiyələnməsini istəyirdi. Beləcə halal zəhmətlə yaşayan ailə birdən tamamilə başqa məcraya yönəlir və oğul oxumaq istəyilə şəhərə yola düşür. Atasının, istəklisi Səriyyənin gözlərini yolda qoyan oğul bir müddətdən sonra məlum olur ki, Sveta adlı birisilə ailə qurub. Məsələ bununla bitmir. Artıq oğlunun yeni mühitdə dəyişməsi, və ona kinayəli şəkildə dedikləri, iddiaları, «atalar oğullarına «Volqa» Mersedes» alırlar, sənsə… sənsə dəmirçixana xarabanda eşələnirsən…» (səh.177) söhbəti hər şeyə son qoyur. Zamanın sərt ruzigarlarına, hər gür çətinliklərinə sinə gərən ata belə bir vəziyyətə dözə bilmir. Son olaraq hər şeydən əlini üzüb oğluna «çörəyim sənə haram olsun» deyərək evdən çıxır. Hekayənin sonunda isə bu ağrıları sonuclayacaq bir məqamla qarşılaşırıq: «Usta, başdaşıma doğulduğum tarixi yaz, ardını boş saxla, hansı ilini qismətimə düşsə yazarsan. Özün də başdaşımı qəbrimin üstünə qoyarsan. Həyatda bir kəsə möhtac olma-

mışam, bundan sonra da olmaram. Təkcə bir möhtaclığım var. O da başdaşımdır» (səh. 177). Dərdin, ağrının bundan o yanası yoxdur. Böyük çətinliklə böyüdüb boya-başa çatdırdığı oğlun hərəkətləri atanın əlini-ayağını yerdən üzür. Özünün dediyi kimi heç kəsə möhtac olmayan dəmirçi bir qəbirdaşının qəbrinin üstünə qoyulmasına möhtacdır. Onu da öz oğluna yox, özü ilə birgə həyatın çətinliklərini yaşayan, zəhmətlə dolanan ustaya tapşırır. Bax son budur. Dəhşət olanı budur. R.Gənzəli həyatın bu ağrılı tərəflərini atalar, oğlullar timsalında psixoloji gərginliklərlə təqdim edir. Bunlar eyni zamanda R.Gənzəlinin yaradıcı imkanlarını ortaya qoyur. «Baldan şirin», «Bir əlçim işıq», «Yaşamaq dərdi», «Yovşan ətri», «Kişi nəfəsi», «Təbriz yuxusu», «Yaddaş ağrısı» və s. hekayələri Azərbaycan bədii nəsrini zənginləşdirən nümunələrdir. Eyni zamanda son dövrün uğurları timsalında orjinal düşüncəni əks etdirməsi baxımından maraqlıdır. Yazıçı tipik şəraitdə tipik obrazlar yaratmağı bacarır. Onun qəhrəmanları həyatdan gəlir, həyatın ağrıları ilə yaşayır, bu səbəbdən də inandırıcı görünür.

Rasim Gənzəli yaradıcılığında qeyd olunmalı bir istiqamət də var. Bu xalq dilinin imkanlarından yüksək bacarıqla istifadə edə bilməsidir. Dil yaradıcılıqda başlıca məsələlərdəndir. Hansı sənətkar xalq dilinin zənginliklərindən istifadə edirsə, o zənginliklərə nə qədər baş vura bilirsə bir o qədər qazanır. Son dövr ədəbi mühitdə

yerli-yersiz sözlərin işlədilməsi, axını başlayıb. Ancaq bu bizə miüvəqqəti hal kimi görünür. Çünki sözün həqiqi mənasında yaradıcı olanlar öz imkanlarını dillə ortaya qoyur. Bu imkan olmayanda qarışıqlıq, daha açıq desək əllaməçilik başlayır. Ədəbi tənqiddə dil məsələsi ilə bağlı bir məqam vurğulanır. Deyilir ki, şairin, yazıçının vətəni onun dilidir, hər sözü, hər kəlməsi isə vətən torpağının bir parçasıdır. Bunu biz R. Gənzəlinin əsərlərində də görürük. O, sadə, aydın xalq dilində danışır, qəhrəmanları da bütün fərqlilikləri ilə eyni tendensiyanı davam etdirir. Rasim Gənzəli bütün bu yaradıcı imkanları ilə bütöv görünür və ədəbi prosesin uğurları kimi diqqəti cəlb edir.

# BƏDİİ DÜŞÜNCƏMİZ, MÜBARİZƏMİZ VƏ GEN YADDAŞIMIZ

Azərbaycan bədii nəsri ilə bağlı son dövrdə elmi-nəzəri aspektdə kifayət qədər araşdırmalar aparılmadadı. Bunlar özü də yeni düşüncələri, yanaşma fərqliliklər çrini ortaya qoymaqla ədəbi-nəzəri fikrin nə qədər uğurlu inkişafda olduğundan xəbər verir. Bu bir istiqamətdə yaranan bədii nümunələrin mövzu, mündəricə fərqlilikləri ilə bağlıdır. Və mühitin kifayət qədər zənginliklərlə səciyyələnməsindən xəbər verir. Azərbaycan ədəbi mühitinin ayrı-ayrı dönəmlərdəki tarixinə fikir verdikdə, eləcə də ədiblərimizin müxtəlif əsrlərdə mühitin qaynarlığı ilə bağlı qənaətlərinə diqqət yetirdikdə bunu aydınldıqla görürük. Fikrimizcə, bədii düşüncənin zənginliyi bütünlükdə türk xalqları üçün xarakterik haldı. Həm şifahi, həm də yazılı ədəbiyyatımıza diqqət yetirdikdə də tam aydınlığı ilə müşahidə olunur. Dilimizin poetikliyi də bir istiqamətdə bu ruhun komponentidir. Xalq mahnılarımızdan birində vurğulanır ki, «qalada yatmış idim top atdılar oyanmadım, söhbət ilə, saz ilə oyatdılar oyandım». Bu özlüyündə xalqımızın sözə, nəğməyə, bədii düşüncəyə verdiyi önəmdi. Məhz bu səbəbdən də ulularımızın min illər boyu gəldiyi yolun qaranlıqlarına ancaq və ancaq söz vasitəsilə işıq tuta

bilirik. Ədəbi-nəzəri fikrin görkəmli nümayəndələri sözü, nəğməni xalqımızın ilk mürəbbisi hesab etmişlər. Bu mənada biz bədii düşüncəmizin, dilimizin, sözümüzün uğurları ilə bütün zamanlarda fəxr edə bilərik. Elə indi də. Sön dövr ədəbi mühitdə müşahidə olunan qaynarlıq da bunun mümunəsidir. Sovetlər dönəmindəki senzuranın aradan qaldırılması, respublikamızın müstəqillik qazanması bir çox istiqamətlərdə olduğu kimi, ədəbi-mədəni mühitdə də yeni dəyərlərin ortaya çıxması ilə müşahidə olundu. Artıq demokratiya zaman-zaman hallandırılan sandıq ədəbiyyatının ortaya çıxarılmasına şərait yaratdı. Ancaq etiraf edək ki, elə bir diqqət doğuracaq və imperiya qadağaları ilə daban-dabana dayanacaq ədəbiyyat nümunəsi ortaya çıxmadı. Yəni aydınlaşdı ki, sandıq ədəbiyyatımızda da elə bir tipik hadisəyə çevriləcək ədəbiyyat nümunəsi yaranmamışdı. Bir məsələni də əlavə edək ki, müstəqillik sözə, demokratik düşüncəyə qapılarını açdı. Yaradıcı üçün «nəyin var meydan açıqdı buyur ortaya çıxar» tendensiyasında bir yol tutdu. Bu gün də həmin yol davam etdirilir. Kitab bolluğu, səviyyəsindən, içində nəyin olmasından asılı olmayaraq həm poeziyada, həm də nəsrdə, dramaturgiyada canlanma, böyük çoxluqla müşahitdə olunma buna nümunədi. Burada bir növ çətin olan bir vəziyyət müşahidə olundu. Bu da həqiqi sənət nümunəsinin müəyyənləşməsidi. Böyük bir qrup bu məsələdə işbaz funksiyasında göründü. Ancaq həqiqi yazar, istedad sahibləri öz küməsinə qısı-

nıb heç nəyin fərqinə varmadı. Qələmlə ağrılarını, düşüncələrini ovundurdu. Vətən, yurd sevgisini, dünyamızın ağrılarla dolu təlatümlərini yazıya gətirdi. Rasim Gənzəli də məhz belə yazarlardandı və bu dolaşıqlıqlarda əsil yaradıcı ömrü yaşamağa üstünlük verənlərdəndi. Onun yaradıcılığını, duyğu və düşüncələrini müxtəlif hekayə və romanlarında, kitablarında nəzərdən keçirmişəm. Hətta bəzi məqamlarda mətbuat səhifələrində fikirlərimi də bölüşməyə çalışmışam. Haqqında yazılanlara, ədəbi mühitin qənaətlərinə də müəyyən qədər bələdəm. Ancaq yeri gəlmişkən bir məsələni də vurğulayım. Bugünkü ədəbi tənqid demək olar ədəbi proseslə ayaqlaşmaq məsələsində çox arxada qalır. Təəssüf doğurur ki, bütün mühitə loyal münasibətlə xarakterizə olunur. Belə bir vəziyyətdə görünüş isə ümumiyyətlə ədəbi tənqidin işi deyil. Yadımıza keçən əsrin 30-40-cı illərindəki və daha sonrakı mərhələlərin ədəbi mübahisələri gəlir. Əli Nazim, M.Hüseyn, M.Arif, M.Cəfər, A.Zamanov, Q.Xəlilov və bu silsilədən olan söz sahiblərinin bütünlükdə ədəbi prosesi təhlili gözlərimizin qarşısında dayanır. Onlar sözün həqiqi mənasında ədəbiyyatımızın keşiyində dayanmışdılar. Əgər belə olmasaydı bu gün mühit bu cür qarışmazdı, hər kəs öz dəyərində qiymətini alardı. Bir mənada məhz bu baxımdan ədəbi mühiti izəyən hər bir kəsin içini təəssüf hissi bürüyür. Ancaq ümidverici çox şey var. Bu ilk öncə istedadların, kifayət qədər sözün qədrini bilən ziyalı mühitinin olması ilə bağlıdır.

Qalanları isə hər şeyi öz dəyirmanından keçirən zamanın öhdəsinə düşür. Çünki bizim dəyərini vermədiklərimizi və ya verə bilmədiklərimizi vaxt yerinə qoyacaq. Belə bir tendensiyada ədəbiyyatımızın uğurldarı timsalında gələcəyimizə, gələcəyə gedən yolumuza ümidlə baxmaq olar. Bu ümid yerlərini doğuracaq yaradıcılardan biri Rasim Gənzəlidi. Onun zəngin yaradıcılıq yolu sözün həqiqi mənasında bütün müstəvilərdə nümunədi. Bu sözün məsuliyyətini və bütün tərəflərini dərk edərək deyirəm. Və müəyyən vaxtlarda da yazılarımda demişəm. «Qanlı çay» (Bakı, Gənclik, 1999), «Qara sevda» (Bakı, Gənclik, 2000), «Qurdlar və manqurdlar» (Bakı, Adiloğlu, 2004), «Qaranlıq gündüzlər» (Bakı, Vektor, 2005), «Qalib gələn adam» (Bakı, Vektor, 2007), «Qəlbi asiman kimi» (Bakı, Qanun, 2007), «Qiyamət qopanda» (Bakı, Vektor, 2010) kitabları sözün həqiqi mənasında Azərbaycan bədii nəsrinin boyartımı, zənginləşməsi faktı kimi qiymətləndirilməlidir. Burada çox mətləblər açıqlanır. Bir istiqamətdə müəllifin fərdi yazı manerası, yaradıcı təhlil zərurəti doğurursa, digər istiqamətdə bütünlükdə ictimai, siyasi, mədəni mühitin şüur altı sferasında yaşananlar göz önünə gəlir. Hamımız, hər birimiz xalqımızın hansı keşməkeşlərdən, hansı ağrılardan keçdiyinin canlı şahidiyik. Yəni bugünkü anlamda onun içərisindəyik. Və tarix kimi də onu müəyyən tərəfləri ilə dəftərdən, kitabdan, mənbələrdən ən aşağısı başa düşəcəyimiz səviyyədə öyrənmişik.

Bizə dərslik kitablarından, monoqrafik araşdırmalara qədər bəllidi. Və bunlar bir tərəfdə faktın, sənədlərin dedikləridi. Ancaq onun digər tərəfində həmin faktların arxasında olan olayların dərk edilmə ehtiyacında yaşanan ağrıları var. Məsələ də bundadı. Onda biz hər şeyi şüuraltı qavramada daha aydınlığı ilə duya bilirik, xalqımızın, ulularımızın hansı ağrılardan keçib gəldiyini görür və aydınlaşıdırırıq. Məhz prof. A.Hacıyev çox doğru olaraq Avropa romançılığı timsalında bir məsələni vurğulayır: «Avropanın əsas təhkiyə ölkələrində – İspaniya, Almaniya, Fransa, İngiltərə, İtaliyada çox hallarda roman roman yox, tarix və ya həyatın tarixi adlandırılırdı». Burada olduqca böyük həqiqət var. Biz bunu hekayə, povest və digər formalarda, hətta lirik nümunələrdə, eləcə də əfsanə, rəvayət, dastan, nağıl nümunələrində də görürük. Ancaq məsələ həmin formaların tarixi, tarix olmanı hansı səviyyədə əks etdirməsindədi. Bəzilərində bu real tarixə, tarix olmaya yaxınlaşır, bəzilərində isə uzaqda, özü də çox uzaqda görünən mayakı xatırladır. Klassiklərimiz özlərinin poemalarını da dastan deyə vurğulamışlar. Məsələn, N.Gəncəvi, Qul Əli, Əssar Təbrizi, Fədai, Məsihi və s. Biz tariximizin müəyyən məqamlarını, qaranlıqlarını məhz dastanlarımız, klassiklərimizin əsərlərində olunan epizodik parçalar, təsvirlər vasitəsilə bir istiqamətdə aydınlaşdırırıq. N.Gəncəvi «köhnə dastanların qoca ustadı, öz hekayətinə belə başladı» deyirdi. «Dastani-Əhməd Harami»də «bu

dastanı bu gün bünyad edəlim, haqqın qüdrətlərin biz yad edəlim» İsa «əvvəl Allahın adını yad edəlim, sizə də bismillah bünyad edilm» («Mehri və Vəfa»), Əssar Təbirizi «xatirimdə qalıb köhnə tarixlərdən bu dastan» («Mehr və Müştəri») söyləyirdi. Bütün bunlar və bu kimi faktlar hamısı ənənədi. Ədəbi düşüncəmizin dərin qatlarından günümüzə qədər əlavələrlə, zənginləşmə ilə gəlir. Məhz roman bir janr kimi bu zənginləşmədə yeni keyfiyyətlərlə görünmədədi. R.Gəncəli də bir yaradıcı kimi qələmini son dövrlərdə iri həcmli əsərlərdə, forma kimi romanda sınamadadı. Artıq onu da əlavə edək ki, R.Gənzəli yaradıcılığının zənginlik, kifayət qədər təhlillərə ehtiyac doğuran zamanını yaşayır.

Mənim düşüncələrim R.Gənzəlinin sonuncu, bu günlərdə nəşr olunan «Qurdbəşər» (Bakı, MMC, 2011) romanı ilə bağlıdır. Ancaq onu da əlavə edim ki, bu roman təkcə oradakı bədii mahiyyəti, mövzu və mündəricəni, obrazlar sistemini təhlillə kifayətlənməyi zəruri etmir. Burada bir istiqamətdə əvvəlki kitablar, hekayə və romanlar da məsələyə daha ətraflı yanaşmağa ehtiyac doğurur. R.Gənzəlinin «Qurdlar və manqurdlar» kitabının arxa qabığında bir yazı var. Orada deyilir: «Mən dünyaya gələndə qurdlar uca dağların qoynunda ağız-ağıza verib ulayırmışlar. Yaşa dolub həyatın gərdişini dərk edəndən sonra bunu yaxşı əlamət hesab elədim. Qurd canlı təbiətin məğrurluq, cəsarət, qorxmazlıq rəmzidir. Axı qurd tülkü kimi dərələrdə gizlən-

mir, ayı kimi onun-bunun yuvasına baş uzatmır, zəifləri parçalayıb yemir. Qurdlar qoyunları öldürür. Öldürür ki, qoyunlar dünyanı başına götürməsin. Yoxsa dünya qoyunların əlindən başını itirər, hardan gəlib hara getdiyini bilməz. Qoy könüllərimiz tanrısız, insanlarımız yurdsuz, dağlarımız qurdsuz olmasın». Bu müəllifin «Qaranlıq gündüzlər» kitabındakı başlanğıc yazıda, «Qaranlıqdan işığa və yaxud qoyun bir az da özümdən deyim» adlı avtobioqrafik xarakterli düşüncələrində də (kiçik fərqlərlə) əksini tapıb. Bu fikirlər mənim yadıma çox-çox qədimləri, türkün qurdla bağlı inanclarını, totem olma təsəvvürlərini saldı. Göytürklərin dastanlarında, eləcə də bütünlükdə türk xalqlarının şifahi ədəbiyyatında qurdla bağlı çoxlu, həm də bir-birindən maraqlı təsəvvürlər dolaşır. Türk düşüncəsində qurdun hamiliyi bir xətt kimi həmişə özünü göstərib və türklər qurdla özləri arasında yaxınlıq görüblər. Məhz R.Gənzəlinin yaradıcılığında da bu tam aydınlığı ilə müşahidə olunur. Bir növ əcdadların ruhunun yaşanışı, əks-sədası kimi görünür. Elə əsərlərinin adında təkrarlanmalar da («Qurdlar və manqurdlar», «Qurdbəşər» və s.) bunun ifadəsidi. Bir növ bu genetik yaddaşın kodudur. Ədəbiyyatşünas alimimiz Ə.Səfərli «Dəmir iradəli insan» adlı məqaləsində (R.Gənzəlinin «Qanlı çay» adlı kitabının başlanğıc yazısıdır) maraqlı bir məqama toxunur: «Ordubadda Rasim deyəndə Gənzə, Gənzə deyəndə Rasim yada düşür, xatırlanır. Adını oddan alan bu kən-

din insanlarının da ruhu, qəlbi oddan yaranmışdır. Sıldırım dağların qoynunda üzük qaşına bənzəyən Gənzə Ordubadın alma, armud bağı, gül bağçasıdır. Qansa – Od evi – Fətulla xərabəti kəndin ulu tarixidir, atəşpərəstlik yadigarıdır. Tarixin qaranlıq çağlarından baş alıb gəldiyini göstərməkdədir. Rasim də ilhamının işığını, ürəyinin hərarətini ulu babalarının sehrkar, əsrarəngiz «od evi»ndən almışdır. Səfiqulu və Gülmazın saf suları, başıqarlı Ələngəz və Soyuğun keçilməz qayaları, laləli dağlar, qızılgül ətirli bağlar Rasimin ruhunu oxşamış, onu yazıb-yaratmağa səsləmişdir». Həmin qədim tarix, onun bu və ya digər izləri Rasim Gənzəlinin təsvirlərində, düşüncələrində bir yaddaş faktı kimi yaşanır. Bəli, bir istiqamətdə təbiətin gözəllikləri, dünyaya göz açdığı kəndin füsunkar mənzərələri yaradıcılıq üçün ilham mənbəyinə çevrilirsə, digər istiqamətdə daşlaşmış tarixlər, tarixin çox dərin qatlarından gələn türklük ruhu R.Gənzəlinin düşüncələrini hərəkətə gətirmiş və bir-birindən maraqlı əsərlərin ortaya çıxması üçün vasitəyə çevrilmişdi.

Rasim Gənzəlinin yaradıcılığında bir forma kimi hekayə, povest, roman həm ümumi kontekstdə, həm də müxtəlif problemlər müstəvisində təhlil olunma zərurəti doğurur. «Qanlı çay», «Bəyaz gecələr», «Həsrət», «Qaranlıq gündüzlər» povestin bir forma kimi janr poetikasını təhlil etməyə kifayət qədər imkanlar yaradır. Eləcə də onun bir-birindən maraqlı «Durnalar

qayıdanda», «Nakam», «Yurda çəkən yuxular», «Zəlzələ», «Bir cüt qərənfil» və s. müasir bədii nəsrimizin inkişaf xüsusiyyətlərini aydınlaşdırmağa imkan verir. Eyni zamanda onun yaradıcılığında xüsusi vurğuladığımız romanlar da həm məzmun, həm də problem orijinallığı ilə tədqiq olma aktuallığını həmişə saxlayır. «Qiyamət qopanda», «Qara sevda», «Qurdlar və manqurdlar» son dövr ədəbi proses müstəvisində bədii nəsrimizin təhlili üçün geniş imkanlar yaradır. Bütün bunlar və bura qədər dediklərimiz R.Gənzəlinin uzun bir yaradıcılıq yolu keçməsi təsəvvürü yaradır. Romanın bir forma kimi R.Gənzəli yaradıcılığında yer alması təsadüfi deyil. Bu janrın özünün imkanları, düşüncələri daha geniş təsvir, hadisələrin manevr imkanları ilə bağlıdır. V. Belinski yazırdı: «Romanın məzmunu müasir cəmiyyətin bədii təhlilidir, roman bu cəmiyyətin görünməz əsaslarını, adətlər və şüursuzluq sayəsində cəmiyyətin özündən gizli qalmış əsaslarını açıb göstərir. Müasir romanın vəzifəsi həyatı bütün çılpaq həqiqəti ilə təsvir etməkdir. Ona görə cəmiyyət romanı öz güzgüsü hesab edir və onun vasitəsilə öz-özü ilə tanış olur, özünü, öz mahiyyətini, xüsusiyyətlərini şüurlu surətdə dərk etmək kimi bir iş görür». Bu hal Rasim Gənzəlinin romanlarında bütünlükdə «Qurdbəşər» romanında özünün komponentləri ilə görünür.

Başlanğıcda xüsusi fərqləndirmə ilə deyilir: «Bir neçə qərinə sonralar dünya belə qalmayacaq; ya şeytan bütün taxt-taca sahib olub

bəşəriyyəti şeytanlaşdıracaq, ya da ədalət qalib gələrək dünyamızı firavanlığa gətirəcək». Müasir dünyamızın problemləri, eləcə də Azərbaycanımızın ağrıları bunu deməyə əsas verir. Bütün zamanlarda ayrı-ayrı cəmiyyətlərin problemləri, üzləşdiyi çətinliklər, mənəm-mənəmlik iddiaları, başsızların başa çıxarılması həmişə cəmiyyət və insanlıq üçün fəlakət, ağrı gətiribdi. İnsanların içərisində ümid hisslərinin üstündən sanki xətt çəkmək amalına xidmət edibdi. Tarixin dərinliklərinə getdikdə, fironların, tiranların savaşlarına, savaş tarixlərinə diqqət yetirdikdə bu düşüncələrin çox dərin qatlarının olması təəssüratı yaranır. Bizim nə qədər ədəbiyyat nümunələrimiz – poeziyada, nəsrdə, dramaturgiyada hamısı həmin pozulmuş nizamın bərpası məsələsinə xidmət edib. «Avesta»da rastlaşdığımız «bunu soruşuram düz de Ahura, necə qurulacaq ən yaxşı həyat» tezisi bəlkə də min il əvvəl düşüncənin faktı kimi insanları narahatçılıqda saxlayıb. Və yaxud da miladdan öncə üçüncü minilliyə aid edilən Çin ədəbiyyatı ilə bağlı nümunədə göstərilir: «kimə deyim dərdimi, ədalətli adam yox, dünya əyrilərindi»? Bu suallar günümüzə qədər insanlığı, bəşər cəmiyyətini izləmədədi. Azərbaycan poeziyasının əvəzsiz simalarından olan S.Vurğun «qalib gələcəkmi cahanda kamal» sualı ilə həmin ənənədə dayanır. Təkrar qeyd edək ki, bu bir nəfərin, beş nəfərin və yaxud da zamanın hansısa ötəri kəsimində baş verənlərin yaratdığı təəssürat deyil. Burada insanlığın ağrıları,

üzləşdiyi çıxılmazlıqların yaratdığı mənfi emosiyalı, yaşamla-ölüm arasındakı çarpışmalar, onların doğurduğu təəssüratlar cəmləşir. R.Gənzəlinin «Qurdbəşər» romanının adında və mahiyyətində də bu cəmləşir.

Romanın adına qurd ifadəsinin gətirilməsi təsadüfi deyildir. Bu özlüyündə üzdə görünən tərəflərdən əlavə çox dərin qatlara nüfuz edir. Bir növ genetik kodları, şüuraltı düşüncəni, mifik zamandan bu yana olanların hamısını özündə cəmləşdirir. Dastanlarımızda «Boz qurd»dan, «Ərqənəkon»dan, «Oğuz Kağan»dan, «Kitabi-Dədə Qorqud»dan ta «Koroğlu»ya qədər hamısında qurdun funksiyası eyni müstəvidə görünür. Koroğlunun «nə qədər səfil gəzərəm, adım qurd oldu, qurd oldu» sözləri ilə «Boz qurd» dastanındakı qurdun həm ana, həm də ata tərəfdən türkün mövcudluğunda aparıcı rolu, eləcə də «Oğuz Kağan»da ən ağır məqamda qurdun xilasedici, yolgöstərici funksiyası hamısı eyni xətdə dayanır. R.Gənzəli əsərlərində bu qurd adının bütün müstəvilərində həmin araxaik düşüncədən gələn məqamlarıdı və uğurlu yaşantılardı. Bir növ türkün qəhrəmanlığının, mübarizə əzminin ifadəsidi. Bu düşüncə Çin mənbələrinə qədər gedib çıxır. Çin mənbələrində qeyd edilir ki, Kaoçinin iki qızı olur. Onlar o qədər gözəl olurlar ki, öz gözəllikləri ilə ancaq tanrıya layiq ola bilərlər. Qız dağların döşündə rast gəldiyi qurda doğru getmiş və onunla evlənmişdi. Bundan isə kao-çinin tayfası törəmişdi. Belə bir düşüncənin möv-

cudluğu bütün türk xalqlarında var və yaşamaqdadır. R.Gənzəlinin romanında isə bir başqa istiqamətdə nəzərə çarpır. Cavanşirin, Babəkin mübarizəsinin ifadəsidi. N.A.Dobrolyubov tənqidi məqalələrinin birində xüsusi olaraq vurğulayırdı ki, xalq ən ağır məqamlarında özünün keçmişinə müraciət edir və oradan qüvvət alıb mübarizəsini aparır, düşdüyü vəziyyətdən çıxış yolunu tapır. R.Gənzəlinin yaradıcılığında da məhz bugünkü Azərbaycan durumu, rus və fars şovinizminin törətdikləri, onun yaşanan fəsadları timsalında əksini tapır. Bu məsələlənin kifayət qədər ağrılı, görünən və hamımız üçün aydın olan tərəfləridi. R.Gəncəli düşüncəsində isə onun çox dərinlərdən gələn qatları, mübarizəmizin, türk əzmkarlığının genetik kodları müşahidə olunur. K.İsmayılov «Qurdlar və manqurdlar» romanında müəllifin şəxsi iradəsi, xarakter xüsusiyyətləri fonunda məsələyə toxunur: «Rasim Gənzəli mənim həyatda heyrət etdiyim çox az adamlardan biridir. Mən onun əzminə, iradəsinə, həyatsevərliyinə, işgüzarlığına heyrət edirəm. Fiziki imkanları çox məhdud olan bu adamın bu qədər dəqiq müşahidə qabiliyyətinə, biliyinə, zəkasına, mühakimə yürütmək cəsarətinə heyrət edirəm. Yalnız öz gücünə arxalanan, yürütdüyü mühakimələrin hamı tərəfindən şəksiz olaraq qəbul ediləcəyinə inanan adam öz əsərinə belə bir epiqraf yaza bilər: «iki yüz ildən sonra dünyada olanlar bizim məşəqqətli ömrümüzü oxuyanda bizləri yazıqlar və zavallılar kimi xa-

tırlayacaqlar». Bu epiqraf Rasimin yeni romanının bütün məziyyətlərindən xəbər verir, bir növ bələdçilik edir». Məncə, bu bütünlükdə R.Gənzəli yaradıcılığında nəzərə çarpan aparıcı xətlər içərisində ən başlıcalarındandı. Mübarizəmizin, düşdüyümüz vəziyyətin ağırlığından və bir növ mübarizə əzmimizin korşalmasından irəli gələn ağrılardı. Əslində isə bütünlükdə məmləkətimiz iki imperiyanın maraqları məngənəsində iki yüz ildi ki, sıxılmadadı. Bu sıxılma təqiblərdən, repressiyalardan, mənəvi aşınmalardan, genetik yaddaşın korşalması, məhv edilməsi düşüncəsindən keçir. Ancaq bir məsələni də etiraf edək ki, bu iki yüz illik zaman müddətində strateji bir xətt kimi yeridələn bu məkrli siyasətin qabağında xalqımız böyük mətanət və dəyanət hissi ilə duruş gətirib. Bu dəyanətin, savaşın isə genetik mahiyyətində miflərimizdə, rəvayətlərimizdə, dastanlarımızda yaşanan və min illərlə ölçülən tarix dərslərimiz var. Cavanşir, Babək, Bəzz qalası, Koroğlu, Dərbənd və s. həmin tarixin yaddaşıdır. Mübarizəmiz, savaşımız isə hələ sonuclanmayıb. Məhz bu məsələlər dünən də bu gün də, sabah da bədii düşüncəmizi həmişə hərəkətdə saxlayıb və saxlayacaqdı. R.Gənzəli isə bütün əsərləri ilə onun günümüzdə yaşanan faktıdır. «Qurdbəşər» romanı da onun bir nümunəsidi. K.İsmayılov «Qurdlar və manqurdlar» romanı ilə bağlı düşüncəmiz timsalında bir məqamı da xüsusi olapraq vurğulayır: «Qurdlar və manqurdlar» romanı dövrümüzün bütün ictimai-si-

yasi proseslərinə, milli yaralarımıza, milli dərdlərimizə toxunan çox cəsarətli əsərdir. Belə cəsarətli əsəri ictimai ətaləti, süstlüyü, biganəliyi, olar-olmazları qırıb ata bilən bir qələm sahibi yaza bilər. Bu məsuliyyəti məhz Rasim öz üzərinə götürməyə cəsarət etmişdir». Həmin mübarizə bütün tərəfləri ilə «Qurdbəşər» romanının mahiyyətində dayanır. Buradakı obrazlar özünün bütövlüyü, ictimai-siyasi düşüncəni ifadəsi baxımından günümüzlə, real həyatımızın olacaqları ilə səsləşir. Belə əsərlərin yazılmasına indi daha çox ehtiyacımız var. Qloballaşan dünyanın özünün həm də dəhşətli təlatümləri, xofları, heybətli formada xalqların üzərinə gedişi müşahidə olunur. Ona görə də biz həmin qaranlıqların içindən sabaha gedən yolumuzu tapmalıyıq. Bu isə bir istiqamətdə mənəvi dəyərlərin qorunuşu və milli birliyimizin özgürlüyü ilə bağlıdır. Yeri gəlmişkən ədəbiyyatşünas alimimiz Ə.Səfərlinin «Qurdlar və manqurdlar» romanına yazdığı «Qurdlar və manqurdlar dünyasında» adlı ön sözündə vurğuladığı bir məqamı xatırladım. Burada deyilir: «Şübhəsiz ki, Rasim bəy qəhrəmanlarının taleyinə biganə qalmayaraq, onları milli mücadilələrlə əlaqələndirərək, amal və məqsədlərini tamamlayacaqdır. Onların Göydaşlıdan başlayan həyatını, ideya çarpışmalarını geniş epik lövhələrdə üzə çıxaracaq, hərtərəfli surətini yaradacaqdır. Eltürkün gələcək həyatı milli mübarizə və ziddiyyətlərin qoynunda öz məntiqi və fəlsəfi mənasına görə daha geniş vüəsət qazanmalıdır.

Eltürk Azərbaycanı birləşdirən bir xalq qəhrəmanı səviyyəsinə ucalmalı, Xiyabani və Pişəvəri ənənələrini davam və inkişaf etdirməlidir. Rasim Gənzəli bundan sonra yazdığı əsərlərində öz qəhrəmanlarının yolunu izləməli, türkün çağdaş yenilməzliyi və əzəmətini onların timsalında əks etdirməlidir». Bu düşüncə R.Gənzəlinin əsərlərində mövcud olan mübarizə əzmində, xalqımızın başına gətirilən bəlaların sonsuzluğu timsalında görünür. Ədəbiyyatşünas alimimiz məhz bunları bir istiqamət kimi R.Gənzəlinin yaradıcılığında bütün tərəfləri ilə müşahidə edir və bu qəhrəmanların mübarizə xəttinin davamlığını tövsiyə edir. Çünki bu müəllifin yazılarında üzdə nəzərə çarpan tərəfdir. Və oxucu da onu bu istiqamətdə görür. Azərbaycan zaman-zaman böyük ağrılarla, savaşlarla üz-üzə qalıb və bu gün də qalmadadır. Lakin xalqın tarixinə diqqət yetirdikdə bir məsələ aydınlaşır ki, həmişə bu ölüm-itimlərin sonunda bir aydın səhər görünüb. Son dövrün olayları da heç şübhəsiz belə bir düşüncəni ortaya qoyur. Çünki bu xalq mübarizələrdən, qanlardan-qadalardan keçərək həmişə öz azadlığına, milli-mənəvi dəyərlərinə sədaqət göstəribdi. Heç vaxt yadların, yağıların torpağını tapdamasına, məhvinə yönəlikli iddialara baş əyməyibdi. Bu türkün gen yaddaşı, mahiyyəti ilə bağlı olanlardı. Qoy o xalqlar qorxsunlar ki, onların tarixi saxtadı, qaranlıqlarla, ləkələrlə doludu. Məhz bu mənada R.Gənzəlinin «Qurdbəşər» romanı çox böyük məsələlərə, rus şovinizmi

ilə fars möhtəkirlərinin ölkəmizlə bağlı məkrli niyyətlərinə işıq tutur. Artıq iki yüz ilə yaxın vaxtdı ki, bir Təbriz, Bakı, Araz həsrəti yaşanır. Azərbaycan xalqı iki yerə bölünərək təqiblər, sıxıntılarla dolu gərginliklərin, xofların içindədi. Sovetlər imperiyası dağıldı. Şimali Azərbaycan özünün müstəqilliyini qazandı. İndi növbə mola rejiminin dağılmasının, Cənubun müstəqilliyinin əldə olunmasınındı. Eltürk məhz bu amal ilə meydandadı. Onun sərhəd məntəqəsini keçərək Təbrizə gedişi də ancaq və ancaq böyük ideallara hesablanıbdı. R.Gənzəli bu mübarizənin çətinliklərini, rejimin dəhşətlərini elə ilk səhifələrdən göstərir. «Və bunları Gülüzə demirdi. Onu da demirdi ki, onları tutub geri qaytarsalar ən arzu olunan cəza edam olunmaları olardı. Axı onların əlində çox qəddar, vəhşi cəza üsulları var idi. Başına isti su tökmək, dabanlarının dərisini soymaq, hündür yerdən buz kimi suyu gilə-gilə başa sızdırıb dondurmaq, qaranlıq yerdə ölənə qədər ayaq üstə saxlamaq, havasız yerdə nəfəsi qurtarana qədər saxlayıb öldürmək…Bunlardan xəbəri var idi Eltürkün. Və hərdən əzab çəkəndə belə adamların ruhları ilə söhbət də edirdi.

-Sənə nə elədilər, yavrum?

-Barmaqlarımı qırdılar, dırnaqlarımı çıxardılar.

-Günahın nəydi bəs?

-Burda günahı olanları öldürmürlər» (səh.4). Bax romanın mahiyyətində duran budur və aparılan mübarizənin qəhrəmanlarının üzləş-

diyi həyatın, ölüm kabusunun amansızlığı burada, elə ilkin səhifələrdə əksini tapır. R.Gənzəli bir yazıçı, ədib kimi bunları yaşayır, azərbaycanımızın ağrıları timsalında içindən keçirir. Və bir-birindən maraqlı obrazlar timsalında həyatımızın, mübarizəmizin məqsəd və istiqamətlərini cızır. Burada bütün tərəfləri ilə görünən və görünməyən problemlər var. Çünki ictimai, mədəni, siyasi mühitin qarışıqlığında böyük ideallara köklənmək, və onu hansısa uğurlu bir sabaha aparıb çıxara bilmək böyük mübarizə və dözüm tələb edir. Eltürk bunu elə ilk qarşılaşmadaÇuval Həsənlə, Şərəf Həsənovun söhbətindəcə anlayır. Lakin o onu da bilir ki, bu mübarizədə Metexan, Ərənol, Yurdanur, Turan bəy kimi bütöv düşüncəli insanlar var. Elyar Qurbanoğlu ilə Turan bəyin söhbətində bir məqam var. Bu millətin düşünə dilmək, fədai olmaq bacarığı ilə bağlı olanlardı.

«-Turan bəy, deyir, bir millətin on faizi düşünə bilirsə, fədai olmağı bacarırsa, o millətin məhv olmaq qorxusu yoxdur. Elə güman edirəm ki, bizim millətin on yox, lap iyirmi faizi də lazım olanda fədai olmağı bacarar» (səh. 71). Təkrar qeyd edirik, Azərbaycan xalqının tarixi fədai olmalarla, mübarizələrlə, Şərqə, bütünlükdə dünyaya böyük-böyük şəxsiyyətlər verməl期lə doludu. Ona görə də belə bir xalqın parçalanmalarla, sıxıntılarla yaşamağı mümkün deyil. Olsa-olsa bu hal müəyyən zaman müddətində baş verə bilər. Ancaq bütün çağlarda sinəsindən böyük-

böyük ideallar, azadlıq düşüncəsi göyərdən bir xalq heç vaxt sıxıntılara baş əyib, məyusluqda yaşaya bilməz. Məhz bu Eltürkün xatırlamalarında, atasının danışdığı nağıllarda da aydın görürük. «O nağıllar ki, bu nağılların içində mütləq qurdlar olardı. Tülküdən, çaqqaldan danışılan nağıllardan atasının yaman acığı gələrdi. Deyərdi, uşağa nağıl danışanda qurddan danışarlar. Təbiətin məğrur, vüqarlı, əyilməz canlılarından söhbət açarlar. Ki, həyatı dərk edən uşaq məğrur, vüqarlı, əyilməz böyüsün» (səh. 9). Kənddə Savalan babanın da nağılları bu tipli idi. Bunlar təsadüfi deyildi, bir növ özlüyündə tərbiyə, gələcək nəslin hansı ruhda böyüdülməsi düşüncəsindən irəli gələn məsələlər idi. Müəllifin məhz bu mübarizə fonunda həmin anları, arxaik düşüncədən gələn məqamları xatırlatması təsadüfi deyildi. Çünki xalqımızın, bütünlükdə parça-parça olunmuş Azərbaycanımızın başqa nicat yolu da yoxdu. Bu mübarizə bir günün, beş günün də hadisməsi deyil. Nə qədər ki, yağılar əhatəsindəyik, düşmən məmləkətimizi yox etmək, bizi əsarətdə saxlamaq, alçaltmaq niyyətindədi, həmin düşüncə də oyanacaq və yaşayacaq. Son dövr Qərbi Azərbaycanın işğalı, Qarabağdakı müharibə hələ qabaqda heç də işlərin asan olmayacağından, düşmənin daha da azğınlaşmasından xəbər verir. Məhz bu səbəbdən də həmin savaşlara böyükdən kiçiyə hamımız hazır olmalı, övladlarımızı vətən, yurd sevgisi ilə böyütməliyik. R.Gənzəlinin «Qurdbəsər» romanı, eləcə də

yaradıcılığının böyük bir hissəsi bu düşüncəyə istiqamətlidi. Onu bu uğurlu yazıları yazması, olacaqları dərk etmə və yazıya gətirmə bacarığına görə alqışlamağa dəyər. Bütünlükdə ədəbiyyatımızın üzünü bu istiqamətə döndərməliyüik. Məlum olduğu kimi, Azərbaycan ədəbiyyatında Araz ağrısı, Təbriz həsrəti ilə bağlı uzun illər bir-birindən maraqlı əsərlər yazılmışdı. Bunlar hamısı bizim ağrılı tariximizdi. Eləcə də sovetlər imperiyanın dağılmasından sonra baş verən hadisələrlə bağlı rəngarəng əsərlər yaradılmaqdadı. Burada Göyçə həsrəti, tarixi İrəvan ağrıları, bütünlükdə Qərbi Azərbaycan itkisi, Qarabağ yaraları tam təfsilatı ilə əksini tapır. Lakin onu da etiraf edək ki, bu problemlərin heç biri hələ sonuclanmayıb və bir-birindən maraqlı əsərlərdə həmin hadisələr tarix kimi yaşanır. Bir məsələni də etiraf edək ki, hələ həmin ağrıları kifayət qədər dolğunluğu ilə əks etdirəcək, hadisəyə çevriləcək əsəri yarada bilməmişik. Ədəbiyyatımız həmin hadisəyə hamilədi. Onu kimi yaradacaq o da xalqın əbədiyaşarlıq sevgisini qazanacaq. Mənim nəzərimdə dünyada bundan böyük xoşbəxtlik yoxdu. Çünki xalq da o ruh, o abidə ətrafında təkrarən birləşəcək. Daha doğrusu, həmin abidə bizi o problemlərimiz qədər birləşdirəcək. Böyüklərin qurd haqqında rəvayətləri də həmin bir olmağa, mübarizəyə çağırışdı. R.Gənzəli bunları çox doğru olaraq verir. «Daha bunları eşitmirdi Eltürk. Öz aləminə qapılmışdı. İndi onun xəyalı uzaqlarda, çox uzaqlarda dolanırdı. Elə uzaqlar-

da ki, orada müqəddəs ruhlar vardı. O müqəddəs ruhlar insanları əlahəzrət həqiqəti görməyə çağırırdılar. Adamları Ərk qalasının ətrafında toplanmağa səsləyirdilər. Ki həqiqət adında nəsnəni onlara anlatsınlar. Elə həqiqəti ki, bu gün burada bu maşında danışılan həqiqətlərlə qətiyyən əlaqəsi yox idi. O ruhların içində Babəkin də ruhu vardı. Və bu ruhların arasında Babəkin harayı o birilərdən daha gur çıxırdı. O, müqəddəs nə vardısa onlara tapınmağa, insanları Ağ işığa doğru getməyə səsləyirdi…Diqqət kəsiləndə baba Babəkin harayı boz qurdun ulamasına da bənzəyirdi» (səh.12-13). Bu özlüyündə kökü çox dərinlərə gedib çıxan, totemizmə, animizmə dayanan genetik qatların yaşarlığı və sonrakı çağlarda Babəkdə və digərlərində təkrarlanması hadisəsidi. Rasim Gənzəli bütün tərəfləri ilə bunları bədii sözün faktına çevirir. Ədəbi-nəzəri düşüncədə «ciddi ədəbiyyat romandan başlayır» qənaəti artıq tam aydınlığı ilə Rasim gənzəlinin yaradıcılığında duyulur. Bu tip hadisələri, böyük və ciddi problemləri hekayədə, novellada, oçerkdə genişliyi ilə əhatə etmək özü çətindən çətindi. Ona görə də roman zamanın və mühitin zərurəti kimi görünür. Rasim də bir növ bu formaya üstünlük verir. Bir növ Azərbaycanın ictimai, siysi, mədəni həyatını, tarixi keçmişini bütün tərəfləri ilə təqdim etmək məqsədi ilə forma axtarışında romana üstünlük verir.

R.Gənzəli «Qurdbəşər» romanı ilə mübarizəmizin, apardığımız mücadilənin bir növ

strategiya və taktikasını, məqsəd və məramnaməsini yazır. Məhz həmin səbəbdən də burada diqqət yetirilməli çox məqamlar var. Burada ruhların yaşarlığı, xalqın keçmişindəki öyünməli, şanlı səhifələr, bütünlükdə məmləkəti bir amal ətrafında birləşdirə biləcək dəyərlər, problemlər və s. hamısı müxtəlif tərəfləri ilə özünə yer tapır. Məsələn, o, millət məsələsindən danışarkən çox doğru və diqqəti cəlb edəcək tərzdə deyir ki, «millətlər də insanlar kimidi. Kimisi azad, bəxtəvər, öz torpağına sahib duran, kimisi də… Dili kəsilmiş, gözləri bağlanmış, qolları qandallı. Hələ bəlkə ürəyi çıxarılan, yerinə başqa nəsə qoyulan millətlər də var» (səh. 14). Bu müəllifin yüzə-yüz doğru dərk elədiyi və oxucuya çatdırmaq istədityi reallıqdı. İndiki zamanımızda məmləkətimizdə nə qədər belə «ürəyi çıxarılan, yerinə başqa nəsə qoyulan» insanlarımız var. Onlar yuxarılara qalxdıqca məmləkətimizə daha çox qənim olurlar və xalqı bəlalara giriftar edirlər. Hətta beləleri oğlunu, qızını, bütünlükdə məmləkəti məqsədləri naminə satmağa hazırdırlar. Bizim son dövr uğursuzluqlarımızın mühüm bir hissəsi etiraf edək ki, onlardan gəlir. Yuxarılara parazit kimi soxulub, özlərindən başqa heç kəs bilmir ki, kimə xidmət edir. Onlar Cavanşiri, Babəki, bütünlükdə mübarizəmizi güdaza verən Səhl Sümbatların tör-töküntüləridi. Eltürkün, Yurdanurun, Ərənolun, Metexanın mübarizəsinin sarsıdılmasının bir növ səbəbkarları bir istiqamətdə onlardı.

Rasim Gənzəli üstümüzə gələn təhlükələri bütün tərəfləri ilə hiss edib müəyyənləşdirə bilir və maraqlı obrazlar qalereyası yaradır. Burada bütünlükdə Azərbaycanımızın başının üstünü alan təhlükələrin təfərrüatı var. Müəllif ayrı-ayrı obrazların dili ilə onları təqdim edir. Nə var hamısını çılpaqlığı ilə oxucuya çatdırır. Sergeny Nişinlə Xoren Ovanesyanın, Mehran Qulampurun şəxsində verilən söhbətlər «dırnaqarası qonşularımızın» bizə yönəlikli siyasətlərində iç-üzünü açmağa yönəlib. Hər birisinin tarixi və indisi ləkəli olan bu şəxslər öz niyyətləri ilə bütünlükdə məmləkətlərinin düşüncələrini, xalqımıza yönəlikli siyasətlərini təmsil edirlər. Mehranın arvadına (Səriyyə), uşağına türk dilində danışmağı qadağan etməsi, Xorenin dənizdən-dənizə Ermənistan nağılı, Sergeyin rus hegemonluğu, söhbətləri hamısı bütünlükdə qonşularımızın bizə münasibətinə hesablanıb. Bunlar müəllif tərəfindən adi epizodlarda, kiçik təsvirlərdə o qədər dəqiqliklə və incəliklərinə qədər verilir ki, müəllifin hadisələri təqdim etmə qabiliyyəti haqqında düşünmə zərurəti yaranır. Bu özlüyündə yaradıcı qabiliyyəti, istedad məsələsidi.

Əsərdə ana obrazı Nərdoğan, bacısı Şahcahan, Nərdoğanın oğlu Ərənol, Varol, Yetim İsmayılın oğlu Qorqud, Eltürk, Yurdanur və s. hamısı eyni düşüncənin sahibləridi. Bunların şüurunda, düşüncəsində bir mübarizə, savaş duyğusu var. Hər birinin şəxsində dünyanın Azərbaycanımıza yönəlikli siyasətinin müxtəlif

tərəfləri açılır. Məsələn, Eltürklə Yurdanurun söhbətində oxuyuruq. Yurdanur deyir:

«-İran deyilən dövlətdə qırx milyona yaxın türk yaşayır. Bu yerlər türklərin əbədi və əzəli torpaqlarıdır. Onlar bunu yaxşı başa düşürlər. Bilirlər ki, Azərbaycan bütöv olsa, nəinki qoca şərqin, bütün dünyanın ən qüdrətli dövlətlərindən biri olacaq. Bunun belə olmaması üçün təkcə İran bütün gücü ilə çalışmır, Rusiya, Amerikanın özü də böyük Azərbaycan dövlətinin reallığa çevrilməməsi üçün gecə-gündüz yollar arayırlar. Sən elə bilirsən, Amerika İranın dağılmasını istəyir? Yox, Eltürk, İran bu regionda əyləc rolunu oynadığına görə, Amerika üstüörtülü, görünməz şəkildə İranın indiki sistemini müdafiə edir. Həm də İranın dağılması, dağıntılar altından bütöv və güclü Azərbaycan dövlətinin çıxması, böyük güc dövlətləri üçün heç də arzuolunan hal deyil. O yanda güclü Türkiyə, bu yanda güclü Azərbaycan – bu Amerikanın da, Rusiyanın da yuxusunu qaçıran bir qorxudur» (səh. 49). Müəllifin Yurdanurun dilindən dediyi bu sözlər bütünlükdə təfərrüatı ilə müasir dünyanın nəhəng dövlətlərinin türkə qarşı siyasətinin əsas xəttidi. Fars şovinizmini, mola rejimini dağıtmağın altında ehtiyatlanılan bütöv Azərbaycan xofu var. Ona görə də atılan addımlarda bir ehtiyatkarlıq görünür. Ancaq tarixi prosesin diktə etdikləri də var. Bundan heç kəs, heç nə sığortalanmayıb. Azərbaycanın bir xalq kimi düşüncəsində ona yönəlikli parçalanmaq siyasətini sonuclamaq da-

yanır. Bu gec, tez reallıqdı. Müəllif bir yazıçı kimi bunları görür və qaldırır. Bir növ həmin təsəvvürləri daşıyıcısı olmaqla bədii boyalarla təkrarən cəmiyyətə təqdim edir.

Ağcagülün oğlunun şərlənib tutulması, Dəyanət kişinin qızının mola tərəfindən zorla zövcə edilməsi, Zəmanə xanımın qızının başına güllə sıxılması və s. hamısı mühitin ümumi mənzərəsidi. Buraya millətin əlifbasının yox edilməsi kimi böyük və ağrılı hadisələr də daxildi. Məhz ona görə də bütün planların həyata keçirilməsi üçün farsların istibdadının sonu görünmürdü. Hər yerdə təqiblər, təbliğat, zəif xarakterli adamların ələ alınması və s. vardı. Digər tərəfdə milli düşüncəli, azadlıq üçün yanıb-yaxılanların vaxtaşırı cəzalandırılması, xalq qarşısçında asılması vardı. Müəllif məhz bunları əsərin müxtəlif məqamlarında verir. Yetim İbrahimin oğlunun məhbəsdə öldürülməsi, Ərənolun və başqaların asılmaq üçün meydana gətirilməsi müəllif xəyalının məhsulu deyil. Bunların hamısı reallığa söykənir. Çünki nə qədər belə mübarizlər öz əqidələrinin yolunda həmin aqibəti yaşamışdılar. R.Gənzəli «Qurdbəşər» romanında onların ümumiləşdirilmiş mənzərəsini verir. Ərənolun asılma məqamında qətiyyətli çıxışı bu mübarizənin dönməzliyinin ifadəsidi. Müəllif maraqlı tərzdə xüsusi olaraq vurğulayır: «O tayda Metexan kimi, Yurdanur kimi vətən övladları var idi. Onların sayı bu iki nəfərlə məhdudlaşmırdı. Təkcə Əhməd Yavuzun «şinelindən» çıxan o qədər

məğrur, dönməz, iradəli, qorxmaz, sınmaz, əyilməz döyüşçülər yetişib, ərsəyə çatmışdı ki, onların qabağında qurulan dar ağacları, edam kötükləri də aciz və gücsüz görünürdü» (səh.163). Bax budu reallıq, xalqın mübarizəsinin dönməzliyi. Babək qalasına yürüş, vaxtaşırı gedişlər bu mübarizənin dönməzliyindən xəbər verir. Müəllif əsərin sonunda Metexanın, Nərdoğanın, yanında Ərənolun və başqalarının Babək qalasına doğru yürüşünü təsvir edir. Bu yürüşün sonunda isə milyonların istəyi reallaşır. İki yüz ilin ağrıları sonuclanır. Əsərdə həmin hadisələrin təqdiminin bir məqamı da var. Orada deyilir: «»Uzaqdan atəş səsləri də daha eşidilirdi. «Deyəsən, atəş açanlar da qurd səsinin sehrinə düşmüşdülər. Yəqin onlara da Tanrının sədası gəlib çatmışdı. Əli-silahlı adamlar da anlamışdılar, başa düşmüşdülər ki, dünyanı bu səs xilas edəcək» (səh.202). Müəllif bu hadisələr fonunda Eltürkün sevincini təqdim edir və xüsusi olaraq vurğulayır ki, «dünyanın ən xoşbəxt çayı indi Arazın özü idi». Hər bir qaranlığın sonunda işıq görünür. Bütün həsrətlərin sonunda bir vüsal dayanır. İki yüz il davam edən Araz həsrəti də heç şübhəsiz bir puçluqla üz-üzə dayanıb. Xalqları əzablar-işgəncələn içərisində saxlayanların aqibəti tarixdən məlumdur. Azərbaycanı bu bəlalarda saxlayanlar da həmin aqibəti yaşayacaqlar. R.Gəncəli məhz yaradıcılığında bir vətəndaş, yaradıcı kimi bunları mühitə təqdim edir. Onun düşüncəsində olanlar minlərin, milyonların yaşadığı və yaşamaq məc-

buriyyətində qaldığı ağrılardı. Özü də iki yüz ildi təqiblərdən, təzyiqlərdən, sıxıntılardan keçir. Sonu isə görünəndi. Biz buna əminik. R.Gənzəli də bir yaradıcı kimi bunları yaşayır. Və ədəbiyyatımıza, ədəbi mühitimizə, bütünlükdə məmləkətimizə sələfləri kimi bunları təqdim edir.

# RASİM GƏNZƏLİ YARADICILIĞINDA BİOQRAFİK DÜŞÜNCƏ VƏ ONUN MÜXTƏLİFLİK TİPLƏRİ

Rasim Gənzəlinin yaradıcılığında müxtəlifliklə, rəngarəngliklə nəzərə çarpan istiqamətlər var. Və həmişə də sözə, təhlillərə ehtiyac doğurur. Bu zənginlikdə mühüm bir hissəni bioqrafik xarakterli «Qalib gələn adam», (Bakı, Vektor, 2007) və «Qəlbi asiman kimi» (Bakı, Qanun, 2007) əsərləri tutur. Hər iki əsərin bir-birilə maraqlı olacaq bağlantıları və özünəməxsusluq təşkil edəcək fərqlilikləri var. Bunlar bir növ müəllifin müşahidələrini, hisslər, duyğular aləmini, həyata, dünyaya münasibətini öyrənmək müstəvisində müəyyən yaxınlıqlarla görünür. Eyni zamanda Azərbaycanın ictimai-mədəni mühitini, onun ümumi mənzərəsini aydınlaşdırmaq anlamında böyük dəyər qazanır. Ümumiyyətlə, Azərbaycan ədəbi-mədəni mühitində bioqrafik xarakterli əsərlərin yaranmasının xeyli uzaqlara gedib çıxacaq bir ənənəsi var. Klassiklərimizin haqqında zamanında yazılanlar, eləcə də sonrakı çağlarda olanlar, sovet dönəmindəkilər və müasir dövrümüzdə yarananlar hamısı bu ənənənin yaşarlığından xəbər verir. R.Gənzəli də bir yaradıcı kimi yaradıcılığında belə bir ənənəyə istinad etmişdi. Onu da əlavə edək ki, bu əsərlərdən birisi («Qalib gələn

adam») daha çox avtobioqrafik səciyyə daşıyır. Yəni burada mühüm bir hissəni özü, özünün həyatı ilə bağlı hadisələrin təsvir və təqdimi təşkil edir. Son dövrlər ədəbi-nəzəri düşüncədə bu istiqamətli kitabların yazılması tendensiyası var. Bunların özü də bir qədər diqqət yetirsək bütün publisistik, bədiilik tərəflərinə baxmayaraq tədqiqat səciyyəsi daşıyır. Müəyyən faktların, tipik hadisələrin, ən maraqlı məqamların bir yerə toplanması və təhlili prinsipini zəruri edir. R.Gənzəlinin də hər iki kitabında bu hal tam aydınlıqla özünü göstərir. Hər ikisində müəlliflə az və ya çox dərəcədə olacaq bağlantılar var. Ancaq «Qalib gələn adam» müəllifin həyatı, taleyi, bütünlükdə nəsli ilə bağlanır. Düzdü, burada əsas məqsəd ictimai-mədəni həyatımızda, elmimizdə mühüm xidmətləri olan iqtisadiyyat üzrə fəlsəfə doktoru Müzəffər Qulu oğlu Məmmədovun həyat yolundan bəhs edir. Kitabda aparıcı xətt budur və bütün araşdırmalar, təhlillər də onun əsasında gedir. Müəllifin özü də elə ilk sözündə bu məqamı vurğulayaraq yazır: «Bu kitabda Müzəffər Məmmədovun ömür yoluna işıq salınacaq, həyatının maraqlı anlarından, elm, təhsil sahəsindəki uğurlarından, pedaqoji fəaliyyətindən söhbət açılacaq, yaxınlarının, doğmalarının həyat yolundan qısa məlumatlar veriləcək, dost-tanışların ürək sözləri, rəy və düşüncələri öz əksini tapacaqdır» («Qalib gələn adam». Bakı, Vektor, 2007, səh. 4). Bizim belə kitablara həmişə ehtiyacımız olub. Çünki elm, mədəniyyət, ədəbiyyat

adamları ilə bağlı məlumatların öyrənilməsi üçün bəzən zərrəbinlə axtarışa çıxmışıq. Hansısa yazıda, kitabədə, cüngdə rast gəldiyimiz bir informasiya bizim üçün əvəzi heç nə ilə ödənilməyəcək bir hadisəyə çevrilib. Biz elmimizin, mədəniyyətimizin, məişətimizin tarixini məhz bu mənbələrin əsasında dəqiqləşdirməyə, hansısa qaranlıqların aydınlaşmasına çalışmışıq. Bunlar bir növ mətləbə, məqsədə çatmaq üçün böyüyk dəyər kəsb edib. Ona görə də R.Gənzəlinin hər iki əsəri («Qalib gələn adam», «Qəlbi asiman kimi» böyük əhəmiyyət daşıyır.

Onu da etiraf edək ki, «Qalib gələn adam»da böyük bir nəslin tarixi, hansı düşüncələrlə, duyğularla yaşamaları, həyat idealları özünün əksini tapır. Ümumiyyətlə, nəsil şəcərələrinin işlənməsi, ortaya qoyulması, bütöv təsəvvürlərin formalaşdırılması ən aktual məsələlərdəndi. Düzdü, son dövrlərdə hansısa regionun, kəndin, elin-obanın tarixi ilə bağlı da kitablar yazılmadadı. Böyük sənətkarımız S.Vurğun «de gəlsin hər nəyin vardı, deyilən söz yadigardı» fikrini təsadüfi deməmişdi. Bu tip kitablar təkcə yadigar olma funksiyasını yerinə yetirmir, həm də mənbə kimi əvəzsiz dəyər qazanır. Çünki avtobioqrafik xarakterli araşdırmalar bir istiqamətdə xalqın, məmləkətin mədəniyyət fondunun yaradılmasına yönəlir. Gələcək araşdırmalar üçün bir mənbə rolunu oynayır. Elm, mədəniyyət tariximizdə elə böyük şəxsiyyətlər, simalar olub ki, indi onların haqqında bütöv təsəvvür yaradacaq mənbəyə

rast gəlmirik. Hətta onlar haqqında hansısa məsələnin dəqiqləşməsində belə çətinlik çəkirik. Bunun isə səbəbləri bir istiqamətdə həmin şəxslərin özləri haqqında təfsilatlı məlumatlar verməməsidirsə, digər istiqamətdə zamanında bu ziyalıların haqlarında yazılmalı olan bioqrafik əsərlərin yazılmamasıdır. Artıq son dövrlərdə ədəbi mühitdə bir kitab bolluğu müşahidə olunur ki, onların bir hissəsi məhz bu tip əsərlərin yazılması ilə bağlıdır. R.Gənzəli də bir yazıçı, ədib kimi bunları hiss etmiş və gələcək nəsillərə çatacaq xeyirxah, mən deyərdim savab olacaq bir iş görmüşdü. Bu həm də elmimizə, mədəniyyətimizə olan qayğının göstəricisidi.

«Sözün əvvəli, yaxud müəllifdən bir azca açıqlama», «Qulu kişi və oğulları», «Bir də qızı Tamella», «Bir az Naxçıvandan», «Bir az Orpdubaddan», «Bir az da Gənzədən», «Dağ evindən Xatana qədər», «Bakı, sabahın xeyir», «Sızlar yada düşəndə», «Dədə müəllimin dədəlik qayğısı», «Ailə, alın yazısı, qismət», «O, bir insan, bir vətəndaş», «Alim, pedaqoq, ziyalı kimi» və s. başlıqları altında verilən yazılar təkcə bir nəsli səciyyələndirmir, bütünlükdə Azərbaycan mühitini, xalqımızın məişətini, qohuma, qonşuya, insana münasibətini, xeyirxahlıq duyğusu ilə yaşarlığını ifadə edir. Ona görə də burada müxtəlif istiqamətlər – etnoqrafik, tarixilik, bədiilik kimi keyfiyyətlər birləşir. Bir növ R.Gənzəlinin tədqiqatçılıq qabiliyyəti, səriştəsi bütün tərəfləri ilə üzdə görünür. Bu tip əsərlər

bədii-publisistik olduğu qədər də elmi axtarış, tədqiqat səciyyəlidi. Çünki uzunmüddətli araşdırmalar, nəslin tarixini, məişəti, xalqın adət-ənənəsini və s., və s. məsələləri bilmək gərəyi yaranır. Kitabdan görünür ki, müəllif bunlara kifayət qədər bələddir. Bu bələdliyin bir hissəsi müəllifin öz nəsilləri, qohum-əqrəbəsi, əhatəsində olduqları haqqında yazmasıdı. Və özü də çox doğru olaraq vurğulayır ki, «Müzəffər Qulu oğlu Məmmədovun, həm də mənim atam Qulu kişinin necə bir  insan olduğunu bilmək üçün onun keçdiyi ömür yoluna nəzər salmaq lazımdır» (səh. 4). Bu ömür yolu yazıçının özünə də yaxşı bələddi. O, yaxşı bilir ki, bir elin-obanın ağsaqqalı kimi hörmət qazanmış Azərbaycan ziyalısı Müzəffər Məmmədov hansı yolu keçmişdir. Bu yolun ağrısı-acısı, hansı çətinlikləri olmuşdu. Çünki yazıçı R.Gənzəli haqqında söhbət açdığı Müzəffər müəllimin doğma qardaşıdı. Ailəyə, onun övladlarının keçdiyi yola onun qədər bələd olanı yoxdu.  Məhz bu mənada R.Gənzəlinin belə bir əsəri yazmağa qərar verməsi çox müsbət haldı. O belə olan vəziyyətdə yaxşı bilir ki, nəyi necə və harada vermək lazımdı. Burada bir məsələ var ki, belə olan tərzdə əsərdə kövrək tərəflər bir qədər çoxalır. Bu da təbiidir. Çünki müəllif orada təkcə bir yaradıcı kimi, deyil, həm də həmin təsvirlərin içərisində özü də bir tərəf kimi iştirak edir. Axı, orada yaradıcı öz nəslindən, nəsil şəcərəsindən, göz açıb dünyaya gəldiyi vaxtdan mühitində qarşılaşdığı, eşitdiyi uğur və çətinlik-

ləri, nə varsa hamısını tarixin yaddaşına verir. Daha doğrusu, fakta çevirir.

Burada müəllifin ictimai-siyasi mühitin hadisələrinə də fəal mövqe nümayiş etdirdiyinin şahidi oluruq. Daha çox isə nəzərə çarpan sovetlər dönəmi ilə bağlı olanlara münasibətdi. Onu da əlavə edək ki, R.Gənzəlinin yaradıcılığında bütün məqamlarda nədən yazmasından aslı olmayaraq bir vətəndaş mövqeyi müşahiidə olunur. Bu sovetlər dönəmi hadisələrində də, müstəqillik zamanındakı vəziyyətə münasibətdə də tam aydınlığı ilə görünür. Bir məsələni də vurğulayaq ki, R.Gənzəlinin yaradıcılığında ictimai-siyasi vəziyyətin bütünlükdə mənzərəsi, türkün rastlaşdığı ağrılar, Azərbaycanın bölünərək parça-parça olunması, İran müstəbidliyi, torpaqların işğalı və s. bir problem kimi həmişə nəzərə çarpır. Bu bəzən alt qatda görünürsə, bəzən də yaddaş ağrıları, millətin tale yüklü məsələsi kimi etiraza, açıq savaşa səbəb olur. Elə «Qalib gələn adam» əsərinin ilk səhifələrində də bunu görürük. Həmin etiraz bütünlükdə bir nəslin olmadan çox xalqın üzləşdiyi fəlakət kimi görünür. «Çox zülümlər çəkiblər. Aclıqdan Qulunun Firudin qardaşı sızlaya-sızlaya dünyadan köçüb.

O vaxtlar Qulu sovet-alman müharibəsində vuruşurdu. ..

Bundan bir neçə il əvvəl isə atası Müzəffər, anası Ümbülbəni həyatdan köçüb, haqq dünyasına qovuşmuşdular. Onda hələ Qulu davaya getməmişdi. Döyüşə yollananda dörd qardaşını

– Nurunu, Əqili, Abbası, və Firudini Allahın, bir də yaxşı adamların ümidinə qoyub yola düşmüşdü.

Qayıdanda isə…

Qayıdanda ikisini evdə görməmişdi (səh.5). Bu epizod hər şeyi deyir, Azərbaycanın hansı bəlalardan keçməsi haqqında bütöv təsəvvür yaradır. Onu da qeyd edək ki, müharibənin ağrıları uzun illər Azərbaycanın yaddaşında qaldı və yenə də qalmadadı. Elə bir ailə, nəsil olmadı ki, sovet-alman döyüşündə əziyyət çəkməsin. Bu əziyyət həm arxada, həm də ön cəbhədə idi, hərə bir cür çəkirdi. Azərbaycan xalqı bu ağrıların acısını unutmamış yenidən müharibə ağrıları yaşamalı oldu. Torpaq itkiləri ilə üzləşdi.

R.Gənzəli ailənin övladları Valeh, Cəmil, Oqtay, Rahim, Vasif, Tamella haqqında müfəssəl məlumat verir. Bu məlumat ailə haqqında bütöv təsəvvür yaradır. Burada olduqcə təsirli, bütünlükdə Azərbaycan və dünya ədəbiyyatı üçün son dərəcədə mükəmməlliklə görünən «Durnalar qayıdanda» hekayəsini verir. Mən deyərdim ki, bu dünya ədəbiyyatının ən şedevr əsərləri səviyyəsində duracaq nümunədir. Müxtəlif vəziyyətlərdə bu hekayəyə diqqət yetirmişəm. Hər dəfə də eyni qənaətdə olmuşam. Yazıçı R.Gənzəli burada həmin hekayəni təsadüfi vermir. Əksinə, oxucuda bütöv təsəvvür yaratmaq üçün bu addımı atır. Çünki bu bir ocağın ağrıları idi. İllah da, yazıçının özünün. Həyat ailəni – atanı, qardaşları, bacını sınağa çəkirdi. Bu sı-

naqda bütünlükdə qohumlar vardı. Onun mərkəzində isə yazıçının özü – R.Gənzəli dayanırdı.

«Qalib gələn adam» özünün əhatəliliyi, təfsilatı ilə diqqəti cəlb edir. Burada «Bir az Naxçıvandan», «Bir az Ordubaddan», «Bir az da Gənzədən» başlıqlı bölmələr var. Bunlar yazıçının qənaətləri kimi mövzunu əhatələmək, tam təsəvvür yaratmaq məqsədindən irəli gəlibdi. Ancaq burada R.Gənzəli təkcə yazıçı kimi görünmür, həm də bir etnoqraf, tarixçi, xalqımızın məişətini araşdıran tədqiqatçı kimi nəzərə çarpır. Onun verdiyi məlumatlar səhihliyi, mükəmməlliyi, eyni zamanda təhlilləri ilə sonrakı araşdırmalara yol açır. Naxçıvan haqqında danışan müəllif vurğulayır ki, bu yerlərə «Nuhçıxan da deyirlər. Yəni Nuhun göylərə çəkildiyi yer.

Qədimliyinə söz ola bilməz bu yerlərin. Ovxarlanmış, rəngi getmiş dağlara baxanda bu yerlərin dünyanın özü ilə yaşıd olduğuna şübhə eləmirsən» (səh.31). Bizim qənaətimizcə, bütünlükdə Azərbaycan, onun bir hissəsi olan Naxçıvan bəşər oğlunun ən qədim yaşayış məskənlərindəndi. Bunu arxeoloji qazıntılar, xalqın yaddaşında yaşayan folklor örnəkləri, əfsanə, rəvayət, nağıl nümunələri, eləcə də etnoqrafik araşdırmalar təsdiqləyir. Bu zəngin düşüncə tipləri, faktlar, istiqamətlər, müxtəlif elm sahələrinin verdiyi informasiya hamısı onu deməyə əsas verir ki, həmin mədəniyyət laylarının ortaya qoyulması üçün hələ qarşıda daha gərəkli işlər var. Bizə görə bəşər övladının bu dünyaya ayaq bas-

dığı zamandan bu torpaqlarda türklər bir toplum kimi yaşamışlar. Belə olan tərzdə R.Gənzəlinin dediklərində ciddi bir reallıq gizlənir. Hətta bir qədər də qabağa gedərək Naxçıvanın şah damarı kimi vurğuladığı Ordubadı dünyanın ən qədim yaşayış məskənlərindən biri hesab edir. Bir növ qənaətlərini bir qədər də dəqiqləşdirir. «Dünyanın müqəddəs və qoca panteonlarından biri sayılan Gəmiqaya Ordubad rayonunun şimalında yerləşir. Və bu yerlər Naxçıvan ərazisinin ən yüksək nöqtəsidir.

Ordubad sözünün mənasını hərə bir cürə yozur. «Ordugah», «Ordu batan yer», «Ordu düşərgəsi» və s.» (səh. 34). Bütün təhlillər, yozumlar bu torpaqların lal dilini açmağa, gizlinlərini ortaya qoymağa xidmət edir. Onu da qeyd edək ki, tarixçilərimiz, etnoqraflarımız, arxeoloqlarımız bu ərazilərin hansı qədimlərdən xəbər verdiyini öyrənmək istiqamətində işlər görməyə çalışmışlar. Buraya folklorşünasların da işlərini əlavə etmək lazımdı. Elə son dövrün Azərbaycan folkloru antologiyası seriyasından çıxan «Naxçıvan örnəkləri» (Elm və təhsil, 2012) buna nümunədi. Burada «Ordubadda Novruz bayramı» adında bir» hissə var. Məlum olduğu kimi, Novruz bayramı xalqımızın ən qədim və ən əziz bayramlarındandı. Ulularımız həmişə onu təntənə ilə keçirməyə çalışmışlar və indi də belədir. Burada xalqımızın həyat, dünya, yaşam tərzi və s. haqqında düşüncələri cəmləşir. Onun tarixi ilə bağlı müxtəlif vaxtlarda, müxtəlif fikirlər

söyülənmişdi. Bəziləri atəşpərəstliklə, bəziləri İranın əfsanəvi hökmdarı Cəmşidlə, bəziləri islamla bağlamağa çalışmışlar. Amma bunların heç birinin bu müqəddəs bayramın kökündə durmasına aidiyyatı yoxdu. Olsa-olsa onların ancaq izlərini axtarmaq olar. Bu bayram xalqımızın ruhundan, düşüncəsindən, məişətindən qopub və onunla birgə əsrləri adlayıb gəlmişdi. Novruz mərasimlər toplusudu. Burada bir istiqamətdə regionların spesifik əlavələrini axtarmaq olar. Necə ki, Novruz bayramında Ordubaddakı təntənədə onun bəzi məqamlarını görürük.

R.Gənzəli bu təhlillərində mühüm bir hissəni yaşadığı kəndin tarixi, məişəti, insanlarının məşğuliyyəti ilə bağlı olanlara həsr edir. İlk olaraq Gənzə sözünün etimalogiyasına diqqət yetirir. Və bunun haradan gəlməsini, nələri özündə ehtiva etməsini açmağa çalışır. Düzdü, burada yazıçı təxəyyülü, sözün özünün verdiyi informasiya da var. Ancaq onu da etiraf edək ki, etimalogiya hansısa yerin, tayfanın, ərazinin haqqında məlumatların dürüstləşməsi üçün bir istiqamətdi. R.Gənzəli də məhz Gənzənin etimalogiyasını belə təqdim edir:

«Qanzak, Qanza, Kənzə, Gənzə…

Tarixçi alimlərin tədqiqatlarına görə, qədim türklərin Qanzak adında bir tayfaları olub. Tarixin müxtəlif dönəmlərində, həyatın qara burulğanında bu tayfa dağılıb, parçalanıb və ayrı-ayrı yerlərə səpələnib.

Türkiyə, İran, İraq, Azərbaycan…» (səh. 47). Türk xalqlarının tarixində belə tayfalar kifayət qədər olubdu. Onlar bütünlükdə türkün dövlətçiliyi, bir millət kimi yaşarlığı üçün hansı çətinliklərdən keçməyiblər. Torpaq, vətən, xalqın sabahı naminə hər cür bəlalara sinə gəriblər. Ustaclılar, şahsevənlər, təkəllilər, kəngərlilər, qacarlar və s., və s. belə tayfalardan olublar. R.Gənzəli burada bir məqamı da vurğulayır: «…Qanzak tayfasına mənsub olan insanlar olduqca mərd, cəsur, qorxmaz, torpaqsevər olublar. At çapmaqda, ov ovlamaqda, torpaq becərməkdə onların tayı-bərabəri olmayıb» (səh.48). Xeyirxahlıq, böyüklük, ağsaqqallıq və bütövlük anlamında mən gənzəlilərdən çox insanlarla qarşılaşmışam. Onlardan biri R.Gənzəlinin haqqında söhbət açdığı böyük alim, gözəl ziyalı, xeyirxah insan, əsil el ağsaqqalı Müzəffər Məmmədovdur. Mənim də üstümdə bu nurani insanın böyük haqqı-sayı var. Hər qarşılaşmamda, hər söhbətimdə ondan çox şey öyrənmişəm. İnsana qayğını, xoş rəftarı, böyüklüyü, böyük olmanı görmüşəm. Və bu mənada R.Gənzəlinin belə bir ziyalı haqqında qələmə sarılıb kitab yazmasını, onu Azərbaycanımıza təqdimini uğurlu, gərəkli iş hesab etmişəm. R.Gənzəlinin gənzəni bir tayfa kimi təqdimində, onların mərdlik və xeyirxahlığının təsvirində bu keyfiyyətlərin yaşarlığını o kəndin adamlarının təbiətində, rəftarında görmüşəm.

«Dağ evindən Xatana qədər» bölməsində Dağ evi məhəlləsinin qayğılarından, məişətindən, adət-ənənələrindən danışır, elmin, təhsilin problemləri haqqında söhbət açır. Daha sonra Xatan məhəlləsinin necə yaranışına aydınlıq gətirir. Bunlar özlüyündə həmin kəndin tarixini yazmaqda bir mənbə, fakt rolunu oynayır. Onu da əlavə edək ki, burada əsas məsələ düzdü gözəl ziyalımız Müzəffər Məmmədov haqqında bütöv təsəvvür yaratmaq, təfsilatlı məlumat verməkdir. Ancaq digər istiqamət - məhz onun formalaşdığı mühit, el-oba, nəsil və s. məsələlər də var. Bu çox doğru yoldu. Məhz bunların bütövlüyündə Müzəffər müəllimin bir ziyalı kimi yeri, mövqeyi görünür. Bir xalq məsəli var, orada deyilir ki, «meyvə öz budağından kənara düşmür». Müzəffər müəllim də bir ziyalı kimi həmin mühitdən, ağsaqqalların dediklərindən, dünyaya göz açdığı ailədən, böyüklərdən zərrə-zərrə yaxşı nə varsa könlünə yığmış və bu yaxşılığın da yolunu davam etdirmişdi. R.Gənzəli burada bir məqama toxunur və xüsusi olaraq vurğulayır ki, «oxuyurdular ki, gedib bir yana çıxsınlar. Elmin bar verən budağında oturub nadanlığa, cəhalətə, cahilliyə, insanın üzünü qara edən savadsızlığa gülə-gülə vətənin nicatı haqqında düşünsünlər» (səh.82). Eh bu vətən nələr çəkməyib, hansı ağrılardan keçməyibdi. Bütün ağırlıq isə onun ziyalılarının üstündə olubdu. Ona görə də bizim ziyalılarımız həmişə mariflənməni, elmi, təhsili mühüm məsələ kimi diqqət mərkəzində saxlayıb-

lar. Savadsızlığı bir problem kimi aradan qaldırmaq yolunu tutublar. Çünki onlar yaxşı biliblər ki, vətənin, məmləkətin yolu, gələcəyi elmdən təhsildən keçir. On birinci yüzilliyin görkəmli şairi Əhməd Yügnəkli xüsusi olaraq vurğulayırdı ki, «biliklə tapılar səadət yolu, bilik bil səadətin yolunu tap». Azərbaycan ziyalıları da həmişə bunu başlıca olan kimi diqət mərkəzində saxlamışlar. M.Ş.Vazehin, A.Bakıxanovun, İ.Qutqaşınlının, M.F.Axundovun, H.Zərdabinin, S.Ə.Şirvaninin və onlarla başqalarının gördüyü işlər buna nümunədir. Onlar Azərbaycan xalqının mariflənməsi yolunda bütün cəfalardan keçiblər. Bugünkü ziyalı mühitinin formalaşmasında heç şübhəsiz onların zamanında etdikləri böyük işlərin təsiri var.

R.Gənzəli bir yazıçı, publisist kimi Müzəffər Məmmədovun həyatının bütün tərəflərinə diqqət yetirməyə, haqqında tam təsəvvür yaratmağa çalışır. Onun bu təsəvvürləri təbiiliyi, faktik materiallara əsaslanması, hadisələri dərk və təqdimi ilə uğurlou görünür. Çünki o, Müzəffər müəllimi daha yaxşı, daha yaxından tanıyır. Rasim Gənzəli də bu nəslin övladıdır, Müzəffər müəllimin doğma qardaşıdır. Məhz bu tanıma da özünün təqdim etməsində təsirini göstərir. Burada tədqiqatçılıq, yazıçılıq və publisist olma bacarığı bir-birini tamamlayır. Və Müzəffər Məmmədovu xarakterizə edərkən bir məsələni vurğulayır: «Müzəffər Məmmədovu insan kimi xarakterizə edərkən əsas amillərdən biri və bəlkə də bi-

rincisi, onun insanların qəlbini oxumaq bacarığıdır» (səh. 127). Bu özü böyük keyfiyyətdir. Tanrı bu keyfiyyəti hər kəsə bəxş eləmir. Belə insanlara hamının, illah da çətinliyə düşənlərin, nə təhər olacaq, necə olacaq qorxusu ilə çırpınanların həmişə ehtiyacı var. Belələrinə ulu tanrı böyük ürək, böyük səbr, son dərəcədə olmazın ali keyfiyyətlər verir. Onların qəlbinə güclü işıq, xeyirxahlıq səpələyir, içini yaxşılıqlarla doldurur. Müzəffər Məmmədov da belələrindəndi. Təkrar deyirəm, mən həyatımda müxtəlif məqamlarda onunla qarşılaşmışam. Həmişə də problemimi deməmiş, çətinliyimi söyləməmiş o özü hiss edib və onu aradan qaldırmağa çalışıbdı. Əfsanəvi İran hökmdarı Kiaksar həyatın heç kəsin üzünə həmişəlik gülmədiyini söyləyirdi. Doğurdan da həyat çətinliklərlə, ziqzaqlı gedişlərlə doludur. İnsanın isə həmişə yaxşılıqlara, əl tutanlara ehtiyacı olub. İllah da çətin zamanlarda. Müzəffər müəllim bir böyük, müdrik kimi əl tutmağı, ümid yerinə çevrilməyi bacaran şəxsiyyətlərdəndi. Bunun mahiyyətində isə əsildən, nəsildən gəlmə keyfiyyətlər dayanır. Ulularımız əsil, kök məsələsini təsadüfi vurğulamayıblar.

«Alim, pedaqoq, ziyalı» - bu üç məfhum bir-birini tamamlayır. Biri digəri üçün keyfiyyət faktına çevrilir. Mənim həyatım təkcə elmlə bağlı olmayıbdı. İlk başlanğıcdan özümü müəllim kimi görmüşəm və bütün həyatım da müəllimliklə bağlı olubdu. İyirmi bir yaşımdan müəllim kimi fəaliyyətə başlamışam. Alimlik adına gəli-

şim isə bir neçə il ondan sonra olub. Və böyük-böyük müəllimlər mənim həyatımda, taleyimdə əvəzsiz rol oynayıblar. Ulu tanrı mənim qarşıma kifayət qədər yaxşı, nurlu ziyalıları, müəllimləri çıxarıbdı. Mən də onlara oxşamağa çalışmışam. Və bütün bunların sırasında böyük-böyük alimləri də görmüşəm. Və görmüşəm ki, elmin sirlərinə dərindən-dərinə bələd olanların bir qismi pedaqoq kimi fəaliyyətdə çətinlik çəkiblər. Bunu görüb tədrisdən uzaqlaşmaq yolunu tutublar. Alim, pedaqoq, ziyalı kimi keyfiyyətləri özündə birləşdirmək hər kəsə nəsib olmur. Müzəffər müəllim bunları özündə birləşdirən şəxsiyyətlərdəndi. Bu səbəbdən də R.Gənzəlinin dedikləri özünü doğruldur. Əməkdar müəllim adına gəlişi də həmin keyfiyyətlərin qiymətləndirilməsidi. R.Gənzəli yazır: «Azərbaycan Respublikasının prezidenti İlham Əliyev cənablarının 24 aprel 2006-cı il tarixli, 1430 saylı sərəncamı ilə Müzəffər Qulu oğlu Məmmədova «Azərbaycan Respublikasının Əməkdar Müəllimi» adı verilmişdir.

Bu vaxta qədər Ordubad rayonunda doğulub boya-başa çatmış İsmayıl Əsədov, Səyyad Əsgərov, Qulam Əhmədzadə, Məftun Əkbər, Şərəf Əkbərova, Həbib Sadıqov, Tovuz Sadıqzadə, Əlağa Seyidov, Mehdi Mehdiyev, Nadir Mustafayev, Lətif Manafov, Kazım Məmmədov, Bəşir İsmayılov, Cabbar Rəsulov, Əli Qənbərli, Ətrabə İmanova və Ofelya Məmmədova bu fəxri ada layiq görülmüşlər.

Müzəffər müəllim on səkkizinci idi» (səh. 146). Bu siyahını, eləcə də Müzəffər müəllimin əməkdar müəllim adı almasını Azərbaycan elminin, mədəniyyətinin, müəllimliyinin qiymətləndirilməsi kimi başa düşürəm. Onu da başa düşürəm ki, bu qiymətləndirmə müəllim adına olan hörmət və sayğıdır. Çünki xalqımız həmişə müəllim adını ucalıqda tutub, ona böyük hörmətlə yanaşıbdır. Müzəffər müəllim də müəllim adına şərəf gətirən, ona hörmət etdirən ziyalılarımızdandı.

M.Məmmədovun bütünlükdə fəaliyyəti, müəllimliyi, alimliyi Azərbaycan Dövlət İqtisad Universiteti ilə bağlıdır. Sovetlər imperiyasının süqutundan sonra bir sıra ixtisaslara, zamanın tələb etdiyi istiqamətlərə ehtiyac duyuldu. Artıq beynəlxalq səviyyədə dayanacaq və bu istiqamətdə fəaliyyət göstərəcək mühitin yaradılmasına xüsusi zərurət yarandı. Uneiversitet həmin boşluğu doldurmaq üçün qətiyyətli addımlar atmalı idi. Beynəlxalq iqtisadi münasibətlər fakültəsinin yaradılması, bu istiqamətdə kafedranın formalaşdırılması qarşıda başlıca vəzifə kimi dururdu. Proqramların, dərs vəsaitlərinin, dərsliklərin yaxzılmasına xüsusi ehtiyavc hiss olunurdu. M. Məmmədov digər həmkarları kimi bu istiqamətdə əlindən gələni əsirgəmədi. Uğurlu və gərəkli addımların atılmasına bir ziyalı kimi yardımçı oldu. İndi həmin fakültənin başında durur. Böyk bir kontingent artıq formalaşıbdı. Görülən işlər özünün bəhrəsini vermədədi. Artıq burada bey-

nəlxalq səviyyədə duracaq mütəxəssislər yetişmədədi. Bununla sevinməyə, fəxr etməyə dəyər. «Onun apardığı elmi-tədqiqat işlərinin nəticəsi kimi indiyə qədər 100-dən artıq adda, 200 çap vərəqi dərslik, dərs vəsaiti, proqram, metodik göstəriş, elmi məqalə, tezis və publisistik məqalələri çap edilmiş, onların bir çoxu xarici ölkələrdə dərc edilərək elmi dairələr tərəfindən yüksək dəyərini almışdır» (səh.148). Əlbəttə bunlar hamısı Azərbaycan elminin, elmi-nəzəri düşüncəsinin boy artımına, inkişafına xidmətdir. M.Məmmədov da bu sahədə əlindən gələni əsirgəməyib, tədqiqatları ilə problemlərin aydınlaşmasına yardımçı olmuşdu. Kamilə Dönməz «Elin mərd oğlusan» şeirində «sən köklü ağacsan barlı-bəhərli, parlayan günəşsən, aydın səhərli» qənaətlərini həmin böyük işlərin əsasında söyləyir. Onu da qeyd edək ki, Müzəffər müəllimin tədqiqatları, pedaqoji fəaliyyəti təkcə Azərbaycanla məhdudlaşmır. O, eyni zamanda dünya elminin inkişaf səviyyəsini ardıcıl olaraq izləyir, dünya təcrübəsini, ayrı-ayrı xarici ölkə universitetlərinin uğurlarını öyrənir, onları gedib yerindəcə öyrənməyə çalışır. Və bu uğurları demək olar böyk vətəndaşlıq duyğusu ilə Azərbaycanımıza daşıyır.

«Qalib gələn adam» kitabında böyük bir bölmə «İqtisadi və elmi araşdırmalarından bir neçə yarpaq» adlanır. Bu başlıq altında isə «Azərbaycan beynəlxalq təşkilatlar sistemində», «Azərbaycan dünya iqtisadiyyatı meredianında», «Avropa ittifaqı və Avropada Regional iqtisadi

inteqrasiyanın inkişaf istiqamətləri», «Azərbaycan – Şərqlə Qərb arasında iqtisadi körpülər» başlıqlı yazılar verilmişdir. Bütün bunlar hər biri özlüyündə göründüyü kimi mövzuların problematikliyi, müasir dünyanın iqtisadi mənzərəsini ifadə etmək məqsədi daşıyır. Belə ümumiləşdirmələr isə böyük səriştə və xüsusi yaradıcı qabiliyyət tələb edir. Onu da əlavə edək ki, bu gün Azərbaycan özünün iqtisadi, siyasi potensialı ilə dünyaya inteqrasiya olunur. Sovetlər dönəminin dağılmasından sonra  ölkəmiz böyük çətinliklər yaşadı. Bir tərəfdən iqtisadi sistemin pozulması, respublikalar arasında yaşanan gərginlik, soydaşlarımızın dədə-baba yurdlarından qovulması, torpaqlarımızın ermənilər tərəfindən işğalı  və s. hamısı bütünlükdə xalqın ümumi vəziyyətinə təsir edirdi. Burada həm xarici, həm də daxili faktorlar da az deyildi. Belə olan vəziyyətdə siyasi hakimiyyətin sabitləşməsi, ümumi problemlərin həlli istiqamətində qətiyyətli addımların atılması gərəkdi. Siyasi və iqtisadi sistemin nizamının təmin edilməsi isə bir günün, beş günün işi deyildi. Bütün çətinliklərə baxmayaraq Azərbaycan həmin vəziyyətdən ləyaqət və şərəf hissi ilə çıxdı. Düzdü, müharibə məsələsi, torpaqların işğaldan azad olunması olmadı. Ancaq siyasi sabitliyin, iqtisadi inkişafın təməli qoyuldu və sonrakı uğurlara doğru qətiyyətli addımlar atıldı. Bu addımlar indi də özünü göstərmədədi. Müqavilələr, böyük kontraktlar beynəlxalq səviyyəli simpoziumlar və s. hamısı bunun göstəricisidi. Məhz

bu bölmə bir növ həmin perspektivləri açma məqsədi daşıyır, qiymətləndirmə kimi görünür.

Kitabda son bölməni «Rəylər fikirlər, ürək sözləri təşkil edir». Bu özü də tanıtma məqsədi daşıyır. Və R.Gənzəlinin hansı həqiqətlərə söykəndiyini bir daha nümayiş etdirir. V.Məmmədovun, E.İsgəndərzadənin, N.Qənbərovun, Əli Hacı Abuzəroğlunun, V.E.Novitskinin, Əhməd Mərənginin, Rəbbəli Fərhadinin, Pərviz Axundbəylinin, Cəlal Mahmudovun və başqalarının müxtəlif vaxtlarda söylədiyi fikirləri iqtisadçı alimimiz, gözəl ziyalı, xeyirxah insan Müzəffər Məmmədovun xarakter keyfiyyətlərini, hansı ideallarla yaşamasını, bir ağsaqqal kimi böyüklüyünü aydınlaşdırır. Texnika elmləri doktoru, professor C. Məmmədov yazır: «Müzəffər müəllimlə hər dəfə görüşüb söhbət edəndə yəqin etdiyim bu olur ki, o, öz ömrünü yaşamaqdan çox, elmimizin, tədrisimizin ömrünü mənalandırmaq yolunda fədakarlığı ilə seçilən alimlərimizdən və pedaqoqlarımızdandır. 60 yaşını haqlayan alimin və mahir pedaqoqun ömrünün bütün məziyyətləri ilə nəsillərə, xüsusilə gənclərə bir örnək olduğunu da vurğulamaq yerinə düşər…Elmi yaradıcılığına xas olan tədqiqatçılıq xarakteri, obyektivlik, dəqiq fikir demək məsuliyyəti, sadəlik, xeyirxahlıq Müzəffər Məmmədovun gözəl insan, mütəxəssis və pedaqoq kimi qiymətləndirmək qənaətini doğurur» (səh.246). Bizim indi belə kitablara, böyük düşüncələrlə yaşayanları xalqa, geniş ictimaiyyətə təqdim etməyə daha çox ehti-

yacımız var. Çünki onlar özlüyündə məktəbdirlər. R.Gənzəli də məhz «Qalib gələn adam» kitabı ilə bir istiqamətdə həmin böyüklüyü açmağa çalışırsa, digər istiqamətdə bu açma ilə elmimizə, mədəniyyətimizə özünün töhfəsini verir.

Tipologiya baxımından R.Gənzəlinin «Qəlbi asiman kimi» əsəri «Qalib gələn adam»a yaxınlaşır. Çünki burada da portret, şəxsiyyət səviyyəsində elmimizin, mədəniyyətimizin mühüm bir tərəfinin açılması var. Düzdü, burada fərqliliklər də var. Bu fərqliliklər hadisə və təsvirlərə münasibətdə, mövzunu mənimsəmədə, problemlərin şərhinə varmada və s. ortaya çıxır. Ancaq epik təhkiyyənin tələb etdiyi müstəvidə və düşüncə tipində onlar eyni səviyyədə dayanırlar. Burada bir istiqamət də müəllifin mövzunu yaşaya bilməsi bacarığı ilə bağlıdır. Çünki yazıçının mövzunu yaşamadan, içində bişirmədən yazıya gətirməsi bir növ uğursuzluğa açılan qapı kimidi. Belə bir vəziyyət R.Gənzəli yaradıcılığı, yaradıcılıq manerası üçün yaddı. Onun düşüncəsində hər şey zərgər dəqiqliyi ilə ölçülüb biçilir, hansı epizodun, hadisənin hansı məqamda verilməsi bütün tərəfləri ilə hesablanır. Məhz bu səbəbdən də yaradıcılığındakı əhatəlilik onu elə də aldatmır. Əksinə, yaradıcının imkanlarını, düşüncə zənginliyini, həyat hadisələrinə dəqiqliklə yanaşa bilməsini göstərir. «Qəlbi asiman kimi» əsəri R.Gənzəli yaradıcılığında bir istiqamətdi. Daha doğrusu, onun yaradıcılığının zənginlik hadisəsidi. Burada biz müəllifin təkcə yazıçı kimi hadi-

sələrə münasibətini, təsvir və təqdimini görmürük. Belə olsaydı bu çox zəif görünərdi və birtərəfli qiymətləndirmə olanrdı. Eyni zamanda onun tədqiqatçılıq qabiliyyətini, Azərbaycan, türk müsuqisinə bələdliyini müşahidə edirik. Və bu həm də çox dərinliklərin açılması hadisəsi təsiri bağışlayır. Burada R.Gənzəlinin Azərbaycan musiqisinə verdiyi dəyəri müşahidə edirik. Həm də onun xalq musiqisinə, müasir musiqinin inkişaf istiqamətinə bələdliyini görürük.

Müasir Azərbaycan mühiti sovetlər imperiyasının dağılmasından sonra bir sıra siyasi, iqtisadi, mədəni qarışıqlıqlarla üz-üzə qaldı. Onu da əlavə edək ki, bu dolaşıqlıq, siyasi mühitdəki qarışıqlıq mədəniyyətimizin bütün tərəflərində problemləri ortaya qoydu. Elə musiqimizdə də bu bir tərəf kimi özünü qabarıq şəkildə göstərdi. Bacardı-bacarmadı, musiqi istedadı oldu-olmadı böyük bir dəstənin musiqiyə axını başladı. Daha doğrusu, dırnaqarası müğənni olanların sayı çoxaldı. Həqiqi müğənnilərin seçilib qiymətləndirilməsi problemi meydana çıxdı. Gərəksiz bir şou meydan sulamağa başladı. Müğənniliyə, musiqiyə aidiyyatı olmayanların səlib yürüşü göründü. Halbuki Azərbaycan musiqisi böyük zamanları ənənələrlə keçib gəlibdi. Böyük N.Gəncəvi hələ on ikinci yüzillikdə «çala badam gözlü bir türk nəğməkar» çöyləyirdi. Bu gün həmin uzaq əsrlərdən gələn ənənəni çiyinlərində daşıyanlar var. Azərbaycan musiqisinin, musiqi mədəniyyətinin ağırlığı da onların üzərindədi. Məhz

istedadlı yazıçımız R.Gənzəlinin bu mövzuya müraciət etməsi təsadüfi deyildi. Azərbaycan ifaçılıq sənətində özünəməxsus yeri olan istedadlı xanəndə Nuriyyə Hüseynovanın şəxsində musiqimizin qiymətləndirilməsidi. Bu kitab yadıma S.Zalıginin söylədiyi yaradıcılıq, yaradıcı istedadı anlamında bir fikrini saldı. O yazır: «Mənə elə gəlir müğənni öz səsi ilə doğulduğu kimi, şair də özünəməxsus dili ilə doğulur, Zil, yaxud pəs səsə malik olmaq müğənnidən asılı deyil və bu səsi yenidən qurmaq qeyri-mümkündür… Onu yalnız təkmilləşdirmək, diapazonunu genişləndirmək olar». Doğurdan da belədir. Yaradıcılıq, istedad anlamında həm əsərin qəhrəmanı bizim gözəl müğənnimiz N.Hüseynova, həm də yazıçımız R.Gənzəli ədəbi ictimaiyyətə verdiyi töhfələrlə tanınmadadı. Artıq onlar hər ikisi yaradıcılığının məhsuldar dövrünü yaşayırlar. Biri yazıçı, digəri müğənni kimi.

Kitabın başlanğıcında maraqlı bir məqam var. Orada deyilir: «Ruhum bu dünyanı anlayandan çox oxuyanlar tanıyırdım. Şövkət Ələkbərova, İslam Rzayev, Nərminə Məmmədova, Arif Babayev, Zeynəb Xanlarova, Qədir Rüstəmov, Nəzakət Məmmədova, Əlibaba Məmmədov, Səkinə İsmayılova, Alim Qasımov…

Ancaq burdan-bura onu tanımırdım. «Burdan-bura» ona görə deyirəm ki, kəndlərimiz arasında uzağı iyirmi-otuz kilometr məsafə var» («Qəlbi asiman kimi». Bakı, Qanun, 2007, səh. 3). Müəllif burada Azərbaycan musiqisinin inki-

şafı, zənginləşməsi sahəsində xidmətləri olan sənətkarların adını vurğulayır və bir qədər təəssüf hissi ilə həmin sırada vurğulanmalı Nuriyyə xanımın haqqında söhbət açır. Biz söhbət açır dedik. Ancaq bu söhbət açma belə təfərrüatlı araşdırmada çox kiçik görünür. Burada R.Gənzəlinin yazıçılıq istedadı ilə tədqiqatçılıq istedadı, Azərbaycan musiqisinə bələdliyi bir-birinə qovuşur. Daha doğrusu, bu istiqamətlər biri digərini tamamlayır. «Qəlbi asiman kimi» bir tədqiqat əsəri qədər dəyərli təsir bağışlayır. Burada təkrar qeyd edək ki, həm bədiilik, həm tədqiqatçılıq istedadı problem mövzunun açılmasına yardımçı olur. Ona görə də bu tip əsərlərə bizim indi daha çox ehtiyacımız var. Azərbaycan tarixinin mədəniyyət tərəfini, xalqımızın mədəniyyət tarixini öyrənmək anlamında bu əsərlərin özünün sonrakı araşdırmalar üçün dəyəri əvəzsizdi. R.Gənzəli yuxarıda müasir dövrümüzün klassik sənətkarlarının adlarını sıralayır. Etiraf edək ki, bu yolun başlanğıcı daha qədimlərə səmavilərin, qəhrəmanlıq nəğmələrinin, döyüş türkülərinin ifaçılarına və daha qədimlərə gedib çıxır. Tarix bunların ifaçılarının adlarını bizim zamanımıza qədər daşıyıb gətirməyibdi. Ancaq bir məsələ var ki, əlimizdəki nəğmələr, bayatı nümunələri, musiqi alətlərinin hazırlanması ilə bağlı əfsanə və rəvayətlərin olması bu haqda düşünməni zəruriləşdirir. Çünki musiqi alətləri haqqında düşünmə özlüyündə musiqi ifaçıları ilə bağlı düşünməni zərurətə çevirir. Eləcə də şeir və musiqi haqqın-

da ədəbi mühitdə olan söhbətlər, tədqiqatçı mülahizələri həmişə mübahisələrə gətirib çıxarıbdı. Hətta bir qədər açıq desək, şeirin, yoxsa musiqinin əvvəl yaranması ilə bağlı mübahisələr günümüzdə də davam etməkdədir. Ə.Bədəlbəyli xüsusi olaraq vurğulayır ki, «şeirlə musiqinin xəmiri eyni vaxtda yoğrulmuşdu». Burada bir məsələ var ki, hər ikisi xalqın düşüncəsinin, ruhunun ifadəsi kimi çox-çox qədimlərdən, ilkin təsəvvürlərinin formalaşdığı zamandan, həyatı dərk etmə istiqamətində yola çıxdığı vaxtlardan pöhrələnməyə başlamışdı. Ona görə də bunların hamısında bir yaşarılıq, xalqın ruhunun daşınışı var. Şeir nəzəriyyəçiləri şeiri Allahın dili kimi vurğulayırlar. Bizə belə gəlir, elə musiqinin, hər hansı gözəl musiqi əsərinin dili də Allahın dilidir. Türk xalqlarında isə musiqinin ecazkarlığı sonsuzdu. Bunu xalq mahnılarımızın ifasında, nəğmələrimizin mətnlərində də görürük. Bir xalq mahnımız var, orada deyilir ki, «qalada yatmış idim, top atdılar oyanmadım, söhbət ilə, saz ilə oyatdılar oyandım». Bu mətnin mahiyyətinə diqqət yetirdikdə burada çox gizlinlər dayanır. Türk ruhunun musiqi, sənət anlamında hansı dəyərlərə yükləndiyi görünür. O da aydınlaşır ki, topla tüfənglə oyanmayan xalqın ruhunda musiqinin nə dərəcədə böyük əhəmiyyət kəsb etməsi var. Dastanlarımızda bu tip məqamlar kifayət qədərdi. Məsəln, «Koroğlu» dastanında Qıratı Keçəl Həmzəyə verib kor-peşiman Çənlibelə qayıdan Qoç Koroğlu «aşıqlığım bəsdi mənə, şad ol

könül, nə məlulsan» söyləyir. Türkün tarixində musiqi ilə qəhrəmanlıq qoşa addımlayıb. Yuxarıdakı nümunədən də göründüyü kimi, böyük qəhrəmanlıqlar göstərən Qoç Koroğlu son anda aşıqlığa, musiqiyə sığınır və bununla təskinlik tapır. «Kitabi-Dədə Qorqud» dastanlarımızda bunun bir başqa tipik nümunəsi ilə rastlaşırıq. Bu, «Dədəm Qorqud qopuzu xatirinə bağışlanmadır». Hətta təkcə oğuz igidləri deyil, bütünlükdə düşmən tərəf də «Dədəm Qorqud qopuzu xatirinə bağışladım» söyləyir. Belə bir düşüncə təsadüfi deyil. Bunun mahiyyətində böyük ucalıq, qiymətləndirmə, sənətə, sənətkara verilən hörmət, müqəddəsləşdirmə var. Məhz həmin ənənədir ki, əsrləri keçərək zamanımıza qədər gəlmədədir. Xalq şairimiz H.Arif şeirlərinin birində yazır:

Qurbanı, Abbası, Əmrahı anıb,
Kərəmlə alışıb, Dilqəmlə yanıb,
Tütəklə uyuyub, sazla oyanıb,
Kamanla dil açıb ötdü babalar.

Burada böyük bir tarix, sənətin, sənətkarın xatırlanması, uca tutulması, babaların hansı düşüncə ilə yaşamasının mənzərəsi var. Tütəklə uyuma, sazla oyanma, kamanla dil açma kimi məqamların vurğulanması dərin mətləblərdən xəbər verir. R.Gənzəli də «Qəlbi asiman kimi» əsəri ilə həmin düşüncə sahiblərinin yolunun davamçısıdı. Bir növ onlardan gələn ənənəni sabahlara daşıyır. Azərbaycan musiqisinin inkişaf perspektivləri, müasir mənzərəsi haqqında təfərr-

üatlı məlumat verir. Və istedadlı yazıçımız R.Gənzəlinin istedallı müğənnimiz Nuriyyə Hüseynova haqqında yazması və bu qənaətə gəlməsinin təsadüfi olmadığı aydınlaşır. R.Gənzəli yazır: «Çoxdan, lap çoxdan onun haqqında yazmaq istəyirdim. Əvvəlcə qəzet məqaləsi hazırlamağı düşünürdüm. Hətta sərlövhəsini də fikirləşmişdim: «Ordubadın gözəli». Sonra gördüm ki, Nuriyyə sənəti qəzet məqaləsinə sığası deyil… Və onun haqqında kitab yazmaq qərarına gəldim» (səh. 8). Mənə belə gəlir bu qənaətin arxasında təkcə Nuriyyə xanımın sənətinə, musiqi istedadına vurğunluq dayanmır, burada bütünlükdə Azərbaycan, türk musiqi sənətinin qiymətləndirilməsi var. Çünki müəllifin təfsilatları, təhlilləri, şərhləri o qədər əhatəli və genişdir ki, bunu bir şəxsin adına yazmaq əsərin dəyərini bütün tamlığı ilə ifadə etmə deyil. Bu bütünlükdə xalqa, millətə, onun mədəniyyətinə, musiqisinə sevginin ifadəsidir. Sadəcə olaraq R.Gənzəli bu sevgini Nuriyyə xanımın şəxsində dilə gətiribdir.

Kitabda bir-birindən maraqlı başlıqlar, müəllif düşüncəsini əks etdirən, bəlkə də mübahisələrə, tədqiqatlara yol açan məsələlər var. Bu bütün əsər boyu özünü göstərir. Elə «Çimən məhəlləsinin qızları» adlı yazıda da belədir. Burada yazıçının Dırnıs kəndi haqqında təsəvvürləri ümumiləşdirilir. Onu da əlavə edək ki, R.Gənzəli «Qəlbi asiman kimi» əsərində, onun ayrı-ayrı başlıqlı yazılarında daha çox araşdırıcı, tədqiqatçı rolunda çıxış edir. Çünki həmin yazılarda təh-

kiyədən, təsvirdən çox təhlillər, müəllif qənaətlərinin nəzəri, elmi ümumiləşdirilməsi var. Bu isə təsadüfi deyil. R.Gənzəli həmin verməyə çalışdığı məsələlərin aydınlaşmasında məhz təhlillərə, ümumiləşdirmələrə getməklə əsərinin dəyərini artırır. Problemin mahiyyətinə aydınlıq gətirməyə çalışır. İstedadlı müğənnimiz Nuriyyə Hüseynova haqqında tam təsəvvür yaratmaq məqsədini hər şeydən uca tutur. «Dırnıs nəinki Ordubadın, Naxçıvanın, bəlkə də bütün Azərbaycanın ən təkrarsız, gözəl, unikal kəndlərindən biridir.

Düzdür, Ordubadda bir-birindən maraqlı, qeyri-adi gözəlliyi, qəribəliyi, təbiəti ilə göz oxşayan əzəmətli dağlar, sıldırım qayalarla əhatə olunan kəndlər az deyil… Vənənd, Kələki, Kotam, Dəstə, Əylis, Əndəmic, Gənzə, Anabat, Tivi, Bist, Aza, Dizə… Hamısının da öz görkəmi, oturuşu, duruşu. Adamları da özləri kimi qəribə, bir-birindən fərqli, seçilən… Buralarda, demək olar ki, hər kəndin özünəməxsus adət-ənənəsi, ləhcəsi, şivəsi, ifadə tərzləri var. Hətta deyimlərində də bir-birindən fərqli, müxtəlif çalarlar tapa bilərsiniz» (səh. 9). Azərbaycanın bütün tərəfləri əsrarəngizliklərlə, gözəlliklərlə, bir-birindən fərqli özünəməxsusluqlarla doludur. Ulu yaradan bu yerlərdən heç bir gözəlliyi əsirgəməyib. Sərvəti də, səxavəti də, xeyirxahlığı da, hamısını bir bolluqla başının üstündən səpibdi. Məhz həmin gözəlliklərin, özünəməxsusluqların açılması istiqamətində indi gərəkli işlər görməyin zamanı daha çox çatıbdı. Çünki Azərbaycanımızın başı

həmişə savaşlarda, qeylü-qallarda olubdu. Yağılar, düşmən qüvvələr bu torpaqlara zaman-zaman göz dikib, onu zəbt etmək, yağmalamaq məqsədi ilə dəridən-qabıqdan çıxıblır. Ən dəhşətli niyyətlərə belə əl atıblar. İndi respublikamız müstəqildi. Bu müstəqillik üçün zaman-zaman canından-qanından keçən oğlullar, qızlar olubdu. Biz məmləkətimizi bütün tərəfləri ilə öyrənməliyik. Onun ecazkarlığını, təbiətini, məişətini, nəyi varsa hamısını müxtəlif istiqamətlərdə təhlillər edib açmağa çalışmalıyıq. Etiraf edək ki, bu istiqamətdə son dövrlər xeyli uğurlu işlər görülmədədi. Dilçilərin, etnoqrafların, arxeoloqların, folklorşünasların apardığı işlər buna nümunədi. Bu işlərin isə on doqquzuncu yüzillikdən başlanan bir tarixi vardı. Düzdü, müəyyən vaxtlarda ondan da əvvəl işlər görülmüşdü. Bunun çoxalan istiqamətdə və məqsədyönlü şəkildə aparılması elə həmin on doqquzuncu yüzillikdən nəzərə çarpır. Folklor nümunələrinin toplanması istiqamətində etiraf edək ki, həmin dövrdə kifayət qədər ləyaqətli işlər olmuşdu. Eləcə də etnoqrafların apardığı işlər də buraya daxildir. Məhz yazıçı R.Gənzəlinin vurğuladığı məqamlar da bir istiqamətdə həmin işlərin aparılmasına işarədi. Azərbaycanın müstəqilliyi gərəkli və aktual olacaq işlərin görülməsi üçün geniş imkanlar yaradıb. Ona görə də biz kəndlərimizin, məhəllələrimizin, ayrı-ayrı nəsillərin və s. tarixinin öyrənilməsi istiqamətində ciddi addımlar atmalıyıq. Burada məişətimiz, mərasimlərimiz, adət-ənənələri-

mizin öyrənilməsi məsələsi də var. Bu isə bütünlükdə regionu, xalqımızın tarixini öyrənmək istiqamətində işlərin görülməsinə gedən yolu asanlaşdırır.

Kitabda bir-birindən maraqlı təhlillər, təsəvvürlərin bütövləşməsinə xidmət edən problem mövzular var. Bunlar «Çimən məhəlləsinin qızları», «Yollara iz düşəndə», «Salam, doğma məktəb», «Yora bilməz yollar səni», «Unudulmaz günlərin işığı», «Müsabiqələr, festivallar», «Ailə, tale, alın yazısı», «İtirilmiş illər», «Qeybdən qayıdan səs», «Azərbaycan qadınlarının rəmzi» başlıqlarında özünün əksini tapır və müğənni haqqında tam təsəvvür yaratmağa xidmət edir.

Azərbaycanda xanəndəlik sənətinin xeyli qədimlərə gedib çıxacaq tarixi var. Xalq musiqisinin inkişaf tarixinə nəzər saldıqda bir məsələ tam aydınlığı ilə görünür ki, Azərbaycan ədəbiyyat, incəsənət, maddi mədəniyyət abidələrinin inkişafı və zənginliyi ilə hansı uğurları qazanıbsa, xalq musiqisi, xanəndəlik sənəti ilə də eyni uğurlara imza atıbdı. Xanəndələrimiz, musiqiçilərimiz heç şübhəsiz xalqın mənəvi dünyasının rübabını dilə gətirmiş, onların sevgi və iztirablarını, həyat ağrılarını, arzu və istəklərini ifa etmişlər. Xanəndəlik muğam sənəti ilə bağlıdır. Bu sənət zaman-zaman şifahi şəkildə yaşamış və günümüzə qədər daşınmışdır. İndi həmin tarixə diqqət yetirdikdə onun arxasında şərəfli olacaq bir zaman var. Muğam şərq mədəniyyətinin mühüm

tərkib hissəsidir. Hacı Hüsü, Səttar, Sadıqcan, Mirzə Muxtar, Məşədi Zeynal, Aşıq Abbasqulu, Malıbəyli Cümşüd, Malıbəyli Həmid, Çarıqçı Bahadır, Zabul Qasım, Bülbülcan, Xanlıq Şükür, Salyanlı Şirin, Segah İslam, Cabbar Qaryağdıoğlu, Mirzə Mənsur və s. kimi onlarla sənətkar Azərbaycan musiqi tarixinin zənginləşməsinə özlərinin töhfələrini vermişlər. Bir növ böyük muğam məktəbini yaratmışlar. Həmin məktəbin uğurları indi bütün dünyaya yayılır. Yazıçı R.Gənəzəli isə Nuriyyə Hüseynovanın şəxsində Azərbaycan musiqisinə, onun rəng çalarlarına diqqət yetirir və özünün təəssüratını bölüşür. Burada müəllif Nuriyyə xanımın dünyaya gəldiyi ailə, uşaqlıq illəri, ilk məktəb həyatı və erkən yaşlarından musiqi istedadının üzə çıxması kimi məsələlərə diqqət yetirir. «1981-ci ildə Bakıda gənc ifaçıların müsabiqəsi keçirilirdi. Yekun konsert isə indikindən fərqli olaraq bir çox adlı-sanlı sənətkarların belə həsrətlə baxdığı Respublika sarayında keçirilirdi. Müsabiqənin münsiflər heyətinin üzvləri görkəmli sənətkarlar idilər: Vasif Adıgözəlov, İslam Rzayev, Arif Babayev, Şövkət Ələkbərova… Münsiflər heyətinə dünya şöhrətli drijor, maestro Niyazi başçılıq edirdi. Həmin müsabiqədə Nuriyyə Məmmədova qalib gələrək fəxri diplomla mükafatlandırıldı» (səh. 30). Göründüyü kimi, burada Nuriyyə xanımın musiqi istedadının qiymətləndirilməsi hələ gənc yaşlarında ikən olmuşdu. Azərbaycan musiqisinin canlı əfsanələri onun səsinin, qabiliyyətinin

dəyərini vermişlər. Və həmin dəyər sonrakı çağlarda bir daha özünü doğrultmuşdu. Yaradıcılıq istedad məsələsidi. Kimliyindən, hansı mənsəbdə dayanmasından asılı olmayaraq əlahəzrət istedad hər şeydən ucada dayanır. Əgər bu olmadısa heç şübhəsiz uğursuzluq, fəlakət gözləyir. Çünki sənətdə həmişə bir özünü təsdiq var. Buna yaradıcı təsdiqi deyirlər. Yamsılama, kimi isə təkrarlama özünütəsdiqin işi deyil. Nuriyyə xanım da gənc yaşlarından tanrının verdiyi istedadla qapıları açmış, musiqi sənətinin zirvələrinə doğru irəliləmişdi. Bunu onun sənət korifeyləri qarşısında imtahanları, musabiqələr və qələbələri də aydınlıqla göstərmədədi. «Tanrı səsi tale kimi, alın yazısı, ömür yolu kimi Nuriyyəyə bağışlamışdı» (səh.31). Nuriyyə xanım həmin tale ilə, alın yazısı ilə irəlilədi və Azərbaycan ictimaiyyətinə, xalqımıza özünün nəyə qadir olduğunu çox erkən vaxtlarından təqdim edə bildi. Bu səs indi bütün dünyanı dolaşır. Azərbaycan musiqisinin uğurlarını təkcə Azərbaycan, bütünlükdə türk xalqları boyu deyil, dünya ictimaiyyətinə çatdırır. Məhz bu səbəbdən də yazıçı R.Gənzəli Nuriyyəni öz əsərinin qəhrəmanı seçir. Onun həyat, yaradıcılıq yolunu işləməyi bir məqsəd kimi qarşısına qoyur.

R.Gənzəlinin əsərlərinin adlandırmasında bir özünəməxsusluq var. Bu adlanmadakı ad sıralanmasında, əsərin mahiyyətini əks etdirmədə də görünür. Elə «Qəlbi asiman kimi» əsəri də bunun ifadəsidi. Bu özlüyündə birbaşa (məhz dola-

yısı ilə yox) müəllifin müğənnimizə, həm də müsuqimizə münasibətinin ifadəsidi. Sənət, musiqi, ulu tanrının göstərdiyi iltifat onun qəlbini asiman kimi etmişdi. Asiman kimi olma isə hər şeyə aydınlıq gətirir. Daha doğrusu, bütün müstəvilərdə nümunəyə çevrilir. Nuriyyə Hüseynova məhz belə müğənnilərimizdəndi. Müasir xanəndəlik sənəti özlüyündə inkişafla, özünəməxsusluqların, axtarışların spesifikası ilə xarakterizə olunur. Həmin axtarışlar təkcə ənənəyə əsaslanmır, eyni zamanda axtarışları, yeni-yeni uğurları da aktuallaşdırır. Səs, ritm çalarlarının əlavələrlə sənətə gəlməsini zərurətə çevirir.

Kitabda R.Gənzəli «Yora bilməz yollar səni» adlı bir başlıq verir. Burada əlbəttə ilk öncə nəzərə çarpan sənətin enişli, yoxuşlu olması, çətinliklərlə, əzablarla doluluğu və ona mərdanəlik, dözüm göstərilməsi vurğulanır. Heç şübhəsiz, həyatda asan başa gələn bir şey yoxdu. İllah da yaradıcılıqda. L.Tolstoyun bədii yaradıcılığı cəhənnəm əzabı adlandırması da təsadüfi deyil. Çünki özü bədii düşüncənin ən görkəmli şəxsiyyətlərindən idi. Bütün fəaliyyəti ilə ora bağlı olmuşdu. Onun nə demək olduğunu yaxşı bilirdi. Məhz R.Gənzəlinin də belə bir başlıq ayırması sənətə sevgini, onun çətinliklərini ifadə etmək məqsədinə xidmət edir. «Yollar, yollar…

Gah hamar, gah daşlı-kəsəkli, dünyanın başına dolanan dolanbac yollar…

Birini aparan, birini gətirən, birinə şad, birinə bəd xəbərlər çatdıran yollar…

Bəşər övladı doğulandan məzar evinəcən yol gedir. Əvvəl öz ocağının başına dolanır, sonra kəndinin, şəhərinin, mahalının, yurdunun... Daha sonra dünyanın...

İnsan ömrü boyu yol gedir. Hara gedir, niyə gedir, nədən belə tələsir?

Öz qismətinə, taleyinə düşənləri yığmağa tələsir beləcə. Bir az dərd yığır, bir az sevinc; hər dəfə də dərdi sevincindən çox olur insan balasının. Yaxşı, ya yaman... Bir ömürdü, yaşamalısan. Qaça-qaça, tələsə-tələsə taleyin yollarına düşənləri yığmalısan.

Nuriyyə də gedirdi. Qismətinə düşənləri, Tanrının ona göndərdiklərini yığmağa tələsirdi» (səh.25). Burada bütöv, kifayət qədər təfsilata gedəcək bir yazıçı təhkiyyəsi var. Biz də onu məhz təsadüfi olaraq vermədik. Bu yazıçının həyat düşüncələri və onun dərki ilə bağlı verdikləridi. Özü də bir istedadlı xanəndəmizin, musiqi sənətimizin inkişafında əlindən gələni əsirgəməyən Nuriyyə xanımın şəxsində verdiyi qənaətlərdi. Burada onu da əlavə edək ki, bir fəlsəfi mahiyyətə varacaq məqam da var. Bu insan və dünya, onun durumu, gəlişi-gedişi kontekstində olanlardı. Həyatı dərk və özünü dərk məqamları məhz bu düşüncənin dilə gətirilməsini zəruriləşdirib. R.Gənzəli də N.Hüseynovanın böyük yaradıcılığı anlamında onları təqdim edir. Bu tezis Nuriyyə xanımın timsalında böyük şairimiz S.Vurğunun «deyilən söz yadigardı» qənaətinə xidmət edir. Nuriyyə xanım Hüseynova da bütün

fəaliyyəti ilə Azərbaycan musiqisinə, sənətin inkişafına, zənginləşməsinə, yaşarlığına xidmət edir. R.Gənzəli kitabın sonunda epiloq əvəzi bir yazı verir və onun sonunda maraqlı, həm də olduqca gərəkli bir sual qoyur. «Görəsən, insanlar gözəllikdən və ülvilikdən yoğrulan bu səslərin sahiblərini dahi edəcəklərmi» (səh. 140)? Əlbəttə dahilik hər kəsə nəsib olmur. Ancaq ulu Tanrının insanlar arasında seçilmişləri var. Bu istedad sahibləridi. Özlərinin xüsusi qabiliyyətləri, bacarıqları və xalqın həyatında, yaddaşında gərəkli işləri ilə xalqın tarixinə adını yazırlar. Kimi məmləkətin ağır məqamlarında göstərdiyi qəhrəmanlıqla, kimi elmə, mədəniyyətə verdiyi töhfələrlə, kəşflərlə, kimi də və s., və s. gərəkli işləri ilə. Hamısı da istedaddan, uca olmadan, ucalıqda dayanmadan irəli gəlir. Bizə belə gəlir, Azərbaycan musiqi sənətində də belə ucalıqda dayanan kifayət qədər ad sahibləri var. Onlardan biri də Nuriyyə Hüseynovadır.

Kitabın sonunda «Və sonda… Yeddi suala altı cavab» başlıqlı bir yazı var. Burada Nuriyə Hüseynovanın verilən sualları cavablandırması əksini tapır. O xüsusi olaraq vurğulayır ki, «sənətə gəldiyimə görə Tanrıya borcluyam. Çünki bu istedadı o mənə verib. Sonra ata-anama. Oxumağı mənə anam öyrədib… Sonra müəllimlərimə borcluyam» (səh.143). Bütün bunlar – həm yacıçımız R.Gənzəlinin dedikləri, həm müxtəlif müəlliflərin qənaətləri, həm də N.Hüseynovanın bu cavablandırması Azərbay-

can musiqisinə, mədəniyyətinə verilən qiymətdi. Ənənənin, mədəniyyətimizin, musiqimizin, məişətimizin dəyərləndirilməsidi. Bir növ qədirbilənlikdi. R.Gənzəli də bir yaradıcı kimi «Qəlbi asiman kimi» əsəri ilə həmin qədirbilənliyə sahib çıxır, onun yaşarılığına yardımçı olur. Bu özü yaradıcı fədakarlıqdı. İstedadlı bir yazıçının istedadlı bir müğənniyə qoyduğu abidədi.

# TİPİK ŞƏRAİTDƏ TİPİK XARAKTER YARATMAQ BACARIĞI

Rasim Gənzəli yaradıcılığında mühüm bir hissəni hekayələri təşkil edir. Hekayə bir forma kimi yaradıcı istedadını, nəyə qadirliyini nümayiş etdirmək üçün daha yaxşı ifadə formasıdır. Azərbaycan ədəbiyyatının klassiklərinin böyük bir hissəsi hekayələri ilə ədəbiyyatımızı rövnəqləndirmişlər. Onun inkişaf istiqamətinə yardımçı olmuşlar. Ümumiyyətlə, hekayə bir forma kimi həmişə çevikliyi, hadisələri özünəməxsus təqdimi ilə yaradıcı düşüncəsinə daha çox münasib olmuşdur. Ədəbiyyatşünas alimimiz prof.A.Hacıyev maraqlı olaraq vurğulayır: «Ən əski dövrlərdən hekayə geniş yayılan, həm nəzm, həm də nəsrlə yazılan janrlardan biri olmuş, onun ədəbi üsulları tez müəyyənləşmişdir. Çünki miladdan əvvəl ikinci əsrdə «Milet hekayələri» yaranmış, III-IV əsrlərdə «Kəlilə və Dimnə» şifahi hekayələr formasında yayılmışdır.

Avropalılar Şərq ədəbiyyatının ənənələrindən tez istifadə etmiş, «Kəlilə və Dimnə», «Min bir gecə» səpkisində olan əsərləri öyrənmiş, onları öz dillərinə çevirmişlər» (A.Hacıyev. Ədəbiyyatşünaslığın əsasları. Bakı, ADPU, 2005, səh. 291). Burada maraqlı olacaq bir sıra məqamlar var. Ən birincisi, hekayənin bir forma kimi ədəbi

üsullarının tez müəyyənləşməsi ilə bağlıdır. Bu müəyyənləşmənin tarixini bəlkə də daha qədimlərdə, yazıya qədərki epik düşüncədə, mif mətnlərində, əfsanə, rəvayət, nağıl, dastan nümunələrindəki təhkiyə tipində axtarmalıyıq. Düzdü, burada sırf hekayə düşüncəsini vurğulamaq çətindi. Ancaq inkişaf baxımından məsələyə yanaşdıqda belə bir mənzərənin mövcudluğu qaçılmazdı. Məhz orta əsrlərdəki epik ənənədə də bir hekayət, nağıl, dastan, əhvalat düşüncəsinin eyniyyəti kimi hal hökm sürmədədi. Ona görə professor A.Hacıyevin dediklərində aydınlaşmalı mətləblər kifayət qədərdi. Bir məqamı xüsusi olaraq vurğulayaq ki, klassik ədəbiyyatımızın görkəmli nümayəndəsi N.Gəncəvi öz əsərlərini poema, roman adı ilə yox, məhz dastan adı ilə vurğulayır. Məsələn, «köhnə dastanların qoca ustadı, öz hekayətinə belə başladı», «Dastani-Əhməd Hərami»də «bu dastanı bu gün bünyad edəlim, haqqın qüdrətlərin biz yad edəlim» (3, 19) İsanın «Mehri və Vəfa»sında «eşit imdi eşq yüzündən bir xəbər, edə bən bir dastan ki, mötəbər» (səh.40). «Kitabi-Dədə Qorqud»da, Qul Əlinin «Qisseyi-Yusif»ində, Ə.Təbrizinin «Mehr və Müştəri»sində, Ş.İ.Xətainin «Dəhnamə» və «Nəsihətnamə»sində, Fədainin «Bəxtiyarnamə»sində, Məhəmmədin «Şəhriyar»ında bu təhkiyənin yaradıcı düşüncəsində davamlılığını, yaşarlığını görürük. Ona görə də tipik şəraitdə tipik xarakterin yaranmasının spesifikasında məhz sənətkar düşüncəsinin ənənədən əlavə fərdi üsluba

meyllənən tərəfləri də var. Bu daha çox obrazlı düşüncəni, yazıçı fərdiyyətini əhatələyir. Təkrar N.Gəncəviyə qayıdırıq və onun poemalarının ümumi ruhunda, daxildə verilən əlavələrdə (hekayələr nəzərdə tutulur), eləcə də «Sirlər xəzinəsi» poemasındakı hekayətlərdə bu formanın doğurdan da çox erkən vaxtlardan inkişaf etdiyi görünür. Bu görünüş, qeyd etdiyimiz kimi, bir istiqamətdə klassik ədəbiyyat xəttində nəzərə çarpırsa, digər istiqamətdə şifahi ədəbiyyatın mif, nağıl, əfsanə, rəvayət tiplərində müəyyənləşir. Və son olaraq müasir düşüncədəki qəliblənmiş hekayə formasına gəlir. Bu formanın klassik nümunələri Azərbaycan ədəbiyyatının on doqquz və iyirminci yüzilliklərinin sənətkarlarının yaradıcılığında ortaya çıxır. C.Məmmədquluzadənin, Ə.Haqverdiyevin, M.S.Ordubadinin, S.S.Axundovun, R.Əfəndiyevin, A.Şaiqin, Y.V.Çəmənzəminlinin, İ.Şıxlının, İ.Hüseynovun, Y.Səmədoğlunun və başqalarının yaradıcılığında klassik nümunələrlə səciyyələnir. Bir növ böyük inkişafın, forma sabitləşməsinin faktı təsiri bağışlayır. Artıq müəyyənləşmiş prinsiplərlə ədəbi-nəzəri fikri əhatələyir.

Son dövr Azərbaycan ədəbiyyatında da hekayə bir forma kimi zənginliklə, yazıçı düşüncəsinin ifadə faktları ilə daha əhəmiyyətli yer tutur. Çünki müasir ədəbi proses, ictimai-siyasi mühitin ümumi mənzərəsi geniş və əhatəli təsvirləri, irihəcmli əsərlərin aparıcı mövqeyə çıxmasını elə də qəbul etmir. Düzdü, bu tip əsərlər də yaranır.

Ancaq müasir oxucu (çoxluq nəzərdə tutulur) irihəcmli əsərlərə elə də meylli görünmür. Bir növ onların oxucu imkanı daha çox çevik və həm də yığcam formalara meyllənir. Müasir publisistikanın aparıcı mövqedə görünüşü bunun bariz nümunəsidir. İyirminci yüzilliyin əvvəllərində klassiklərin hekayəyə, felyotona bir forma kimi meyllənməsi məhz təsadüfi olmamışdı. İctimai-siyasi mühitin ağırlığı, proseslərin sürətli gedişləri bu gün də həmin halı zəruri etmişdi. Rus ədibi L.N.Tolstoy «əgər xalq jurnalı həqiqi xalq jurnalı olmaq istəyirsə, o, aydın və anlaşıqlı olmağa çalışmalıdır…Buna nail olmaq isə çətin deyildir. Bütün məqalələri dalandarların, faytonçuların və ev arvadlarının senzurasından keçirmək kifayətdir. Əgər bu oxucular bir sözdə də «anlamadım» deyə dayanmırsa, məqalə gözəldir. Əgər bu adamların biri oxuduğunu danışa, söyləyə btlmirsə, məqalə heç nəyə yaramaz» (M.Cəlal, F.Hüseynov. XX əsr Aəzrbaycan ədəbiyyatı. Bakı, Maarif, 1982, s.76). Bu, bütünlükdə ədəbiyyatın faktıdır və belə bir keyfiyyətə yüklənə bilmə yazıçının xoşbəxtliyidi. Klassiklərimizin hekayə yaradıcılığı məhz bütünlükdə bu düşüncəyə hesablanıbdı. Onu da əlavə edək ki, bədiilik fikir meydanı açmaq, düşüncə nümayiş etdirməkdən çox, onu sadəliklə, aydınlıqla, nə dediyini daha artıq mənimsəyib yazıya gətirə bilmə ilə qazanır. R.Gənzəlinin yaradıcılığı, xüsusilə hekayələri məhz bu keyfiyyətləri ilə maraq doğurur. Biz hekayələrindən danı-

şırıq və məqsədimizdə də onun zəngin yaradıcılığındakı mühüm bir hissəni təşkil edən hekayələrini təhlil etmək dayanır. Etiraf edək ki, R.Gənzəlinin publisistikası, povestləri («Qanlı çay», «Bəyaz gecələr», «Həsrət», «Qaranlıq gündüzlər»), romanları («Qara sevda», «Qiyamət qopanda», «Qurdbəşər»), eləcə də bioqrafik səciyyəli əsərləri («Qalib gələn adam», «Qəlbi asiman kimi») uzun və zəngin yaradıcılıq yolu keçməsindən xəbər verir. Buraya onun heç kəslə və heç nəylə müqayisə olunmayacaq əzmkarlığını da əlavə etmək lazımdı. Onun əsərləri həyatla üz-üzə durmaq, gözəlliklərini duymaq, anlamaq anlamında böyük ideallıqlara köklənmədən qaynaqlanır və qidasını da məhz oradan alır. Bu mənada həyat, dünya sevgisi timsalında R.Gənzəli bir örnəkdi, nümunədi. Bizim məqsədimiz isə həm əzmkarlıq, həm də düşüncə timsalında R.Gənzəli yarpadıcılığındakı bədiilik keyfiyyətlərini açmaq, təkrarən ədəbi ictimaiyyətlə bölüşməkdi. AMEA-nın müxbir üzvü Ə.Səfərli R.Gənzəli haqqında danışarkən bir məqamı xüsusi olaraq vurğulayır: «Rasimin taleyi «Polad necə bərkidi» romanının müəllifi Ostrovskinin taleyinə necə də bənzəməkdədir?! Rasim də yaşamaq eşqi, yaradıcılıq iradəsi baxımından polad iradəli bir insandır. Zəif, çəlimsiz, şikəst vücudu dözüm, mətanət təcəssümüdür, yazıb-yaratmaq, arayıb-axtarmaq həvəsi allah vergisidir, ilahi qüdrətin bəxş etdiyi nadir bir möcüzə və sehrdir» (Qanlı çay», Bakı, Gənclik, 1999, səh.5). Bir tə-

rəfdən alan allah bir tərəfdən də verir deyirlər. Tanrı aldıqları əvəzində R.Gənzəliyə bü cür böyük əzmkarlıq və yaradıcı güc veribdi. Onun kitabları, sadaladığım əsərləri Azərbaycan ədəbiyyatı üçün örnəkdi. Bir məsələni də əlavə edim ki, təkcə Azərbaycan deyil bütünlükdə türk xalqları, dünya ədəbiyyatı üçün örnəkdi. Bizlər sahibsizlik, kimsəsizlik ucbatından onu böyük sferaya çıxara bilmirik. Onu da deyim ki, həmin əzmkarlıq bütün tərəfləri ilə R.Gənzəlinin yaradıcılığında görünür. Orijinal düşüncə, həyat hadisələrinə orijinal münasibət bütün yazılarında bir xətt kimi izlənir. Bu əsərlərinin ideya istiqamətlərində, təsvir və yanaşmalarında tam aydınlığı ilə nəzərə çarpır. Hekayələri həmin özünəməxsusluqları açmaq üçün kifayət qədər imkan verir. Yazıçımız özü haqqında qeydlərində xüsusi olaraq vurğulayır ki, «düzdü, əvvəllər yazdıqlarımı bəyənmirdim, bir ayda yazdıqlarımı bir saatda cırıb atırdım. Sonra isə yazdıqlarımı bəyəndim və üzə çıxarmağa başladım. «Ağrı» adlı ilk hekayəm. «Araz» almanaxında dərc olundu» («Qaranlıq gündüzlər». Bakı, Vektor, 2005, səh.7-8). Bu yazıya qədər müəllifin qeydlərindən aydın görünür ki, böyük yaradıcılıq yolu keçmişdi. Yaradıcılığın necə ağrılı-əzablı bir yol olduğunu özü üçün dəqiqləşdirmişdi. Və böyük istedadla həmin yola çıxmışdı. İstedadlı və əvəzsiz şairimiz Ağamalı Sadiq «bu yolun yoxuşu fil dizi bükün» söyləyirdi. Elə R.Gənzəli də bu yoxuşun əzabını dərk edib tanrının verdiyi istedada güvənmişdi.

«Ağrı» hekayəsi onun istedadının nümayişi idi. Böyük yola təsadüfi, əliboş çıxmadığını göstərirdi. Müəllif üçün xarakterik cəhətlərdən birisi yazacağı əsərə bütünlükdə hiss və duyğularını əks etdirəcək adı seçə bilməsindədi. Burada «Ağrı» bir termin kimi bəlkə də müstəqilliyimizdən sonra daha çox nəzərə çarpan cəmiyyətimizin ağrısının ifadəsi səciyyəsi daşıyır. Bunu mən bəlkə ilə dedim. Ancaq həqiqətdə belədir və əsərdə də bu cür görünür. Çünki sovetlər imperiyasının dağılması özü ilə bağlı sonsuz dərəcədə problemləri də qoydu. Mənim üçün Azərbaycanın müstəqilliyindən, müstəqil dövlət olmadan böyük heç nə yoxdu. Xalqımız bu yolda nələrdən keçməyibdi. Neçə-neçə qəhrəman, sinəsi mənlik, millilik hissi ilə dolu olan oğullar, qızlar bu yolda hər çətinliyə gediblər, ürəklərində açıq və gizli bu hissi yaşadıblar. Bu günü görmək arzusu ilə nələrdən keçməyiblər? Ancaq imperiyanın amansızlıqları, düşmənin güclü qəzəbi buna imkan verməyibdi. Sovetlər imperiyasının dağılması Azərbaycana azadlıq gətirdi. Bu azadlıq üçün də xalqımsız ölümlərdən keçdi. Onun kifayət qədər nümunəsi var. Bunlar azadlığın qanıdı. Ancaq ondan sonrakı çağda və bu gün də hələ sonuclanmayan hərc-mərclik hökm sürmədədi. R.Gənzəlinin yaradıcılığında da ağrıya çevrilən həmin hərc-mərclik faktlarından birisi, Mətin Dağabənzərin quruluş verdiyi Xəyal Dalğalının pyesidir. Müəllif dediyimiz kimi, bu mövzunu kənardan gətirmir, özünün təfəkkürünün məhsulu kimi vermir.

Belə tamaşalar, əsərlər müasir ədəbiyyatımızda, son dövr ədəbi prosesdə kifayət qədərdi. O qədər gərəksiz, heç nəyə yaramayan, ədəbiyyat xatirinə ədəbiyyat kimi yaranan əsərlər var. Bu son dövr ədəbi prosesimizin ağrısıdı. R.Gənzəli bunu bir fakt deyil, böyük ümumiləşdirmə timsalında təqdim edir. Və cəsarət göstərərək bu problemi gördüyü, yaşadığı üçün barışa bilmir. Elə ilk hekayəsinin də mövzusuna çevirir. Son dövr mühitimizin tipik şəraitini təqdim edir. Çünki son dövrlərdə böyük-böyük vəzifə sahibləri, Azərbaycanın puluna, varına, vəzifəsinə, hətta havasına belə sahib kəsilənlər ədəbiyyatına da iddialıdırlar. Şair, yazıçı, alim olmaq iddiası ilə çıxış edirlər, adlarına kitablar yazdırırlar, kərpic boyda kitablarla ədəbi mühitə, bütünlükdə xalqa özlərini təqdim edirlər. Yazıçı çox doğru olaraq maraqlı ümumiləşdirmələrlə vurğulayır: «Məsələ burasında idi ki, onun sürprizinin nədən ibarət olduğu mənə gün kimi aydın idi. Əyalət teatrında gənc dramaturq Xəyal Dalğalının yeni pyesi tamaşaya qoyulmuşdu. Özü də ali təhsilli - ancaq rejissorluq bacarığı sıfr olan Mətin Dağabənzər tərəfindən. Şübhəsiz, Gülsurənin sürprizi həmin pyesin ilk tamaşası olacaqdı» («Qanlı çay» səh. 137). Burada kifayət qədər fəal yazıçı mövqeyi var. Həmin mövqedə biz müasir cəmiyyətin çatışmamazlıqlarına fəal münasibəti görürük. Bu çatışmamazlıqlar ictimai həyatın bütün sahələrinə nüfuz edir. Əgər belə olmasaydı tamaşaya münasib bir əsər qoyulardı və yaxud da

münasib bir əsər təsadüfi adama deyil, kifayət qədər bacarığı, qabiliyyəti olana regissora tapşırılardı. Belə hadisələr müasir cəmiyyətimizin qüsurlarıdı. Bunları hamımız da yaşamadayıq. Və son dövr ictimai-mədəni həyatda bu çatışmamazlıqlar bütün tərəfləri ilə bütün sahələrdə görünmədədi. Elə yeri gəlmişkən qeyd edim ki, təxminən bir neçə il əvvəl nüfuzlu bir vəzifə sahibinin əsəri tamaşaya qoyulurdu. Yaxın həmkarlarımdan biri mənə həmin tamaşaya baxmaq üçün birgə getməyi təklif etdi. Razılaşdım. Tamaşaya baxanda eyni düşüncəni, R.Gənzəlinin «Ağrı»sındakı vəziyyəti yaşadım. Təəssüfləndim ki, Azərbaycan ədəbiyyatında səhnə əsərlərinin klassik nümunələri var. Təəssüf ki, onlardan biri yox, məhz bu  kimi qüsurlu əsərlər camaata səhnə əsəri kimi təqdim olunur. Və sonra da müzakirələr başlayır ki, tamaşaya gedən yoxdu. Ancaq bilmək lazımdı ki, oxucu, tamaşaçı hər şeyi çox yaxşı bilir. Sadəcə olaraq bu tip tamaşaların xalqa sırınması onların tamaşaya gedən yoluna sərhəd çəkir. Burada maraqlı olacaq bir məqam da var. Bu məhz cəmiyyət içində qətiyyət nümayiş etdirə bilənlərin olması ilə bağlıdı. «Tamaşa haqqında qeydlərimi yazıb rayon qəzeti redaksiyasına yollandım. Lakin redaktor mənə qəti etirazını bildirdi.

Mümkün olan iş deyil – dedi. – Tərif nə qədər yazırsan yaz, dərc edərik. Tənqidə bizdə yer yoxdur. Dinc başımızı cəncələ salma…

İşdən bir günlük icazə alıb Bakıya getdim. Qeydlərimi mötəbər bir qəzetə təqdim edib geri qayıtdım.

Yazım qəzetdə dərc olunan günü rayona möhkəm səs saldı» (səh.140-141). Burada epik qəhrəmanın fəal münasibəti ilə müəllif mövqeyi üst-üstə düşür. Və çox doğru olaraq «sonrakı tamaşa günləri maraq üçün teatra gedirdim. Tamaşanın əvvəlki əks-sədasından əsər-əlamət qalmamışdı» (səh. 140) qənaəti bütün mühitə aydınlıq gətirir. Burada bir istiqamətdə epik qəhrəmanın ayıqlığını və mühitə fəal münasibətini görürüksə, digər istiqamətdə cəmiyyətin etirazının bir başqa forması – həmin «tamaşa»dan sonra cəmiyyətin özünün cəzalandırma forması ilə qarşılaşırıq. Bu özlüyündə etirazın bir tipidi.

R.Gənzəlinin hekayələri lakonikliyi hadisələri dərk və təqdim prinsipi ilə seçilən hekayələrdi. Bunu onun bütün hekayə nümunələrində görürük. Məsələn «Bir əlçim işıq»da ictimai mühitin tamamilə bir başqa tərəfi, harda olursan ol, obyektivliyi qoruya bilmək, həqiqətə sədaqət göstərmək, söz sahibi olma problemi qabardılır. Çünki belə olmayanda Xəyal Dənizin obrazı hekayənin mövzusuna çevrilməzdi. Bu təkcə bir fərdin başına gələnlər timsalında özünü göstərmir, müəllif ümumiləşdirməsində tipik mənzərəni, ədəbi gəncliyin, ədəbiyyata yenicə qədəm qoyanların hansı əzablardan keçdiyini təsdiqləyir. Bir də qayıdırıq müasir ədəbi mühitə, çünki mühitin mənzərəsi bunu tələb edir. R.Gənzəlinin

hekayəsi də məhz mühitin doğurduğu problemlərdən yaranmışdı. Burada bir istiqamətdə layiq oldu-olmadı baş alıb gedən mədhiyyəçilikdən söhbət açılırsa, digər istiqamətdə ədəbiyyatdakı qısqanclıqdan, ədəbi gəncliyə olan soyuq münasibətdən danışılır. Hekayədə təsvir edilən «Xəyal Dəniz məşhur yazıçı olmaqdan başqa, həm də gözəl insan, həm də gənc yazarların mənəvi atasıdır» (səh.148). Azər Qədirli gənc yazar kimi yazdıqlarına həqiqi, obyektiv münasibəti bilmək istəyir. Bu ədəbiyyata qədəm qoyan bütün gənclik üçün xarakterikdi. Azər Qədirlinin böyük ümid hissi ilə Xəyal Dənizin yanına getməsi və müqabilində «gedin yazılarınızı oxuyub rəy verərəm. Ancaq unutmayın ki, yazılara kəskin, tənqidi rəy də verə bilərəm» deməsi artıq qırılan ümidin başlanğıcıdı. Burada ikinci bir epizod da var. Və hadisələr bu hissədə bütün tərəfləri ilə cəmiyyətin çılpaqlıqları, müəyyən iş sahiblərinin bir qədər məsuliyyətsizliyi timsalında görünür. «Xəyal Dənizin hekayəsini bir dəfəyə həzm edə bilmirdim. Dedim, yəqin kişi fəlsəfi yazıb, mən girən kol deyil və ikinci dəfə oxumayıb aparıb makinada yazdırdım. İmza yerinə öz adımı qoydum. Sabahısı gün səhərin gözü açılmamış «Sarı bülbül»ü qoltuğuma vurub jurnal redaksiyalarından birinə yollandım. Yaxşı ki, redaktor yerində idi, məni görən kimi üz-gözünü turşutdu.

-Yazırsan?

-Bəli.

-Nə gətirmisən?

-Hekayə.

-Yaxşı ki, roman gətirməmisən...» (səh.150). Artıq burada bir təfsilat var və münasibət aydın görünür. «Sarı bülbül» Xəyal Dənizin hekayəsidi, onun qələmindən çıxmışdı. Lakin Azər Qədirli cəmiyyətdəki qüsurları görür və bu qüsurların yaradıcı mühitdlə də baş alıb getdiyini müəyənləşdirmək məqsədilə belə bir addımı atır. Maraqlıdı ki, «Sarı bülbül» Azər Qədirlinin adına olanda tənqid edilir, qüsurlu bir hekayə kimi qiymətləndirilir. Ancaq Xəyal Dənizin adı ilə təqdim ediləndə tariflər yağdırılır, uğurlu əsər kimi haqqında rəylər çap olunur. Bax budur cəmiyyətin qüsurları, həqiqəti deyə bilməmək bəlası. R.Gənzəli bir yaradıcı kimi bunları həyatın özündən götütür və onu təkrarən mövzuya çevirərək ədəbi ictimaiyyətə qaytarır. Həm «Ağrı», həm də «Bir əlçim işıq» təsvir və təqdim faktı etibarilə yaxındır. Təxminən eyni düşüncəni sərgiləyir.

R.Gənzəli yaradıcılığı üçün xarakterik xüsusiyyətlərdən birisi psixologizm məqamlarının zənginliyi ilə bağlıdır. Bu onun hekayələrində bütün incəliklərinə qədər görünür. Ümumiyyətlə, «hekayə formadır, quruluşu sadə, nağıla bənzərdir. Bu janrda cəmiyyət, ictimai-siyasi münasibət və fəaliyyət haqqında canlı və təsirli məlumat verilir, təsəvvür oyadılır...Müəyyən bir əhvalat hekayədə təfərrüatı ilə təsvir olunmur. Süjeti səciyyəvi bir hadisə, təsirli bir əhvalat hərəkətə gətirir. Burada surətlərin sayı az olur. Ob-

razların həyatından bir hadisə, bir əhvalat götürülür, bu isə onların bütün həyatı, ictimai-siyasi fəaliyyəti haqqında təsəvvür oyadır; surətlər fərdiləşir, dünyagörüşləri açılır, xarakter səciyyəsinə qaldırılır. Gerçəklik bəzən realist, bəzən romantik boyalarla ifadə olunur, bəzən də romantik təsvirlə realist təsvir çarpazlaşır, hisslər və ehtiraslar toqquşur, ideya müdaxiləsiz süjetin inkişafında, təbii hərəkət və münasibətlərdə açılır» (A.Hacıyev. Ədəbiyyatşünaslığın əsasları. Bakı, ADPU, 2005, səh. 294). Doğurdan da, burada hekayənin bir forma olması haqqında nəzəri prinsiplər ümumiləşir. Sadəliyi və nağıla bənzərliyi vurğulanır. Ümumiyyətlə, sadəlik bədii düşüncədə yaradıcı üçün olmazın dərəcədə əhəmiyyətli keyfiyyətdir. Bir növ yazıçının xəlqiliyinə hesablanır. Xəlqilik isə böyük sənətin ən böyük keyfiyyəti kimi həmişə uca tutulmuşdur. Məhz nağıl da elə şifahi xalq yaradıcılığı düşüncəsindən keçib gələn və uzun bir inkişaf yolu keçən bir formadır. Burada da nağıl elementləri, onun təhkiyyəsi, struktur komponentləri, nə varsa hamısı məhz xəlqi düşüncədən keçərək yaşarılıq qazanır. R.Gənzəli yaradıcılığında bu bütün tərəfləri ilə araşdırma zərurətində görünən məsələdir. Burada süjetin fərdiləşməsindən, xarakterin açılmasına, dünyagörüşün müəyyənləşməsinə qədər böyük bir hadisə qalareyası var. Ədəbiyyatşünas alimimiz Mir Cəlal xüsusi olaraq vurğulayırdı ki, «xarakterik bir hadisə, yığcam bir süjet, ümumiləşdirici bir mətləb

müxtəsər, şirin, sadə söyləmə, nəqletmə üsulu hekayədə əsasdır». R.Gənzəli hekayələrində də nəqletmənin özünəməxsus rəngarəngliyi ilə qarşılaşırıq. Bu onun psixoloji vəziyyətlərdə qəhrəmanın xarakterini açmaq, onun tipikliyini ortaya qoymaq istəyi ilə birləşir. Məhz psixoloji vəziyyətlərin ifadəsi və yaşantısı, həyat hadisələrin təsviri xüsusiyyəti ilə hər dəfə müəllif yeni ampulada görünür. Bu mənada o, klassik hekayə ustadları C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Ü.Hacıbəyov, S.S.Axundov, A.Şaiq və başqaları ilə birləşir və bir növ böyük ənənənin davamçısı kimi uğurlu təsir bağışlayır. «Dəli Toğrul» hekayəsi həyatın tipik bir tərəfini, ziddiyyətlərlə dolu olan məqamını ifadə etmək baxımından daha xarakterikdi. Ona görə də bu hekayəni Azərbaycan ədəbiyyatının klassik hekayə nümunələri sırasında təqdim etmək ən uğurlu addımdı. Digər əsərlərində olduğu kimi R.Gənzəlinin bu hekayəsində də hadisələrin təsvirinin maraqlı başlanma spesifikası var. «Qəribəydi, lap möcüzəydi vallah. Toğrul kişinin, Toğrul İmanoviçin birdənbirə şəhəri, əzizlərini, vəzifə stolunu atıb ucqar bir meşəyə çəkilib tək-tənha yaşaması» (səh.161). Bəli, olduqca maraqlı, həm də oxucunu narahatçılıqda saxlayan başlanğıcdı. Yəni bütünlükdə ictiami-siyasi mühitdə, eləcə də ədəbi düşüncədə axının kənddən şəhərə doğru olduğu var. Belə olduğu halda hansı səbəbdən Dəli Toğrul bütün olanları atıb kəndə yollanır, orada yaşamağa üstünlük verir. Müəllif onu Dəli Toğrul adı ilə

təqdim edir. Və onu da xüsusi vurğulayır ki, təkcə Toğrul özü bilirdi ki, ağlı başındadır. Müəllif dəlilik məqamında Toğrulun psixoloji vəziyyətini xarakterizə edir və insan xarakterinin dərinliklərinə bir növ işıq tutmağa çalışır. Yazıçı psixologizmi müəllifin aşağıdakı təsvirlərində kifayət qədər güclü, həm də düşündürücü görünür. Mətləbinin nə qədər ümumiləşdirici səciyyə daşıdığını sərgiləyir. «Qarışqa yuvasının ağzına gəldi. Rahat-rahat uzatdı, ayaqlarını çənəsinə söykəyib heyrətlə qarışqalara tamaşaya durdu. Gələn kim, gətirən kim – əlindən gələni edən bu canlılar necə də xoşbəxt görünürdülər. Toğrulun marağı birə-beş artdı. Bir qarışqa qıraqda dayanıb yazıq-yazıq baxırdı. Görmürdülər onu. Toğrula elə gəldi ki, o qarışqa tapşırılan işin öhdəsindən gələ bilməyib və onunçün öz gününə ağlayır. Tənqid, töhmət, cəza axırda da öz həmcinslərinin ölüm hökmü gözləyir onu. Baxtsız ölümü canlıya həmcinsi yazır, fələyin adı bədnam. Gördülər yazıq qarışqanı. Ona yaxınlaşdılar. Toğrulun ürəyi əsdi. «İşi bitdi yazığın». Bir azdan yerində dondu. Yazıq qarışqanı özündən də böyük qarışqalar çiyinlərinə alıb apardılar. Üz-gözündən öpə-öpə, oxşaya-oxşaya. Bir damla yaş süzüldü Toğrulun gözündən. Bütün cismi əsim-əsim əsdi ürəyi kimi» (səh. 161). İnsan düşüncəsi xarakter etibarilə müxtəlifliklərlə, həyat hadisələrinin mürəkkəbliklərinin görünüşü ilə təhlillərə yol açır. Burada da maraqlı olan, təəccüb doğuran Dəli Toğrulun qarşılaşdığı səhnədi. Hamımızın

düşüncəmizdə bir qarışqa zəhmətkeşliyi var. O da var ki, arılar da həmişə zəhmətkeşliyi ilə bütün insanlıq üçün nümunə olubdu. Və hətta xalq arasında «arı pisini boğur» məsəli də məhz zəhmətkeşlik timsalında işləklik qazanıbdı. Burada həmin motiv özünü bir daha göstərir. Yazıçı xüsusi olaraq vurğulayır ki, bütün qarışqalar işlədiyi, iş gördüyü halda bir qarışqa kənarda durur. Narahatlıq onun aqibətinin necə olacağındadı. Və hadisələr Dəli Toğrulun düşündüyü kimi olmur. Burada bizim yaddaşımızdakı qarışqa zəhmətkeşliyinə bir əlavə də olur. Bu da qarışqa mərhəməti, hansısa köməksizə, çətinlikdə olana qayğı hissinin görünüşüdü. R.Gənzəli məhz bu epizodla bir növ insan təbiətindəki mürəkkəbliyə, amansızlığa qarışqa timsalında nümunə göstərir.

Meşənin dərinliklərində qarşılaşdığı digər bir səhnə də var. Bu onun mələk qızlarla qarşılaşmasıdı. Hansı səbəbdənsə meşədə azmışlar. Toğrul onların himayəçisinə çevrilir və köməyinə gəlir. Bu qızlarla əvvəlki motivin, qarışqalarla qarşılaşmanın mahiyyətində dayanacaq bir yaxınlıq var. Üst qatda burada bəlkə də bağlantı görünmür. Ancaq diqqət yetirdikdə həmin bağlantı insan oğlunun həyata, həyat hadisələrinə münasibəti ilə müəyyənləşir. Burada diqqəti cəlb edəcək digər məsələ həmin qızlardan birinin (Mirandalina İvanovnanın) dedikləridi. Burada müəllif təhkiyyəsi insan xislətinin mürəkkkəbliyini bir şəxs timsalında təqdim edir. Əslində bu

tip hadisələr təkcə bir qızın Mirandalinanın başına gələnlər deyil. Belə aqibətlə çoxları qarşılaşır və bu gün də qarşılaşmadadır. Hekayədə, «mənə nağıl danış» istəyində məsələlər açılır. Burada qızcığazın taleyinin, nə qədər ağrılarla dolu bir həyat yaşadığının şahidi oluruq. Klassiklər öz əsərlərində insan xarakterindəki naqislikləri görüb bəzən həyəcan təbili çalmışlar. Ə.Yügnəkli «hanı, hara getdi insanlıq hayıf» deyirdi. Q.Təbrizi «insanlavr elə bil tikandılar, mən tikanlıqda çiçək axtarıram» söyləyirdi. N.Gəncəvi «insanda insanlıq itəndən bəri, itmiş insanlığın parlaq gövhəri» həyəcanını qoparırdı. Bunlar vardı və məhz klassiklərin yaradıcılığına təsadüfi də gəlmirdi. R.Gənzəli təqdimatının bir tərəfində məhz Mirandalinaya dəhşət və vəhşətlə baxanların obrazı canlanırsa, digər tərəfdə dəli adı ilə vurğulanan Dəli Domrulun insanlıq keyfiyyətləri, xeyirxahlığı dayanır. Qarışqaların bir-birinə köməkliyi timsalında müqayisəyə çevrilir. İnsan aləminin nə qədər rəngarəngliklərlə dolu olduğunu aydınlaşdırır. Burada ikinci bir hekayət də var. Bu Mandalinanın hekayətindən sonra başlayan Dəli Toğrulun danışdığı nağıldı. Əslində isə nağıl deyil. Sırf İmanoviçin taleyinə hesablanmış reallıqdı. Müəllif bu reallıqlarda insan psixologizminin spektrlərini müəyyənləşdirir. Bu bir ailə timsalında baş verir. «Yoldaş İmanoviçin vəzifəsi yüksəldikcə ləyaqəti alçalırdı. Bədbəxt günlərin birində İmanoviçi daha da böyütdülər. Beş kişidən biriydi indi. Arvadı dövlət maşınında gəzir-

di. Uşaqları beş addımlıq məktəbə dövlət maşınında gedirdilər. Kor olmuşdu İmanoviç, heç nəyi görmürdü. Kar olmuşdu İmanoviç, heç nəyi eşitmirdi. Gözləri açılanda, qulaqları eşidəndə artıq vicdan, namus, qeyrət karvanı öz köçünü sürüb getmişdi» (səh.165). Bu artıq İmanoviçin qarşılaşdığı həyatdı və burada tipik xarakter, tipik şərait və onun ümumiləşdirməsi var. Artıq Dəli Toğruldan İmanoviçə olan yolda həyat, onun mürəkkəbliyi, ibrət alma müxtəlifliklərli görünür. Qarışqa, Mandalina və Dəli Toğrulun taleyi, həyatı timsalında ümumiləşdirilir. Qarışqaya (hansı ki, naməlum səbəbə görə öz həmcinslərindən seçilir) ətrafındakılar sahib durur. Onu qayğı və mərhəmətliklə çiyinlərinə alıb aparırlar. Ən ağrısı müqayisələrdə Mandalina ilə, İmanoviçin düşdüyü aqibətdi. Burada, daha doğrusu hadisələrin gedişində Mandalinaya da sahib duran tapılır. Bu, Dəli Toğruldu. Cəmiyyətin dəhşətləri onun qürurunu sındırmağa çalışmışdı. Və bütünlükdə Dəli Toğrula qədər rastlaşdıqları onu həyatın çirkablarına doğru sürükləmişdi. Daxili qürür, təbiətindəki müsbət keyfiyyətlər onun bu dəhşətlərlə barışmasına imkan verməmişdi. Və son olaraq özünə lazım olanı axtarmışdı. Bu meşənin dərinliklərində qarşılaşdığı Dəli Toğruldu. Həmin qarşılaşmada (hadisə fərqliliyinə baxmayaraq) eyni taleni yaşayan Dəli Toğruldu. O da son olaraq Mandalina ilə qarşılaşmadan sonra yeni bir həyat sferasına da-

xil olur. Bu özlüyündə həyat mübarizəsidi. Yaşamın ibrət savaşıdı.

Hekayə bir forma kimi bütünlükdə hansısa insan həyatını əvvəldən axıra qədər izləmək, onu yazıya gətirib oxucuya təqdim etmək məqsədi daşımır. Burada həyatın tipik, epizodik səhnələri əksini tapır. Yaradıcı elə həyat hadisələrini mövzuya, yaradıcılıq faktına çevirməyə çalışır ki, onlar bütünlükdə tipikləşə bilsin. Bədii düşüncənin materialı kimi həyat hadisəsi timsalında marağa çevrilsin. Problem kimi cəmiyyətin diqqətini silkələyə bilsin. R.Gənzəlinin hekayələri bütünlükdə məhz bu düşüncəyə söykənir. Onun yaradıcılığının məzmununda ictimai-mədəni həyatımızın çatışmamazlıqları qabardılır və bir növ ibrət faktı kimi təhlilə cəlb edilir. Məsələn, «Qoca dəmirçi» hekayəsində zəhmətkeş insanın timsalında taleyin başına gətirdiyi iztirablar ümumiləşdirilir. Bu, atalar, oğullar timsalında çox xarakterikdi. Həm də təkcə bir dəmirçinin başına gələn hadisə olmaqla yekunlaşmır. Neçə-neçə dəmirçi timsalında olanlar eyni aqibəti yaşamışlar. R.Gənzəli bir yazıçı kimi bunları həyatında görmüş, ətrafındakıların söhbətində dönə-dönə eşitmiş və ağrılı hadisə kimi uzun müddət içində yaşatmışdı. Mən deyərdim ki, Rasim Gənzəlinin bir neçə hekayəsi var ki, son dövr ədəbiyyatımızın ən uğurlu hadisəsi kimi qiymətləndirilməyə layiqdi. Onlardan birisi də «Qoca dəmirçi» hekayəsidir. Burada yazıçı səriştəsi, ümumiləşdirmələr, psixoloji məqamlar yaratmaq bacarığı

birləşir, biri-digərini tamamlayır. Hekayə yollar, talelər anlamında maraqlı bir tərzdə başlayır: «Kişi yorğun nəzərlərini keçib gəldiyi kələ-kötür, ilan kimi qıvrılan dolayı yollarda gəzdirdi. Hamarı da vardı o yolların, dəvə beli kimi diki, yoxuşu da. Onun ömür yoluna bənzəyirdi bu yollar. O yollarda çətinə də düşmüşdü, dara da, bəzən büdrəmişdi o yollarda. Ancaq yıxılmamışdı. Ömrün ləyaqət deyilən zirvəsinə yüksəlmək üçün hamar yollara tələsmişdi… Və indi dayandığı uzaq ömür yolunun sonunda dayanmışdı» (səh.173). Burada bir ifadə xüsusi olaraq vurğulanır. Bu ləyaqət ifadəsidi. Qoca dəmirçi sözün həqiqi mənasında bütün çətinliklərdən keçərək ləyaqətli bir ömür yaşamışdı. Onun həyatı, gördüyü böyük işlər, ətrafındakıların münasibəti bunu aydınlıqla göstərir. Həmin ləyaqət halallıqla, çətinliklərlə dolu həyat yoludu, bir insan ömrünün görüntüsüdü. Mən də ucqar bir dağ kəndində dünyaya gəlmişəm. Həmişə yol getməyi, özü də piyada getməyi xoşlamışam. Burada dağlara qalxmaq da olub, düzənlik də, təpələr də, eniş enmək də. Nədənsə uzaq yollarda həmişə gəldiyim yollara baxmağım da olubdu. Özümdən aslı olmayaraq bu yollara baxanda müxtəlif hallar keçirmişəm. Daha çox isə pəjmürdə olmuşam. Bir qədər kövrək, ürək kövrəldən hisslər keçirmişəm. Səbəbini deyə bilmərəm, ancaq həmişə belə olubdu. Uşaqlığımda da, gəncliyimdə də, yaşımın əllini aşdığı vaxtda da eyni halı yaşamışam. Son olaraq bu yollarda öz taleyimi görm-

üşəm. Zəhmətlə, əziyyətlə keçirdiyim günlərə bənzəyibdi bu yollar. R.Gənzəlinin təsvirini verdiyi Qoca dəmirçisinin yolu isə halallıqla yoğrulub. Ancaq bu halallığa qənim kəsilən bir övlad naqisliyi var. Yazıçı onu belə təqdim edir: «Oğul danışdıqca ata ondan uzaqlaşırdı. Doğma oğlu olduğuna şübhə oyanırdı. Axı öz belindən gələn övladı niyə belə cılız yaranmışdı?! Məktəbmi günahkardır?! Yox! İctimaiyyətdən düzgün tərbiyə almayıbmı? Yenə yox! Övladın birinci tərbiyə ocağı ailədir. Atadır, anadır» (səh.176). Əlbəttə bunlar, bütün bu tip mülahizələr də məsələni tamlıqla, axıra qədər həll etmir. Heç şübhəsiz, bütün vəziyyətlərdə layiqli vətəndaş yetişdirmə məsəlsi birinci yerdə dayanır. Elə dəmirçi də bu düşüncə ilə uzun illəri yola vermişdi. Ancaq axırda görmüşdü ki, yox, məsələ elə də onun dediyi kimi deyildir. Oğlu tamamilə əksinə, alçaldıcı bir yoldadır. Məhz dünyagörmüş qoca dəmirçi bunları görüb özünün ölümünü və ondan sonrakı olacaq tədbirləri düşünür. Əsərdə oxuyuruq:

«- Xeyir ola Polad kişi?!

-Həmişə qulluq sahibi olasan, sənə işim düşüb.

-Buyur, eşidirəm səni.

Polad kişi qamətini şax tutub yorğun gözlərini otaqda gəzdirdi. Sonra əlinin içində üzünün yorğun tüklərini tumarladı.

-Orxan, gəlmişəm bir başdaşı düzəldəsən.

-Allah rəhmət eləsin. Qəbri nurla dolsun. Ölən kimdir?

-Mən.

Orxan əlindəki iş alətlərini mizin üstünə atıb heyrətlə kişinin üzünə baxdı.

-Kim dedin?

-Mən, Polad Dəmirçioğlu». (səh. 173). Burada bir bütöv, olduqca tipik olan ümumiləşdirmə var. Və son dərəcədə ağrılı, təəssüfləndirici həyat faktları ilə süslənmişdi. Burada eyni zamanda cavab tapılması müşkül olan suallar vardı. Ən sonuncusu Polad Dəmirçioğlunu buraya gətirən səbəbin müəyyənləşməsi ilə bağlı sualdı. Düşünəndə ki, Polad (qoca dəmirçi) hansı ağrılardan keçib gəlmişdi. Onda sıxılmaya, acımaya bilmirsən. R.Gənzəlinin də yazıçı gücü, qüdrəti məhz təkcə tipik hadisələri seçə, müəyyənləşdirə bilməsində deyil, eyni zamanda onun təqdimindədir. Burada diqqəti cəlb edəcək bir epizodik məqam da var. Orada deyilir: «Ürəyinin ağrısını kəsmək üçün doğma dəmirçixanasına yollandı. İlahi, o «zəhmət dünyasında hansı sehir vardı? Usta az da olsa sakitləşdi. İniltisi azaldı.

-Usta, başdaşıma doğulduğum tarixi yaz, ardını boş saxla, hansı ilini qismətimə düşsə yazarsan. Özün də başdaşımı qəbrimin üstünə qoyarsan. Həyatda heç kəsə möhtac olmamışam, bundan sonra da olmaram. Təkcə bir möhtaclığım var. O da başdaşımdandır» (səh. 177). Burada bütöv bir həyat, bütöv bir talenin ağrıları var. Hər şey bu iki epizodda, ustanın yanına gəlib başdaşı düzəltmə xahişi ilə, öləndən sonra hə-

min başdaşının qəbrin üstünə qoyulmasında cəmləşir. Burada bir ağrılı məqam anadan olma tariximi yaz, vəfat tariximi də hansı vaxta düşərsə yazarsan narahatlığıdı. Bu narahatlıq təkcə qoca dimirçinin deyil, cəmiyyətin özünün doğurduğu problemlərdi. Cəmiyyətdə mövcud olan övlad tərbiyəsi və hansısa naqislikdə görünən əzablarla bağlı hadisələrdi. Görkəmli və istedadlı şairimiz Aslan Kəmərli «oğlundan, qızından yarısa vətən, daşında gül bitər, qumunda çiçək» sözlərini təsadüfi demirdi. Məhz R.Gənzəlinin hekayələrində qoyulan problemin bir başqa, həm də olduqca uğurlu variantıdır. Polad Dəmirçioğlu bu qənaətə onu da təkrar qeyd edək ki, təsadüfi, gahdan gəlməmişdi. O, oğlunun həyatı, düşüncələri ilə tanış olduqdan, onun söhbətlərini dinlədikdən sonra öz taleyinə acımışdı. Son olaraq belə qənaətə gəlmişdi ki, daha güman gedəsi yer yoxdu. Şərəfli yaşadığı kimi, şərəfli də ölümünə tədbir görmüşdü. Öz həmkəndlisinə başdaşını düzəltdirib hazır qoymuşdu. Son dövrün olayları, müstəqillikdən sonra Azərbaycan mühitində baş verənlər R.Gənzəlinin bir yazıçı kimi həyat hadisələrinə biganə qalmadığını təsdiqləyir. Bu hekayə ilə R.Gənzəlinin Azərbaycan nəsrində yeri ucalıqdı. Çünki bizim son dövr ədəbi prosesdə boş-boşüuna vaxt itirən, kağız korlayan, qalın-qalın kitablar yazmaq həvəsində olan bir qrup yazıçılarımız peyda olubdu. Onlar ədəbiyyatı, kitabı həcminin böyüklüyündə, kərpic boyda olmasında görürlər. Və bunu özlərinə

şərəf işi hesab edirlər. Ancaq mənim qənaətimcə o qalın-qalın bəzəkli kitablara vaxt sərf edincə, oxucunun vaxtını oğurlayınca bir neçə səhifəlik hekayə ilə də böyük ada sahib durmaq, oxucu qəlbinə yol tapmaq olar. Son dövrün ədəbi prosesi göstərir ki, hələ kitab yazmaq, kitablar çap etdirmək ədəbiyyatda özünü təsdiqləmək deyildir. Ədəbiyyatda imzanın təsdiqi söz deyə bilmək, hadisələri ümumiləşdirmək qabiliyyətindən asılıdı. Necə ki, R.Gənzəlinin «Qoca dəmirçi» hekayəsi bizlərə həqiqi istedadın nə demək olduğunu nümayiş etdirir.

R.Gənzəlinin hekayələrində həyat və hadisə var. Bu hadisələr Azərbaycanımızın, bütünlükdə insanlığın problemlərinə hesablanmışdı. O səbəbdən də kifayət qədər təsirli və inandırıcı görünür. Burada təkcə yazıçı təhkiyəsi məsələni həll etmir. Eyni zamanda nəticə çıxarmaq, problemin özünün həll narahatçılığı var. Ona görə də Rasim Gəncəlinin hekayələri çevikliyi ilə seçilir, cəmiyyətimizin ağrılarını sağaltmaq yönlüdü. Bu istiqamətdə yazılan hər bir hekayə mükəmməliyi, zaman və məkan faktlarının bolluğu ilə oxucu diqqətini həmin problemlərə yönəldir. Məsələn, «Yumruq» hekayəsi türkün böyük ağrılarının ifadəsinə və həllinə yönəlikliyi ilə maraqlıdır. Bu da təsadüfi deyildir. Çünki tarix boyu türklər məkrli düşmənlər tərəfindən ziddiyyətlərə, qardaşın qardaşla savaşına, məkrlərə çəkilibdi. Bu gün də həmin hadisələr davam etmədədi. Ona görə də bu xofun qabardılması, türkün ayıqlığı

ədəbiyyatın bir istiqamət kimi problemində dayanır. Sovet imperiyası zamanında da, çar imperiyası zamanında da türkə yönəlikli ayrıca bir siyasət aparılırdı. Daxilən görünməyən, ancaq əslində çox məkrli olan bu addımlar respublikamızın torpaqlarının itkisinə, Zəngəzurun, İrəvanın, Borçalının, Göyçənin və son olaraq Qarabağın alınmasına hesablanmışdı. «Yumruq» bir istiqamətdə həmin birləşmənin düşüncə faktıdı. Hekayədə təsvir olunan Böyük Atanın can ağrıları türkün itirilən torpaqlarıdı, düşmən tərəfindən yağmalanan əraziləridi. Bu ərazilərin itirilmə qorxusu artdıqca Böyük Atanın da ağrıları olmazın dərəcədə çoxalır. Bu vətən ağrıları, torpaq ağrılarıdı. «Böyük Atanın bütün varlığı sızlayırdı... Canı ürək kimi döyünürdü və bu döyüntünün sonu nə olacaqdı heç özü də bilmirdi.

Ağrı bir qolunu iflic eləmişdi. Barmaqları açıla qalmışdı və qəribəydi ki, bütün canının ağrısını unudub qolunun dərdinə acıyırdı, yumulmayan barmaqlarına baxıb için-için ağlayırdı. Göz yaşlarının içindən uzaqlara baxırdı, ötənləri görürdü, canının ağrısı bir az da azalır, sonra yenə də şiddətlənirdi...

Vaxt vardı Böyük Ata can ağrısı bilməzdi. Qolunda şir gücü vardı, yumruğunun səsi uzaq-uzaq diyarlardan gəlirdi, düşmənin gözünü oyardı, torpağına gəc baxanın daşını daş üstə qoymazdı» (səh.211). Ancaq məkrli düşmən bu böyüklüyə zərbə vurmağın yolunu daxildəki ziddiyyətləri közərtməkdə, qalamaqda görürdü.

Çünki başqa yol mümkün də deyildi. Belə də oldu. Böyük ata həmin yuxunu bir gecə gördü. «Sonra xəbər gətirdilər:

-Qardaş qardaşına qılınc qaldırıb. Özünü itirmişdi Böyük Ata. Böyüklüyündən, dağ əzəmətindən işartı qalmışdı. Əlacı göylərdən axtarırdı. Əllərini ulu tanrıya uzadıb yalvarırdı: -Bizi qarğıma, Allah! Qardaşı qardaşdan ayırma!» (səh. 210). Bax budur dəhşətlisi, türkün görünən faciəsi. Yüz illərdi başlanan bu faciə sonuclanmır ki, sonuclanmır. Yazıçının sualları ilə məsələ bir daha açılmamış qalır. Ancaq onun yekunu isə bir yumruq olmadadı. Ona doğru getmək isə hələ ki, görünmür. Sadəcə olaraq, sözdən, işartılardan, cəhddən başqa bir nəticə vermir. Çünki arada yumruq olmağa qoymayan məkli işlək düşmən var. R.Gənzəlinin yaradıcılığında bu bir problem kimi həm publisistik yazılarında, həm hekayələrində, həm də daha iri həcmli əsərlərində – roman və povestlərində aydın şəkildə verilir. Daha doğrusu, bir problem kimi qaldırılır. Çünki bu problemlər təkcə Azərbaycanın, özbəyin, tatarın, Axıska türkünün, qırğızın, qazağın, türkmənin, uyğurun, başqırdın və bu sıradan başqalarının deyil, bütünlükdə türkündü. Onun başında böyük türk durur. Və hər şeyin sonuclanmasında bu türklüyün bərpası dayanır. Elə Araz həsrəti, Təbriz, Qarabağ, Göyçə, İrəvan, Zəngilan da bura bağlıdır. Biz təklikdə bunları axıra qədər həll etmək iqtidarında deyilik. Çünki qarşıda daha məkrli düşmən dayanıb. Onun hiy-

ləgər oyunları hələ deyəsən türkün sarsıdılması düşüncəsi ilə çox işləyəcəkdi. R.Gənzəlinin hekayələrində bu məkrin ifadəsini göstərən müxtəlif səpkili hekayələrlə rastlaşırıq. Onlardan biri də «Otuz yeddi» hekayəsidi. «Yumruq» kimi «Otuz yeddi» də özünün siyasi xarakteri, mövzu məndəricəsi, tematikası baxımından bir-birinə çox yaxındı. Burada da türkə, türkçülüyə qarşı yönəlmiş çox məkrli hadisələr özünün əksini tapır. Təkcə onu demək kifayətdir ki, Bakıda keçirilən birinci türkoloji qurultayın bütün iştirakçıları məhz otuz yeddinin qurbanına çevrilmişdi. Sovet imperiyası pantürkizm, panislamizm bayrağı altında bütün türk respublikalarına qarşı yürüşə başlamışdı. Bu repressiya bir istiqamətdə bütünlükdə türkçülüyə hesablanmış dəhşətli hücum idi. Ən ağrılı tərəfləri isə özünü Azərbaycanda göstərirdi. Çünki Azərbaycan on doqquzuncu yüz ilin axırı, iyirminci yüz ilin əvvəlində böyük-böyük istedadların toplaşdığı məkana çevrilmişdi. Güclü bir ziyalı mühiti formalaşmada idi. Bunun qarşısını isə kütləvi qırğınlarla, repressiya ilə almaq olardı. Daha doğrusu, bu xalqın düşüncəsinin, mənəvi dəyərlərinin məhvinə yönəlmiş müharibə idi. R.Gənzəli də həmin müharibəni məhz hekayəsinin mövzusuna çevirmişdi. Onu da əlavə edək ki, Azərbaycanda elə bir kənd, məhəllə, oba, nəsil olmaz ki, həmin hadisələrin əziyyətini çəkməsin, otuz yeddinin qurbanına çevrilməsin. Elə mənim nəslimin o dövrdə çəkdikləri bütünlükdə nəslin məhvinə yönəl-

miş hadisədir. Hekayədə vurğulanır: «Sel gəldi. Dağı-daşı, dərə-təpəni lərzəyə gətirdi. Çoban Məmişi götürdü, getdi. Nazı qarını aldı, getdi.

...Zəlzələ oldu. Köhlən atını dördnala çaparaq papaqçı Zeynalın evini dağıtdı.

Otuz yeddi gəldi...

...Atlılar Göydaşlının keçmişini yazan tarixçi Muradı qabaqlarına qatıb apardılar» (səh.257). Yazıçının dediyi kimi Göydaşlı tarixçisiz qaldı. Burada bir təəssüf, təəssübkeşlik hissi var. Bu yazıçı təhkiyyəsində, milli düşüncədən gələn ağrılarda tam aydınlığı ilə müşahidə olunur. Elə düşmənin istəyində də dayanan, uzaq zamana hesablanan Göydaşlını tarixçisiz qoymaq idi. Göydaşlının bənnası da, nəqqaşı da, alimi də eyni aqibəti yaşayırdılar. Bu bütünlükdə Göydaşlı timsalında Azərbaycana yönəlikli hadisə idi.

«-Sən də belə!? Dedim ki, az bina qur, bina quranın binəsini dağıdırlar.

Güldü. Dəli qəhqəhəylə güldü. Sonra öpdü üz-gözündən xalq düşməninin.

Qəribə, əcaib məxluqlar usta Cəfəri apardılar. Göydaşlı bənnasız qaldı, üç gecədən sonra nəqqaş Abdullanı, altı gecədən sonra alim Səmədi kənd yola saldı. Gedər-gəlməzə.

Yaz çiçəyi açılanda kəndə hay-küy düşdü ki, mama Fatmanisə xalq düşmənidi» (səh.258). Bütün bu hadisələrin mahiyyətində manqurtlaşdırma, gen yaddaşının məhvi dayanırdı. Elə hekayədə də bu aydın şəkildə görünür. Düşünə bi-

lənlərin, ağlı başında olanların aradan götürülməsi ilə yeni bir faciənin başlanğıcı qoyulur. Kəndin adının dəyişdirilib, Göydaşlının Manqurt qoyulması ilə bəlaların hansı niyyətə istiqamətləndiyi aydınlaşır. R.Gənzəli bu hadisələrdə repressiyadan sonrakı mənzərəni də təqdim etməyi unutmur. «Kəndin kolxoz sədri cır İsmayıl idi. Məktəbə cılız Qayibi direktor qoymuşdular. Yastı İbad, toyuq Aslan, cındır Heybət, qoyun Məsim də Manqurt kəndinin sayılan, əlində «peçat»ı olan vəzifəli adamlarından idilər» (səh. 259). Bütün bunlar Göydaşlıda otuz yeddinin faciəsindən sonrakı mənzərəni ifadə edir. Artıq tarixi Muraddan sonra tamam başqa bir tərzdə yazan vardı. Bu yazma isə tamammilə başqa idi. Reallıqdan uzaq manqurt düşüncəsinə hesablanmış məqsədli yazılmaydı. Yuxarıda verdiyimiz mətn - ad silsiləsi özündə bütün mətləblərə aydınlıq gətirir. Məhz belə mühitdə Göydaşlı adının dəyişdirilib Manqurt qoyulması elə də çətin görünmür. Burada etiraz haqqında düşünmək yersizdi. Çünki etiraz edəcək, tarixi faktları sadalayıb Göydaşlı adının kənd adı kimi yaşamasının gərəkliyini ortaya qoyacaq şəxslər repressiya olunmuşdu. Bu etirazın qarşısını kəsmək, məqsədi həyata keçirmək üçün sovet maşını repressiyanı aparmışdı. Bütün bunlar Göydaşlı timsalında Azərbaycanın faciələridir. Yazıçı R.Gəçnzəli bir problem kimi bunları kənardan, yaxud da öz təxəyyülündən gətirmir, sırf həyati hadisə kimi fakta çevirir. Və Azərbaycanın hansı fəlakətlər-

dən keçdiyini tam aydınlığı ilə bədii düşüncənin yaddaşına ötürür. «Təbriz yuxusu» da həmin silsilədən olan hekayələrdəndi. Sırf Azərbaycanın ağrılarına, ictimai-siyasi mühitinin doğurduğu gərginliklərə yönəlikli hekayədi. Çünki məmləkətimiz təkcə otuz yeddinci ilin repressiyasını yaşamayıb, həmişə uzanan düşmən əli onu daim parçalamaq, dağıtmaq yolunu tutubdu. «Yumruq», «Otuz yeddi» və s. hekayələr müxtəlif ağrıların ifadəsi kimi yazıçı düşüncəsini bura təhrik edibdi. «Təbriz yuxusu» da həmin silsilənin davamıdı. Bu ağrıların, fəlakətlərin tarixi isə hələ çox-çox qədimlərdən gəlir. Sadaladıqlarımız müxtəlif zaman kəsiklərində olanlardı. Təbriz məsələsi də dediyimiz kimi həmin problemlərdən biridi. Bu Azərbaycanın parçalanması, ikiyə bölünməsi ilə bağlı baş verənlərdi. Məlum olduğu kimi, Azərbaycan təxminən iki yüz il bundan əvvəl Rusiya ilə İranın maraqldarı müqabilində savaş meydanına çevrildi. Və bu izdivacda iki imperiya Azərbaycanımızı öz aralarında bölüşdürdü. Həmin hadisələrdə Araz həsrəti, Təbriz, Savalan, Ərdəbil ağrıları ədəbiyyatımızın, bütünlükdə ictimai, siyasi, mədəni düşüncəmizin faktına çevrildi. Ədəbiyyatımızda bir mövzu kimi silsilə əsərlər yaranmağa başladı. S.Vurğunun, O.Sarıvəllinin, S.Rüstəmin, M.Şəhriyarın, Səhəndin, B.Vahabzadənin, H.Arifin, M.Arazın və onlarla başqalarının yaradıcılığında Araz ağrıları boy atmağa başladı. Son olaylarda rus imperiyasının iflası ilə şimal müstəqilliyini qazandı. Növbə cənubundu.

Əminik ki, tarix həmin ağrını da sağaldacaq. «Təbriz yuxusu» da məhz bu dəhşətli olayların bir faktı kimi R.Gənzəli yaradıcılığında mövzuya çevrilir. «Qurdbəşər» bir roman kimi bu problemin bədii düşüncədə həlli faktıdı.

«Təbriz yuxusu»nda düşüncəni döyəcləyən bir məqam var. Bu bütünlükdə o taylı-bu taylı Azərbaycanımızın ağrılarına yüklənmiş ayrılığın sonuclanması hadisəsidi. «Ayrılığın üzü dönsün» təəssüratıdı. Uzun müddət həmin istək yuxularda çin olub, ədəbiyyatımızın göz yaşına, savaş və mübarizə mövzusuna çevrilibdi. R.Gənzəli də bir yazıçı kimi həmin olayları özünəməxsusluqla yazıçı manerasında sərgiləyir. «Qızın məlahətli səsi ətrafa yayıldı:

-Bakıdan Təbrizə gedən sərnişin qatarına minik başlanır. Hörmətli sərnişinlər, sizə Azərbaycanın paytaxtından mənalı istirahət, xoş günlər ar…zu…rıq…

Qızın səsi qırıldı, külək uzaqlara apardı və Xanlara elə gəldi ki, onun səsi qeybdən gəlir… Və əsası o idi ki, Xanlar artıq qatarda idi, qatar gedirdi, dəli at necə gedər, elə gedirdi, sərhəd demirdi, tikanlı məftil görmürdü, o yanda, bu yanda duran əli silahlı əsgərlərə də məhəl vermirdi, elə çalır, çapırdı. Xanlara da bu lazımdı. Sərnişinlərin elə hamısına… Bir az da çapsaydı Təbrizin özündəydi… Bir az da… Azca da…Odur görünür qoca Təbriz… Xanlar ayılıb gördü ki, tər yuyub aparır» (səh. 276). Burada yuxarıda dediyimiz kimi tipik ümumiləşdirmə və ümumi-

ləşdirməyə gətirən tipik şərait vardı. Çünki Araz ayrılmanın həyata keçirildiyi, baş verdiyi gündən yuxulara köçmüşdü. Özündən də bəlkə qat-qat böyük ağrıya çevrilmişdi. Çağlayan Araz elə bütün bir məmləkətin dərdini daşıyırdı. Sahilləri hikkəsi ilə döyəcləyirdi, Sərhədləri qırmaq üçün bəzən şahə qalxır, bəzən ağır düşüncələrə dalmış kimi məcrasında sakitləşirdi. Araz bir sözlə böyük bir məmləkətin dərdini daşıyırdı.

R.Gənzəlinin hekayələrinin hər birisi bitkinliyi, mühitin və cəmiyyətin ümumi mənzərəsini əks etdirmək anlamında olduqca dəyərlidir. Onun yaradıcılığında hekayə bir forma kimi həmişəyaşar və davamlı səciyyə daşıyır. Bu hekayələr ayrı-ayrı mətbuat orqanlarında nəşrdən, kitab halında çapa qədər inkişaflı görünür. «Qanlı çay» kitabında iyirmi dörd hekayə verilmişdisə, «Qaranlıq gündüzlər»də on altı hekayəsi özünə yer tapır. «Durnalar qayıdanda», «Nakam», «Qoca dəmirçi» hekayələrini Azərbaycan ədəbiyyatının klassik nümunələri kimi qiymətləndirmək olar. Burada bir istiqamətdə R.Gənzəlinin yaradıcı kimi hansı imkanlara malikliyi, zəngin düşüncədə olması görünürsə, digər istiqamətdə son dövr ədəbi mühitin nə qədər uğurlarla xarakterizə olunması ümidi yaranır. Müxtəlif yazılarımızda Azərbaycan nəsrinin, poeziyasının, dramaturgiyasının ümumilikdə və konkretliklə görünəcək uğurlarından danışmışıq. Bu yazımızda da nəsrin uğurları kontekstində R.Gənzəli hekayələrin spesifikasını təhlilə gəlirməyi düşünmüşük.

Çünki onun hekayələri əhatəli araşdırmalara, nəzəri mülahizələrə kifayət qədər imkan verir. Hətta bir məsələni də vurğulamağı lazım bilirik ki, R.Gənzəlinin hekayələri nəzəri konseptual araşdırmalar müstəvisində daha ciddi tədqiqatlara ehtiyac doğurur. Bu yaradıcılıq həm müəllif şəxsiyyətinin bütövlüyü, əzəmət mücəssəməsi, xarakter möhkəmliyi, həm də bədii düşüncənin açılma zərurəti ilə dünya müstəvisinə çıxmağa layiqdi. Biz yeri gələndə Gennesin kitabına qeyri-adiliklərlə düşməyi, Nobelin, kimlərin adına olan mükafatların təqdimi məsələlərini düşünürük. Ancaq təqdim etmə çətinliyi çəkirik. Əslində həmin mükafatlara kifayət qədər layiqli nümayəndələrimiz var. Fəaliyyət, dözüm və xarakter, yaradıcılıq nümunəsi anlamında R.Gənzəli bunlara çoxdan layiqdi. Elə «Qoca dəmirçi», «Durnalar qayıdanda» hekayələri tipikliyi, mənəvi tərbiyənin faktı kimi orta məktəb dərsliklərinə birmənalı olaraq düşməlidi. Ancaq son dövr ədəbiyyatda, təhsildə seçimin çətinləşdirilməsi, özü də süni şəkildə problem yaradılması vəziyyəti hökm sürür. Çünki dərsliklərin sifarişi də, dərsliklərə əsərlərin salınması da münasibətlə olur. Bu bizim son dövrlərdəki ağrılı yerimizdi. R.Gənzəli yaradıcılığı belə olmasaydı çoxdan orta məktəb dərsliklərinə salınardı. Heyf, çox heyf ki, hələ biz münasibətlər məsələsindən uzaqlaşa bilmirik. «Durnalar qayıdanda» hekayəsinin başlanğıcında deyilir:

«Unuda bilmirəm o günləri…

Anamın dünyadan gedən günlərini deyirəm…

Payızın ilkin çağlarıydı…

Küləklər hələ əsmirdi…

Yağışlar yağmırdı…

Birdən…

Anam, mənim gözəl anam xəstə idi. Mən də balaca, bapbalaca bir oğlan idim. Anamı heç belə görməmişdim; rəngsiz, ruhsuz, hərəkətsiz» («Qaranlıq gündüzlər». Bakı, Vektor, 2005, səh.126). Be hekayənin təsiri, kəsb etdiyi mahiyyət bəlkə də romanlara sığmayacaq böyük düşüncəni əhatələyir. Buraya Rasim Gənzəlinin bütünlükdə həyatını, həyat yolunu da əlavə etdikdə bu təsir daha da artır. Yazıçı həyatının əks olunması ilə bağlanma, onun bir hissəsinə çevrilmə əsərə olmazın güc vermişdir. Ana haqqında çox əsərlər yazılıb, bizim bayatılarımız, nəğmələrimiz, klassik sənətkarlarımızın ana haqqında yazdığı şeirlər, eləcə də bədii əsərlərimizdə yaradılan ana obrazı bütün tərəfləri ilə ananın ucalığını açmağa, bütünlükdə o ucalığa xidmət edir. Görkəmli şairimiz Hüseyn Arif «torpaqmı anasız qalmasın, - deyə, torpağın qoynuna köçür analar» söyləyirdi. Bu böyük hikmətdi, onun mahiyyətində ananın nə qədər ucalıqda olması dayanır. Bu ucalığı, olmazın qüdrəti, əvəzsiziyi istedadlı yazıçımız R.Gənzəli «Durnalar qayıdanda» hekayəsində bütün tərəfləri ilə verir.

R.Gənzəlinin hekayələri sanki bir sistem üzərində nizamlanıb. Burada həyatilik, ictimai,

siyasi, mədəni mühitin problemləri, bütünlükdə insanlığın mənəvi ehtiyacları yazıçının daxili-mənəvi aləminin sıxıntıları ilə eyni xətdə dayanır. «Nakam», «Düşmən qardaşlar», «Sonsuz ana», «Zəlzələ», «Yurda çəkən yuxular», «Yaxşılıq» və s. hamısı həyatın problemlərinin yazıçı təhkiyyəsində ümumiləşdirməsidir. Və həyatın özünün faktlarıdı, müəyyən hadisələrin ümumiləşdirilməsi səciyyəsi daşıyır. Burada böyük əxlaq, tərbiyə var. Bu mənada R.Gənzəlinin hekayələri həyatı dərk və nəticə çıxarma faktıdır. Prof.A.Hacıyev bu forma ilə bağlı düşüncələrini bölüşərkən bir məqama diqqət yetirir. «XX əsrin əvvəllərindən Şərqdə və Avropada hekayənin işləkliyi, varlığı və cəmiyyətin həyatını ifadə imkanları artmışdır. Azərbaycanda bu janr onlarla yazıçının yaradıcılığının ayrılmaz hissəsinə çevrilmişdir. C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli, M.İbrahimov, M.Cəlal, Ə.Məmmədxanlı və başqaları hekayə janrının ustası kimi tanınmışlar». ( A.Hacıyev. Ədəbiyyatşünaslığın əsasları. səh. 294). Bu siyahını bir qədər də artırmaq olardı. Həmin siyahı hekayə yaradıcılığında ənənəni, zənginləşməni ifadə edir. R.Gənzəli də bir yazıçı kimi bu zənginləşməyə özünün töhfələrini vermiş sənətkarlardandı. Bunu apardığımız təhlillər, onun zəngin yaradıcılığı bir daha aydınlıqla göstərir.

# R.GƏNZƏLİNİN POVESTLƏRİ - XARAKTERLƏR KOLLİZİYASI

İstedadlı yazıçı Rasim Gənzəlinin yaradıcılığında mühüm bir hissəni iri həcmli əsərləri - poeves və romanları tutur. Onun zəngin yaradıcılığı ilə bağlı təhlillər aparanda müxtəlif problem məsələlərlə əlaqədar povest və romanlarına da münasibətim olmuşdu. Az da olsa bədii dəyəri haqqında fikir söyləməyə çalışmışdım. Ancaq ayrıca olaraq problem kimi münasibət bildirməyi düşünməmişdim. Ayrı-ayrı kitabları ilə bağlı yazılan təhlil məqalələrdə də bu elə də ciddi problem kimi də qoyulmayıbdı. Sadəcə olaraq olsa-olsa resenziya xarakterli münasibətdən o yana getməyibdi. Ümumilikdə R.Gənzəlinin zəngin yaradıcılıqda povest və romanları ayrıca problem mövzu kimi təhlil obyektinə çevrilməyibdi. Onu da əlavə edək ki, ümumi kontekstdə yazılan yazılarda R.Gənzəlinin iri həcmli əsərlərinə bir təhlil faktı kimi çox dəqiqliklə nəzərə çarpacaq münasibətlər var. Bunlar yazıçının yaradıcılıq imkanlarını, həyat hadisələrini təsvir və təqdim bacarığını açmaq kimi ciddi nəzəri münasibətlərə hesablanır. Akademiyanın müxbir üzvü, prof. Ə.Səfərli məhz bu məsələlərə diqqət yetirərək yazır: «Böyüklü-kiçikli Rasimin hər bir əsəri öz bədii məndəricə və pafosu ilə çox səciyyəvidir, bir-birinin təkrarçılığından çox uzaqdır. Hər bir əsərin-

də doğma yurd və onun insanlarına yeni bir münasibətlə qarşılaşırıq ki, bu da gənc yazarın bədii yaradıcılıq uğurları kimi nəzərə çarpmaqdadır, bədii təfəkkürünün vüsətli diapazon dairəsindən xəbər verməkdədir. Rasimin «həqiqət yuxuları»nda böyük həyati, dünyəvi və insani həqiqətlər gizlənmişdir. Bu həqiqətlər Anabat və Gənzə kəndinin həqiqətləridir. Bu qədim, ulu kəndlərin gerçək varlığı, səmimi, sadə insanlarının könül gözəllikləri, sevinci, kədəri, arzu və dilləkləri həqiqət yuxularının beşiyidir. İncə, zərif söz incilərində onların ürəyi döyünür, acılı-şirinli keçmişi, burulğanlı çağdaş günləri, həyat eşqi, amalı, məslək və əqidəsi təcəssüm və ifadəsini tapmışdır. Rasimin qəhrəmanlarını kiçik məişət məsələləri ilə yanaşı, böyük ideallar da məşğul etməkdədir. Onların hər birinin öz yolu var, hər birisi əxlaqi-mənəvi xüsusiyyətlərinə görə fərqlənirlər» («Qanlı çay», səh. 7). Burada xüsusi dəqiqliyə hesablanmış münasibət və qiymətləndirmə var. Doğurdan da, yazıçının düşüncəsi, həyat hadisələrinə münasibəti kifayət qədər dəqiqliklə əksini tapır. Bu təhlildə xüsusi olaraq bir məsələ də vurğulanır ki, Rasim yaradıcılığında təkrarçılıq nəzərə çarpmır. Bütün obrazlar, hadisələr, mövzular həyatiliyi və fərqli-fərqi problemləri əks etdirmə məqsədi ilə maraq doğurur. Onun zəngin hekayələrini, publisistikasını, eləcə də povest və romanlarını xarakterik xüsusiyyət kimi izləyir. Çünki R.Gənzəli həyatı, həyat faktlarını seçməyi və təqdim etməyi bacarır. Onda mövzu

və təsvir problemi çətinliyi yoxdur. Hamısı yazıçının düşüncəsindən süzülərək obrazlaşır, mövzuya, fakta çevrilir. Digər istiqamətdə həyat hadisələri ilə onun əsərləri arasında bir körpü görünür. Yəni R.Gənzəli həyatdan kənarda mövzu axtarmır, əksinə hamısı onun yaşadığı, gündəlik gördüyü, qarşılaşdığı hadisələrdən, mühitdən gəlir. Ədəbiyyatşünas alimimiz Ə.Səfərlinin «bu həqiqətlər Anabat və Gənzə kəndinin həqiqətləridir» deməsi təsadüfi deyildir. Doğurdan da, R.Gənzəlinin yaradıcılığını izlədikdə və sistemli şəkildə yanaşdıqda bu tərəfləri ilə nəzərə çarpır. Hətta özlüyündə yaradıcılıq və təhlil faktı kimi bir sistem təsiri bağışlayır. Təkrar bir məsələni deyək ki, R.Gənzəlinin bütün əsərlərində həyat və həyat hadisələri var. Biz bu hadisələrin qaynarlığını, rəngarəngliyini bu nümunələrdə görürük. Ona görə də onun yaradıcılığı təbiiliyi, təsvirlərin inandırıcılığı, xalqdan gələn təsvir şirinliyinin təsirliliyi, dil zənginliyi ilə maraq doğurur. Məhz bu səbəbdən də onun bədii irsi müxtəlif istiqamətlərdə araşdırmalara ehtiyac doğurur. Çünki bunlar bir istiqamət kimi aktual təsir bağışlayır. Son dövr ədəbi-nəzəri fikirdə diqqəti cəçlb edən istiqamətlərdən biri yazıçı və folklor məsələsidi. R.Gənzəlinin yaradıcılığında xalq ədəbiyyatından gəlmə keyfiyyətlər, təsirlər kifayət qədərdi. Yazıçı ondan imkanı və bacarığı səviyyəsində istifadə etməklə əsərlərinə bir rövnəqlik, oxunaqlıq gətirmişdi. Dastanlarımızdan, nağıllarımızdan, əfsanə və rəvayətlərimizdən gəlmə

təsirlər və onun şirinliyi diqqəti cəlb edəndi. «Qanlı çay», «Bəyaz gecələr», «Həsrət», «Qaranlıq gündüzlər» povestləri məhz bu mənada çox gərəkli təsir bağışlayır. Bir növ gen yaddaşından gələn mənəvi dəyərləri aşkarlayır. M.Cəfər məhz bu məqamlara diqqət yetirərək xəlqiliyi xüsusi keyfiyyət kimi vurğulayırdı. Qeyd edirdi ki, «xəlqilik böyük sənətin ən böyük meyarıdır. Biz nəzəriyyədən, hər nə qədər intellektuallıqdan, realizmdən, psixologizmdən, bədii forma əlvanlığı və sairədən danışsaq da yenə də bu nəticəyə gəlib çıxırıq ki, şeirin ürəyi, xalqın ürəyi, şerin fəlsəfəsi xalqın həyat fəlsəfəsi, şeirin əxlaqı xalqın gözəl əxlaqi keyfiyyətləri, şeirin dili xalqın dili olmalıdır» (Məmməd Cəfər. Sənət yollarında. Bakı, Gənclik, 1975, səh.142). Poeziya anlamında deyilmiş bu fikirlər əslində bütün yaradıcılığa hesablanmışdır. Bizim fikrimizcə, nəsrdə də, dramaturgiyada da, poeziyada da sənətin xəlqiliyi eyni müstəvidədir. Sadəcə olaraq poeziyada və yaxud da nəsrdə bir qədər üzdə və alt qatda sezilə bilər. Ancaq bu da sənətkarın xalqın zəngin yaradıcılığından hansı səviyyədə istifadə edə bilmək qabiliyyəti ilə bağlı olandı. Daha doğrusu, sənətkar xalqın yaradıcılığından öz imkanı müqabilində hansı səviyyədə bəhrələnir məsələsidi. R.Gənzəlinin yaradıcılığında xalq düşüncəsi, onun zəngin çalarları bütün tərəfləri ilə müşahidə olunur. Ona bir növ rövnəqlik, yaradıcı keyfiyyəti gətirir. Ona görə də biz məhz R.Gənzəli yaradıcılığında xalq ədəbiyyatının tə-

sir faktlarını bir problem kimi qabartmağın gərəkliyini görürük. Təkrar vurğulayırıq bu istedad məsələsidir.

Rasim Gənzəli xarakterlər ustasıdır. Onun hekayələri, povestləri və romanları bir yazıçı kimi nə qədər güclü xarakter yaratma bacarığını tam tərəfləri ilə göstərir. Bizim müşahidələrimiz bu yazımızda povestləri müstəvisinə hesablanıbdı. Məlum olduğu kimi, «müasir dövrdə povest janrından daha çox istifadə olunur… Povestin ideya-estetik tutumu, bədii çərçivəsi romandan çox da fərqlənmir. Bu janrda hadisələr qurulur, sistemə salınır, süjet hadisədən-hadisəyə şaxələnir, obrazlar geniş təhlil olunur, onların görüşləri, həyəcanları, meyl və münasibətləri, şəxsiyyətlərini təyin edən keyfiyyətlər hərtərəfli göstərilir» (A.Hacıyev, Ədəbiyyatşünaslığın əsasları. Bakı, 1999, səh.295). Ədəbiyyatşünas alimimizin dediyi kimi, povestin təsvir və təqdim imkanları, hadisələrin mahiyyətə varma şəraiti kifayət qədərdi. Yazıçı burada imkanlıdı. Sadəcə olaraq məqsədin verdiyi imkanlar qədərində təsvirlər aparılır. Hadisələr şaxələnir və qəhrəmanın xarakter keyfiyyəti obarzların düşüncə, münasibət tipində açılır. Qəhrəman müəllifin fikirlərinin daşıyıcısı kimi bütün ağırlığı üzərinə götürür. R.Gənzəli povestləri rəngarəngliyi, həyat hadisələrinin aktuallığını ifadə etmə baxımından maraqlıdı. Burada yazıçının mövzu kimi seçdiyi məsələlər sırf həyatiliyə hesablanmışdı. «Qanlı çay», Bəyaz gecələr», «Həsrət», «Qaranlıq gündüzlər»

bunun tipik nümunəsidi. Elə mülahizələrimiz də məhz bu povestlərin ətrafındadır. Çünki burada müəllifin obraz yaratma, həyat hadisələrini bədii fakta çevirmə səriştəsi sırf hekayə düşüncəsindəkinin davamı kimi görünür. Lakin hekayə təhkiyəsi, onun hadisələri əks etdirmə imkanları povestdəkindən fərqlidi. Burada müəllifin imkanları, hadisələrin təfərrüatına varma bacarığı, xarakterin xüsusiyyətlərini hadisələrin gedişində təqdim etmə daha çox şəraitlidi. Hekayə məlum olduğu kimi, yığcamlığa konkretliyi, hardasa, hansısa tipik olanı bir qədər konkretliklə əks etdirməyə hesablanır. R.Gənzəlinin əsərlərində yaxşı cəhətlərdən birisi gen yaddaşından bu yana bütün olanları mövzuya çevirə bilmə, mövu seçmə bacarığıdı. Onun bütün əsərləri özlüyündə bir sistemin daxilinqdə görünür. Və bütünlükdə demək olar Azərbaycanımızı, onun ictimai, siyasi, tarixi, mədəni həyatını əks etdirməyə yönəliklidi. Ona görə də yazıçı bir yaradıcı kimi bu təsvirləri ilə qazanır və oxucuya yaxın görünür. Çünki onun təsvir və təqdim etdiyi mövzularla oxucunun hiss və düşüncələri arasında bir yaxınlıq var. Bu bəlkə də mənəvi ehtiyac yaxınlığından başlayaraq tarixi yaddaşa qədər özündə çox məsələləri ehtiva edir. Ona görə də R.Gənzəlinin əsərləri qazanır. Məsələn, «Qanlı çay» bir kənd timsalında görünsə də əslində belə deyildir. Burada bütünlüklə böyük bir tarixin ümumiləşdirilməsi, tarixi bir faciənin ifadəsi yaşanır. Bu özlüyündə zaman keçdikcə yaddaş faciəsinə çevrilir.

Çünki Azərbaycan xalqı həmin ağrıları el-el, nəsil-nəsil, oba-oba, kənd-kənd yaşamışdı. Bu təkcə Göydaşlının faciəsi, onlar üçün gəlmiş bəla deyildi. Bütünlükdə burada böyükdən-kiçiyə xalq təmsil olunurdu. Həmin ağrılarda Azərbaycan baş qaldırır. Məmləkətimizin hansı bəlalardan keçdiyi, üzbəüzə qaldığı fəlakətlər əksini tapır. Onu da qeyd edək ki, bu bəladan təkcə Azərbaycan deyil, türk məmləkəti ağrıyırdı. Burada Axıska türkləri, kırımtatarlar, qazaxlar, qırğızlar, türkmənlər, özbəklər və s. görünür. Hadisələrin reallıq faktı bunu deyir. R.Gənzəli də bunları bir elin başına gələnlər timsalında bədii düşüncəyə ötürür. Böyük şairimiz S.Vurğunun hər bir bədii nümunədə tarixin reallığı məsələsini vurğulaması təsadüfi deyildi. Məhz R.Gənzəli də bunları bir reallıq kimi öz bədii düşüncə faktı ilə gələcəyə ötürür. Məmləkətimizin nələrdən keçdiyini yaşam faktına çevirir. Əsər məhz oxucunu ilkin cümlələrdən narahatlığa, hadisələrin hansı tərzdə gedişi haqqında düşünməyə tələsdirir. Başlanğıcda oxuyuruq: «Özünə düşmən kəsilən, çıraqları söndürən Rəhbər tarixin özünü də heyrətə salmışdı və Məkan Zamanın bu gərdişinə için-için ağlayırdı.

-Bir çaya bax, qoca… su yerinə qan axır.

-Gözlərin səni aldatmasın, ay qarı. Deyəsən sayıqlayırsan.

Ədalət baba dikəlib oturdu. Əlini gözlərinin üstünə tutub çaya baxdı. Dəhşətdən rəngi qar kimi ağardı dünyagörmüş qocanın. Haqq

nənə düz deyirdi, çaydan qan axırdı» (səh. 13). Bu kiçik (sahdəcə olaraq həcm etibarilə kiçikdi) özündə böyük tarixi, ağrılarla dolu bir zamanı yaşadır. Keçən əsrin otuz yeddinci illərinin faciəsinin nə qədər ağır olduğunu ifadə edir. Burada böyük-böyük romanlara sığacaq bir yaddaş ağrısı var. Həmin ağrılarda xalqın yaşadığı faciənin ağırlığı bütün incəlikləri ilə görünür. Yazıçı yaddaşı, yazıçı təhkiyəsi məhz bununla özünün imkanlarını ortaya qoyur. Oxucu narahatçılığı, oxucunu özünə cəlb etmə məhz buradan başlayır. Burada digər bir epizod da var. Eyni düşüncəni, eyni mənzərəni əks etdirir. Daha doğrusu, o dövrdə bütünlükdə cəmiyyət arasında yaşanan qorxunu ifadə etmək səciyyəsi daşıyır .

«-Mizə Cəfər kişini də apardılar.

-Elə şey olmaz.

-Quran mənə qənim olsun…

-Vay sənin çırağın sönsün, qanın qanlara qovuşsun. Ziyalılar getdi, qaranlıqdan kim çıxaracaq biz biçarələri.

-Sus! Dər-divarın da qulağı var. Yurduna od vurarlar, qapına köpək bağlayarlar, gedər-gəlməzə göndərərlər» (səh. 13). Həm bir qədər əvvəldə, həm də indi verdiyimiz epizod bütünlükdə sovet dönəminin ən ağrılı faciəsini özündə ifadə edir. O dövr bizdən elə də uzaq zaman deyil. Həmin hadisələri yaşayanların yaddaşında bu bir qanlı-qadalı, qorxu ilə dolu tarix kimi qalmadadı. Ona görə də bu təsvirlərin həmin faktları özündə nə dərəcədə əks etdirə bil-

məsi, təsirediciliyi tam tərəfləri ilə görünəndi. Bəli, insanlar nəinki danışmağa, hətta səsi alınanların, günahsız yerə düşmən kimi qələmə verilənlərin ailələri ilə qarşılaşmağın əziyyətini çəkirdilər. Bütün cəmiyyət xof və qorxu altında idi. Ölüm kabusu bütünlükdə məmləkət boyu ev-ev gəzmədə idi. Elə Göydaşlı da həmin ağrıları yaşayanların bir faktı idi. Bu hadisələr birbaşa Azərbaycan timsalında Azərbaycanın genefondunun məhvinə hesablanmış hadisə idi. Və olunurdu da. Çünki nə qədər düşünə bilən, içində xalq, millət sevgisi yaşayan ziyalılarımız varsa hamısının üstündən qara rüzigar əsdirildi. R.Gənzəli  bir yazıçı kimi məhz bunları verir. Onu da əlavə edək ki, bu hadisələrin bir günahkarı kimi sovetlər imperiyası görünürsə və başında dayanırsa, digər tərəfində ona rəvac verənlər durur. Nə qədər ki, məmləkətimizdə Abdallar, Cahillər, Tufanlar olacaq məhz bu hadisələrin baş verəcəyindən heç kəs sığortalanmadığını söyləmək olar. Bu gün də belədir. İllah da cəmiyyətlərin ağır dönəmlərində bu tip adamların qorxusu dəhşət olur. Onlar bir növ marığa yatsmış olurlar. Və son olaraq qalxırlar. Haqlı olaraq da yazıçı onların obrazlarını çox doğru olaraq təqdim edir. «Kəndin aşağısında üç əcaib məxluq – Cin, Şeytan, İblis gülə-gülə meydana tələsirdi. Məmmədoğlu əvvəl diksindi, üzünü-gözünü ovxaladı. Kimdi bunlar? Onların bizim bayramda nə ölümü? Bəlkə iblislər padşahı göndərib? Yenə gözünü sildi… Tanıdı gələnləri – Abdaldı, Cahil-

di, Tufandı- kənd adamlarıydı. Niyə Mməmmədoğluna cin, şeytan, iblis görkəmində görünürdülər» (səh. 15). Bax sual budur və müəllif də bu sualı təsadüfi qoymur. Bu niyənin cavabı isə çox dərinlərdən gəlir. Çünki burada xalqın taleyinə yönəlmiş cin, şeytan, iblis xislətləri birləşir. Və cəmiyyətin ağır vaxtlarında da bu təhlükəli olanların fəallığı birə beş artır, bir növ onların dövranı gəlir və meydan sulamağa başlayır. Məmmədoğlu Göydaşlıda kəndin direktorudu. Hamını yaxşı tanıyır. Bu səbəbdən də o gələn təhlükəni hiss edir. İlk olaraq da cin, şeytan, iblis donunda olanlar onun gözünə görünür. Burada digər maraqlı məqam məhz həmin hadisələrin, görünüşlərin məhz xalqımızın ən əziz günündə - Novruz bayramında baş verməsidi. Yazıçının hadisələri Növruz mərasiminə çəkməsi təsadüfi səciyyə daşımır. Sovetlər dönəmi təkcə xalqımız, onun düşünən beyinləri əziyyət çəkmədi, həm də bütünlükdə mənəvi mədəniyyəti təqiblərin qurbanına çevrildi. Müxtəlif istiqamətlərdə transformasiyalar aparıldı. Baş verməsi mümkün olmayan məqamlarda isə qadağalar qoyuldu. Hətta həmin təqib olunanlar sırasında Növruz bayramı da vardı. Bu yaxın tarixdi. Onu orta nəsil yaxın zamanlara qədər yaxşı bilirdi. Azərbaycanın müstəqilliyi, müstəqil dövlətimizin yaranması bu sədləri demək olar ki, birmənalı olaraq aradan götürdü. Bütün olanlar milli düşüncəyə hesablandı. Bir növ xalqımızın tarixində yeni bir mərhələ başladı. Bu müstəqillik, yaddaşın bərpası mərhə-

ləsi idi. Keçən əsrin repressiya dövrü, qadağaları, eləcə də 50-ci illərin əvvəllərində mədəniyyət abidələrimizə qurulan məhkəmələr, təqiblər buna nümunədi. Möhtəşəm abidəmiz «Kitabi-Dədə-Qorqud»un yaşadığı aqibət də bura daxildir. Ona görə də müəllifin hadisələri Novruz bayramına çəkməsi və iblislərin, şeytanların, cinlərin həmin ərəfədə ayaq açması təsadüfi səciyyə daşımır. Və bu bütünlükdə əsər boyu da görünür.

«Qanlı çay»da ermənilərin iyirminci əsrin ilk onilliklərində torpaqlarımıza hücumu faktı da var. Heç şübhəsiz bu da təsadüfi deyildi. Çarizm zamanında Azərbaycanın ikiyə bölünməsi, rus və fars şovinizminin arasında parça-para edilməsi və sonrakı mərhələdə bu amansızlıqların müxtəlif səpkidə sovetlər imperiyası tərəfində gizli davamı düşünülmüş böyük siyasətin bir hissəsi idi. Müəllif məhz bu hadisələri «Qanlı çay»da verməklə bəlaların hələ xeyli əvvəldən gəldiyinə diqqəti yönəldir. Və onun kökünü açmağa, oxucunu daha dərin düşüncələrə aparmağa çalışır. Ağyurddan gələn xəbərlər, meydanda təkcə Qurbanın qalması, üç-dörd yerdən yaralanması, düşmənin onu qabağına qataraq aparması hamısı xalqın yaşanan ağrılarının ifadəsidi. Rasim Gənzəlinin yazıçı kimi yaradıcı gücü ondadır ki, o hadisələri əlaqələndirə, mənalandıra bilir. Yazıçı təxəyyülündə şərait yaradaraq fakta çevirir. Dəhşətli və ağrılı olan odur ki, düşmənə qarşı sipər olan Qurbanın arxada da təzəcə dünyaya gələn körpəsi ağrını yaşayır. Bu bir növ tale ağrısı

kimi görünür. Hansı tale ki, vətən sevgisinə biçilmişdi. Əsərdə oxuyuruq: «Əriklər bar verəndə Ağyurdun igid İsfəndiyarını da apardılar. Bal dadan meyvələr zəhər daddı. Yeyənlərin damağı əyildi. «Bu nədi, allah, zəhərə dönüb meyvələr». Yurd yaddaşını qurdaladı. Belə dəhşət, belə fəlakət görməmişdi.

Məmmədoğlu səhər çağı at üstündə mərkəzə buğda dalınca gedəndə əqrəb Firmanın cır səsini eşitmişdi.

-Döş vermə uşağa, Sabah… döşünü kəsərəm. Qoy ölsün köpəyoğlu, kulak balası.

-Gözüm görəsi necə öldürüm, ay zalım…

-Dedim ki, süd vermə, böyüyüb atası kimi xalq düşməni olacaq, kulak oğlu kulak.

Qurbanın görə bilmədiyi oğlunun acı fəryadıydı belə Ağyurdu başına götürmüşdü». (səh.30). Göründüyü kimi, bu epizodda həmin tarixi ifadə edəcək hər şey incəliklərinə qədər özünü əksini tapıbdı. Çünki bu xalqın yaşam tarixidi və yazıçı da doğru olaraq onu aradan xeyli zaman keçməsinə baxmayaraq yaddaş hadisəsi kimi təzədən bədii sferaya gətirir. Bir növ yaşanan tarixi təzədən bədii düşüncədə təqdim edir. R.Gənzəli bütün əsərlərində olduğu kimi, müxtəlif qrupları təmsil edəcək xarakterlər kolleziyası yaradır. Burada insan xislətinin bütün tərəfləri – alilik və naqislik tərəfləri tam incəliklərinə qədər əksini tapır. Və bir növ otuz yeddinci il timsalında açılır Məsələn, Mirzə Cəfərlə bağlı mənzərə həmin müdhişliyi tam tərəfləri ilə göstərir. Onu

da əlavə edək ki, bu təkcə Mirzə Cəfər üçün olan hadisə deyildi. Minlərə, on minlərə hesablanmışdı. «Xeyirxah, qüdrətli köməksizin dadına çatan Kəblə Hüseyni «xalq düşməni» aparmağa gələn dövlət adamları girəvə salıb camaatdan soruşmuşdular:

-Bu Mirzə Cəfər necə adamdı?

-Yaxşı adamdı.

-Camaat onu eşidir?

-Eşidir.

-Beş-on nəfəri çağırıb desə ki, gəlin Arazın o tayına keçək, keçən olar?

-Olar.

Onda dövlət adamı o biri yoldaşına göz vurub qımışmışdı. Deyəsən, planı iki yüyz faiz ödəyəcəyik…

-Mirzə Cəfər, hazırlaş gedirsən?» (səh. 33). Bax bu idi o dövrün mənzərəsi. Baş verən təqiblər, hədə-qorxular bundan o yana getmirdi. R.Gəncəli həmin mənzərəni tipik bir epizodla ifadə edibdi. Bu yazıçı səriştəsi, ümumi mənzərəni qiymətləndirmə bacarığıdı. Burada digər tipik hadisə xalq düşüncəsində əsil, nəsil məsələsidi. Böyük-böyüyk günahlara batan, xalqın ölümünə fərman verən Abdalın, Cahilin, Tufanın sonrakı nəsil şəcərəsi məsələsidi. Yazıçı maraqlı tərzdə bunldarın sonrakı taleyinə də diqqət yetirir. Bu naqis, qüsurlu kəslərin övladlarının aqibətini və hansı mərhələdə dayanmasını diqqət mərkəzində saxlayır. «Yuxarı başda oturan təbliğat şöbəsinin müdiri İldırım Abdaloğludur.

Onun yanında əyləşən milis şöbəsinin rəisi İldırım Tufanoğludur. O, isə rayon dövlət təhlükəsizlik komitəsinin sədr müavini Barat Cahiloğludur» (səh.51). Bax dəhşətli budur. Azərbaycanın ağrıları bütünlüklə bu epizoda yüklənir. Çünki bu tip qüsurlu adamların oğlanlarının yolu da heç şübhəsiz atalarının yolundan elə də fərqlənməyəcək. Azərbaycan xalqının düşüncəsində bir mərdanəlik, mərdlik, vətən sevgisi duyğusu var. Naqislər, əsli, nəsli olmayanlar bunu çətin bilərlər. Necə ki, onlar Cavanşiri, Babəki, Cavad xanı tarixin ayrı-ayrı kəsimlərində güdaza verdilər. Buna yenə də hazırdılar. Səhl-Sümbatların övladları bu gün də var. Azərbaycanın qanını-canını sormadadı. Vətən deyilən bu torpağı bir qəpiyə belə satmağa hazırdılar. Bax, R.Gənzəli bir sənətkar kimi həmin ənənənin, mənfur xəyanət ənənəsinin yaşandığını, Cahilin, Tufanın, Abdalın etdiyi pisliklərin, xalqa xəyanətlərin onların oğlulları tərəfindən davam etdirildiyini vurğulayır. Və xüsusi olaraq göstərir ki, elə vəzifə kürsüsünə də onların oğul-uşaqları çəkilirlər. Azərbaycanın ağrılı yeri, qurtarmalı olduğu dəhşətli bəla buradadır. Bu düşməndən də qorxulu mərəzdi ki, vətəni içindən yeyir. Bunlar vətəni ruhu, qanı ilə çiçəkləndirənlər deyil, əksinə ona xəyanət yolu tutanlardı. Ona görə də görkəmli ictimai-siyasi xadim N.Nərimanov xüsusi olaraq vurğulayırdı ki, vətənin qədrini o kəslər biləcək ki, ruhən, qəlbən ona bağlı olsunlar, onunla birgə sevinib, birgə gülsünlər. Azərbaycanın

bütün ağrıları, problemləri həmin vətən sevgisi ilə yaşayanların çiyinlərində daşınıb. R.Gənzəli məhz bunları «Qanlı çay» povestində bütün tərəfləri ilə təqdim edir. Son olaraq xəbislərin, vətən, xalq düşməni olanların tipik obrazını yaratma yolunu tutaraq xarakterlər kolliziyası qurur.

Yuxarıda dediyimiz bir epizodu, Novruz mərasimi ilə bağlı yazıçı düşüncələrini təkrar qeyd etmək istəyirik. Müəllifin bu bayrama hadisələri çəkməsi təsadüfi deyildi. Məlum olduğu kimi Novruz xalqımızın ən qədim bayramlarındandı. Və onun gəlişini böyüklü-kiçikli hamı həsrət və sevinc hissi ilə gözləmişlər. Ondan həmişə xeyir, bərəkət, xoşbəxtlik gözləyiblər. Gözləyiblər ki, bu bayram onlara yaxşılıqlar gətirəcəkdi. Ona görə də əvvəldən hazırlıqlar görüb, bayramı imkanı daxilində yaxşı keçirməyə çalışıblar. Bu yaxşılıqların davamını bayramın gətirməsindən gözləyiblər. Novruz mərasimlər toplusudu. Onda xalqımız bütün düşüncəsini, məişətini qoruyub saxlamağa çalışıbdı. Çərşənbələrin, səməninin, tonqalın, orada söylənən vəsfi-halların, bayram süfrəsinin hər birisinin özünün rəmzi mənaları var. Və xalqımız bununla öz milli-mənəvi dəyərlərindən əlavə dünyagörüşlərini, həyat fəlsəfələrini də yaşatmışlar. Lakin xalqın bayram sevincinə uzanan düşmən əllər Göydaşlının sevincinə haram qatır. Onun həyat nizamını pozur. Əslində müəllifin Göydaşlı timsalında dediklərini bütünlükdə Azərbaycan yaşayırdı. Və yaşadı da.

Ona görə də R.Gənzəlinin «Qanlı çay»ında tarix və yaddaş anlamında çox məsələlər açıqlanır. Əsərin elə bədii dəyəri də bundadı.

R.Gənzəlinin yaradıcılığı həyatın özü kimi rəngarəngliklərlə, həyat səhnələrinin müxtəlifliklləri ilə doludur. Onun «Bəyaz gecələr»i, «Qaranlıq gündüzlər»i, «Həsrət»i və başqa əsərləri bu mənada bütünlükdə həyat faktlarına, problemlərin rəngarəngliyinə yüklənibdi. «Bəyaz gecələr»də hadisələr bir ailənin timsalında ümumiləşdirilir. Burada da hadisələr Göydaşlı tiimsalında təsvir və təqdim olunur. Zahid kişinin ailəsi timsalında müəllif baş verənləri ümumiləşdirir. Daha doğrusu, Mətin və Çilənayın körpə yaşlarında – dörd, beş yaşlarında olarkən anasının ölməsi bütün ailənin nizamını pozur. Bu nizamıın pozulması isə Sürmənin analıq kimi bu ailəyə gəlməsi ilə başlayır. Zahid bir ailə başçısı kimi ailəni axıra qədər nizamlaya bilmir. Məhz onun nəticəsi olaraq böyükdən-kiçiyə hamı ailə ağrılarını, sarsıntıları yaşayır. «Anası öləndə Çilənayın dörd yaşı vardı. Özündən bir yaş böyük olan qardaşı Mətinlə hələ heç nə anlamırdılar. Gəlib-gedənləri görüb sevinirdilər, atılıbdüşürdülər. Altı aydan sonra ataları gedib onlara «ayrı ana» alıb gətirdi. Ancaq nənələri deyirdi, yox bala, yalan deyir, ondan sizə ana çıxmaz. Sonra da ağlayırdı «yazıq balam, yazıq qızım» deyib göz yaşı tökürdü. Hərdən bayatı da deyirdi; yanıqlı-yanıqlı, nisgilli-nisgilli.

Övlad dərdinə dözə bilmədi Püstə nənə. Qızının ilindən bir az sonra getdi qızına qovuşmağa» (səh. 67). Hadisələr fonunda Sürmənin ikinci ana kimi xarakteri açılır və müəllif onun xarakterindəki qüsurları təqdimi ilə bir ailənin faciəsinə gedən yolu göstərir. Müəllif qardaş bacının söhbəti timsalında Sürmənin analıq obrazını yaradır. «Bir günləri Çilənay çayda üst-başını islatmışdı, onu dəlicəsinə döyəndə Mətin dözə bilmədi:

-Bacımı döymə, - dedi.

Sürmə Çilənayı buraxıb Mətinin üstünə şığıdı. Döydü, ürəyi soyumadı, söydü, ürəyi soyumadı, kibriti yandırıb yana-yana onun qoluna basdı. Mətinin bağırtısına atası gəldi, qolunda yanıq yerini görüb Sürməni söydü, sonra da uşaq vedrəsini götürüb onun başına vurdu» (səh.68). Bu epizod Sürmənin bir obraz kimi bütün qüsurlarını ortaya qoyur. Körpə Mətinin etirazından nəticə çıxarmaqdansa Sürmə daha dəhşətli işgəncələrə əl atır. Və bir növ məsələləri ailənin pərənini pozmağa doğru aparır. R.Gənzəli Mətinlə Çilənayın uşaq hisslərini, ikinci anaya olan münasibətlərini danışıqlarında kifayət qədər aydınlıqla təqdim edə bilir. «Gecələr Çilənay öz yerindən qalxıb Mətinin yanına gələrdi. Astadan o ki var dərdləşər, Sürmə bacının qarasınca deyinərdilər.

-Mətin, mən böyüyəndə həkim olacağam, Sürmə bacıya iynə vuracağam.

-Mən də polis olacağam. Gəlib Sürmə bacını tutub dustağa aparacağam.

-Bəs Əfsuna kim baxacaq.

-Əfsuna… Əfsuna? Doğurdan e…

Onda Sürmə bacını tutmazsan, mən bir iynə vuraram, vəssalam.

-Yaxşı.

-Dinmə, gəlir.

Yorğanı başlarına çəkib nəfəslərini qısardılar. Hənirti kəsilən kimi yenə başlayardılar» (səh. 68). Bu epizod uşaq təsəvvürləridi. Və müəllif Sürmənin münasibəti timsalında qardaş-bacının söhbətini verir. Oxucu bununla Sürmənin iki körpə uğaşın təsəvvüründə necə təsir buraxdığını aydınlaşdırır. Yazıçının ana obrazını və uşaq yaddaşının ağrılarını qeyri-adiliklə təqdimi sonrakı səhifədə bütün tərəfləri ilə görünür. «Mətini tez-tez atasına döydürürdü Sürmə. Bir gün yenə döydürəndən sonra Mətin gəlib Çilənayın qolundan tutdu.

-Gəl, Çilənay, gəl dalımca.

Çilənay səssiz-səmirsiz qardaşının dalınca düşdü. Hara gedirdilər, niyə gedirdilər – bilmirdi Çilənay, ancaq gedirdi. Mətin onu ölümə də aparsaydı, beləcə, səssiz-səmirsiz gedərdi. Çox gedəndən sonra gəlib qəbiristanlığa çıxdılar. Çilənay heyrətlə qardaşına baxırdı, heç nə anlamırdı. Gəlib bir ot basmış qəbrin yanında dayandılar.

-Çilənay, bu bizim anamızın qəbridi. Yadında saxla, tez-tez gətir gül dəstəsi qoy… Biz bu

qəbrin xatirinə yaşamalıyıq» (səh.69). Bu özlüyündə yaddaş ağrısıdı. Günahsız iki uşağın nə qədər əziyyətlər içərisində yaşamasını və hansı düşüncələrdə olduğunu göstərən faktlardı. Bu sətirlər onların haqqında tam təsəvvür yaradır. «Bu qəbrin xatirinə yaşamalıyıq» düşüncəsi onlaprda mətanətə, dözümə, qarşılaşdığı çətinldiklərlə üzbəüzə durma qabiliyyətini formalaşdırır. Hadisələrin gedişində də bu aydınlığı ilə gürünür. Bütün sıxıntılara, çətinliklərə, şər və böhtanlara baxmayaraq həm Çilənay, həm də Mətin dözür. Sürmə tərəfindən evdə yaradılan süni qanıqaraçılıq, narazılıqlar, Çilənaya atılan ləkələr hamısı hadisələrən sonluğunun elə də yaxşı olmadığını göstərən faktlardı. Evdəki söz-söhbətdən Mətinin könüllü olaraq yaşı çatmaya-çatmaya davaya getməsi, orada ağır yaralanması, Sürmənin evdə həddini aşması, onların düşüncəsində «biz həm də atasızıq» təsəvvürünü formalaşdırmışdı. Məsələ bunula da bitmirdi, eyni zamanda daha ciddi problemlərin gəlişinə doğru təsəvvürü də formalaşdırırdı. Və son olaraq bunlar Mətinin atasının tutulmasına, Sürmənin isə faciəli ölümünə gətirib çıxarır. Mətinin Səttarla qarşılaşmasında hadisələr özünün daha ağrılı tərəfləri ilə təsdiqlənir. Mətinin, «yaxşı, kənddə nə yenilik var?

-Sürmə bacını bildin?

Nəyi?

-Ölməyini.

-Necə?

-Yazığı üç gün axtardılar, meyitini uçurumun dibindən tapdılar.

-Dağa niyə getmişdi?

-Kaşır yığmağa... Bədbəxt neyləyəydi? İki qızı kaşır, ot-ələf yığıb satmağınan saxlayırdı» (səh. 104). Sürmə bütünlükdə bir qadın, ana kimi üzərinə düşən funksiyanı yerinə yetirmir. Əksinə, gəldiyi ailədə problemlər yaradır. Evin nizamını demək olar bütünlüklə pozur və məhz bunun nəticəsində özü qarışıq faciələr başlayır. Faciənin yaradıcısı elə özüdür və özü də bunun qurbanı kimi olmazın bəlaların girdabında məhv olur. Çilənay isə son olaraq öz sevgisinə qovuşur və ailənin yeni nizamı başlayır. Yazıçı əsərin sonunda bu məqamları çox dəqiqliklə oxucuya təqdim edir, «Axşam qovuşandan sonra Mətin dağdan enib gəldi. Hasardan aşıb həyətə düşdü. Evlərin, eyvanın, həyət-bacanın bütün işıqlarını yandırdı. Ancaq yenə yetim göründü. Zahidin evi: otaqlar yazıq-yazıq boyunlarını büküb ağlayırdılar elə bil.

...Sabahısı gün Göydaşlıda şayiələr gəzdi; biri dedi Zahid gəlib, birisi dedi evə oğru girib, o birisi dedi ki, yox əşi, cin-şeytan işidi.

Evin işıqları isə hələ də yanırdı» (səh. 106). Təkrar qeyd edirik, artıq nizamı analıq tərəfindən pozulmuş ailənin ikinci həyatı başlayırdı. Bu yanan işıqlar isə onun başlanğıc xəbərdarlığı idi. Yurdun yanan işıqlarının xəbərdarlığı idi. Yazıçı bütün bunları həyat, ailə-məişət hadi-

sələri fonunda ümumiləşdirmiş və günahsız iki körpənin həyatı timsalında təqdim etmişdir.

«Həsrət» povesti isə həyatın müxtəlifliklərlə dolu olan digər tərəfini Elbəyi ilə Vəfa timsalında ailə münasibətlərini təqdim edir. İnsan xarakterinin mürəkkəbliyi timsalında Elbəyi çox problemli görünür. İddiaları qarşısında Vəfa olmazın çətinliklər yaşamalı olur. «Elbəyi bu sakitlikdən darıxdı… Xəyalında gecə xəstəxanaya gətirdiyi vaxt yolda Vəfaya dediyi sözlər canlandı. «Mənə oğlan doğarsan, hə, Vəfa». Bunun cavabında Vəfa həmişə verdiyi cavabı təkrar etmişdi. «Allah nə versə onu» (səh.107). Allah isə oğul yox, qız verir. Elbəyinin problemləri məhz belə yersiz iddialarından başlayır. Ailədə olmazın gərginliklərin yaşanmasına səbəb olur. Və demək olar, öz əlləri ilə ailəsini dağıdır. Dərddən, ağrıdan, körpə övladının ata tərəfindən atılmasına barışa bilməyən Vəfa son olaraq həyatla vidalaşır. Burada hadisələr sovetlər dönəmində baş vermiş alman-sovet müharibəsi dövrünü və ondan sonranı sərgiləyir. Şirxan müharibədən qayıtdıqdan sonra Elbəyi ilə görüşür. Onlar ailə həyatından, xoşbəxtliklərindən danışırlar. Şirxanın övladı olmur. Ailəsi evlad həsrəti ilə yanıb yaxılır. Şirxanla Əfşan küçəyə atılmış bir körpəni öz qızları kimi götürüb saxlayırlar. Adını isə Həsrət qoyurlar. Həsrət ağıllı, bacarıqlı bir qız kimi Şirxanın evində tərbiyə alır. Onlar (Elbəyi və Şirxan) uzun illərdən sonra görüşməli olurlar. Hər ikisi özləri haqqında təfsilatlı söhbət aparırlar.

Ailə taleyini danışanda məlum olur ki, həmin atılmış körpə Elbəyinin qızıdır. Artıq Həsrət böyüyüb, ali məktəbdə oxuyur. Sərxan isə tərbiyə naqisliyi ucbatından xuliqanlıq edib beş il cəza alır. Bunların hamısının başında səbəbkar Elbəyi idi. Həyat Elbəyinin artıq iddiaları, hərəkətləri, xarakter qüsurları timsalında ona dərs vermişdi, cəzalandırmışdı. Bütün bunlar bir ailənin timsalında, Elbəyinin qoruya bilmədiyi ailə timsalında əksini tapır. Müəllifin əsərinin adını «Həsrət» qoyması təsadüfi deyil. Məhz əsər boyu təsvirlər, gəlinən qənaətlər bunu bir daha tam aydınlığı ilə göstərir. R.Gənzəli özlüyündə hadisələri təbiiliyi, inandırıcılığı ilə təqdim etməyi və bir yazıçı kimi oxucu dünyasına yol tapmağı bacarır. Bütün bunlar yaradıcı keyfiyyət kimi yazıçı düşüncəsində qazanır, həyatiliyə hesablanır. Onun romanlarında da bu bədiilik keyfiyyətləri bir tərəf kimi yaşanır və təhlillərə ehtiyac doğurur.

## ROMAN TƏHKİYƏSİ VƏ RASİM GƏNZƏLİNİN ROMAN YARADICILIĞI

Bədii düşüncədə genişhəcmli əsərlərin yaranması mürəkkəb prosesdi. Yazıçının, sənətkarın həyat hadisələrini qiymətldəndirmə və tədqiq bacarığı ilə ölçülə bilər. Bu, fikrimizcə, ancaq belədir. Çünki sənətkarın belə əsərləri yaratmaq məsələsinə gəlişi özü də birdən-birə baş vermir, tədriciliklə olur. Klassiklərimizin yaradıcılığq yolunu izlədikdə də bu belə görünür. Məlum olduğu kimi, Azərbaycan nəsri ilk nümunələrdən bu yana böyük, həm də uğurlu bir inkişaf yolu keçibdi. Bu yolun Xaqani Şirvanidən bu yana rəngarəngliklə, müxtəlifliklə nəzərə çavrpan nümunələri vardı. Məsələn, M.Füzulinin nəsri üzərində düşüncələrini bölüşmək və sonrakı sənətkarlarla yaradıcılıq müqayisəsi aparmaq müxtəlif kontekstdə çox gərəkli istiqamətləri ortaya qoyur. Hamımızın marağımızda olan və tez-tez vurğuladığımız «Şikayətnamə» bunun bariz faktıdı. Bu əsər təkcə M.Füzuli düşüncəsinin ifadəsi anlamında əhəmiyyət doğurmur. Həm də Azərbaycan bədii düşüncəsinin imkanlarını aydınlaşdırmaq məqamında bütün olanları aşkarlayır. Digər anlamda xalqdakı epos təhkiyyəsi sözün və bədii düşüncənin ifadəsi anlamında nə qədər böyük imkanlı görünür. Və insan oğlunun bədii kamilliyinin mümkünlüyü haqqında təsəvvür yaradır. Epik

ənənə bir-birindən maraqlı nümunələrlə M.F.Axundovun, İ.Qutqaşınlının, Ə.Haqverdiyevin, Y.V.Çəmənzəminlinin, S.S.Axundovun, R.Əfəndiyevin, S.M.Qənizadənin, C.Məmmədquluzadənin, S.Rəhimovun, Ə.Vəliyevin, M.Hüseynin, İ.Hüseynovun, İ.Şıxlının, Y.Səmədoğlunun, Ə.Əylislinin, Anarın, Elçinin və başqalarının yaradıcılığında səciyyələnir. Buraya epik ənənənin klassik ədəbiyyatda N.Gəncəvinin, Əlinin, Ə.Təbrizinin, A.Ərdəbilinin, Fədainin və başqalarının yaradıcılığındakı poema nümunələrini də daxil etmək olar. Çünki bədii düşüncədə bunların bəzən roman adı ilə vurğulanması təsadüfi deyildi. Burada təhkiyə, hadisələrin şaxələnmə imkanları, təsvir və təqdimlər bütünlükdə romanla eyniyyətləşir. Demək olar, dastan, poema, roman təhkiyyəsi burada birləşir. Düzdü, kifayət qədər ayrıcı, fərqləndirici tərəflər var. Təkrar deyirik ki, birləşdirici məqamlar da az deyildir. Bunlar daha çox təhkiyə və düşüncə tipində dayananlardı. Rasim Gənzəlinin yaradıcılığı da məhz bu müstəvidə təhlillərə ehtiyaclıdı. Onun yaradıcılığında irihəcmli əsərlər mühüm bir hissədi və təsadüfi də deyildir. Rasim bir yazıçı kimi yaradıcılığında irihəcmli əsərlər yazmağa birdən-birə gəlməmişdi. Onun publisistikasından, hekayələrindən, povestlərindən başlayan yol son olaraq roman təhkiyəsində düşüncələrini ümumiləşdirməyə gətirmişdi. «Qara sevda» (Bakı, Gənclik, 2000), «Qurdlar və manqurdlar» (Bakı, Adiloğlu, 2004), «Qiyamət

qopanda» (Bakı, Vektor, 2010), «Qurdbəşər» (Bakı, EL, 2011) bunu tam aydınlığı ilə göstərmədədi. Bu əsərlərin hər birisi Azərbaycan bədii nəsrinin inkişafı, boyartımı anlamında bizdə uğurlu təsəvvürlər yaradır. Onun şəxsiyyəti, xarakter göstəriciləri, əsərlərinin hansı şəraitdə yaranması isə bu haqda daha geniş düşünməni aktuallaşdırır. Və daha geniş arenaya təqdim olunmanı gərəkli fakta çevirir. Düşünürsən ki, biz hələ dünyaya təqdim etməli olduqlarımızı təqdimdə gecikirik. Doğurdan da, Azərbaycan ədəbi düşüncəsinin dünya arenasına çıxarılması özünün aktual məsələ kimi həllolunma gərəkliyində indi də qalmadadı. R.Gənzəli özlüyündə həyat, bədii düşüncə, dözüm, mətanət, inam mücəssəməsidi. Və bütün tərəfləri ilə buna ehtiyaclıdı. Son dövr ədəbi proses rəngarənglikləri, müxtəliflikləri ilə əhəmiyyət daşıyır. Poeziyanın, publisistikanın, nəsrin, dramaturgiyanın axtarışları və yeni yazarlar nəslinin gəlişi bunu bir daha təsdiqləyir. Düzdü, bu rəngarənglikdə, zənginlikdə bir qarışıqlıq da nəzərə çarpır. Çünki müstəqillik bütün istiqamətlərdə olduğu kimi, ədəbiyyata da yeni ab-hava gətirdi. Bir növ mühit kitab bolluğu ilə diqqəti cəlb elədi. Mətbuat sahəsində də bu nəzərə çarpdı. Ədəbiyyat xatirinə yazılan əsərlərin mövcudluğunun axtarışı başladı. Sanki mühit istedadların ortaya çıxmasını və bütün imkanları ilə görünüşünü ləngitdi. Mühitin özündə buna qarşı bir biganəlik, bəlkə də soyuqqanlılıq yarandı. Dramaturgiyanın bugünkü ehtiyaclığı,

səhnə əsərlərinin yaranmasının rəngarəngliyi daha çox geriləmələrlə müşahidə olundu. Ancaq bütün məsələlər, təkrar qeyd edirik, bununla da bitmədi. Poeziyanın, publisistikanın, nəsrin rəngarəngliyi, müvəffəqiyyətləri daha çox nəzərə çarpdı. Publisistika bu prosesdə daha çox görünən, hadisələrə fəal münasibət bildirən bir istiqamət kimi aparıcılığı öz üzərinə götürdü. Mühitin informasiya ehtiyacını bir növ publisistika daşıdı. Elə mənəvi boşluğun doldurulmasında da onun yeri ucalıq oldu. Son dövrlərdə isə mühitdə baş verən sabitlik, mühitin dəyərləndirmələri təhlillərə, obyektiv qiymətləndirmələrə ehtiyac doğurur. Və dünya arenasına çıxarılma, yolların açılması prosesi gedir. Xalqın mənəvi dəyərlərinin – aşıq sənətinin, muğamın YUNESKO səviyyəsində dəyərləndirilməsi buna nümunədi. Elə klassiklərin böyük işləri ilə bağlı yubiley tədbirləri də bu sıraya daxildi. Bütün bunlar ədəbi prosesin davamlığını və yeni uğurlu nümunələrə ehtiyaclı olduğunu təsdiqləyir. Məhz epik təhkiyədə son dövr irihəcmli əsərlərin, daha dəqiq desək roman nümunələrinin yaranmasının ləngliyi də bir istiqamətdə mühitin ehtiyacına hesablanır. Ancaq onu da etiraf edək ki, yaradıcılıq ləngərli prosesdi. Müəllif düşüncəsinin ifadə imkanlarına müqabil bədii nümunələr yaranır. Elə R.Gənzəlinin romanları da məhz həmin ehtiyacın faktı kimi meydana gəlmişdi. Burada məişət hadisələrindən tutmuş məmləkətimizin müxtəlif səpkili problemlərinə qədər, tarixi faciələri də daxil ol-

maqla çox nəsnələr əhatələnir. Ona görə də bu yanaşmada müxtəlif münasibətlər, müxtəlif kontekstlərdən, prizmalardan təhlillər ehtiyacı meydana çıxır. R.Gənzəlinin «Qara sevda», «Qiyamət qopanda», «Qurdbəşər» romanları bu mənada geniş təhlillərə imkan yaradır. G.Həsənli R.Gənzəli yaradıcılından danışanda onun yaradıcı fantaziyasını və həyat reallığına bağlantılarını belə təqdim edir: «Rasimi yaxından tanıyan hər bir şəxs belə düşünər və onun fantaziya istedadına, yaradıcılıq qabiliyyətinə heyrət etməyə bilməz. Bütün ömrünü dörd təkərli səndəlye üzərində keçirən, kiçik bir dağ kəndində yaşayan insanın bu qədər geniş fantaziyaya, dünyagörüşə, düşüncə tərzinə malik olması onun qeyri-adi bacarığından, yüksək qabiliyyətindən xəbər verir» («Qara sevda», səh. 3). Rasim Gənzəli mənim nəzərimdə həyat nümunəsidi, yaradıcılıq nümunəsidi, dözüm və qətiyyət mücəssəməsidi. Onun istedadında dözüm və qətiyyət, bütün olanlardan gücü və imkanı daxilində etmək istəyi var. Bu özlüyündə böyük hadisədi. Onun varlığını, düşüncəsini sərgiləyən reallıq faktıdı. Ona görə də R.Gənzəli yaradıcılığı sözə və geniş təhlillərə imkan yaradır. Belə imkanlılıq isə bədii düşüncənin müxtəlif spektirlərinə oxucunu və tədqiqatçını aparır.

Roman bir forma kimi kifayət qədər geniş imkanlıdı. Qəhrəmanın hərəkətini, onun həyat tərzini, xarakter açımını bütün tərəfləri ilə özündə sərgiləyə bilir. Məhz ədəbiyyatşünas ali-

mimiz prof.A.Hacıyev çox doğru olaraq vurğulayır ki, «Fridrix Şillerin timsalında müasir incəsənət «başlanğıcını bizim dövrün Sokrat mükaliməsindən», «həyatın müdrikliyinə yaxınlaşmağın sərbəst forması»ndan – romandan almışdır. Roman epik növün ən irihəcmli janrıdır. Onun bədii hüdudları, varlığı ifadə imkanları genişdir. Bu janrla həyat çoxistiqamətli, dolğun təsvir edilir» (A.Hacıyev. səh. 296). Doğurdan da, romanın bir forma kimi tarixini izləmək istiqamətində müxtəlif fikirlər söylənmişdir. Nəzəri araşdırmalarda aparılan tədqiqatlar onun janr imkanlarını, formanın inkişaf istiqamətlərini açmaq sahəsində gərəkli problemlər ortaya qoya bilmişdir. Həmin nəzəri konseptual yanaşmalar R.Gənzəlinin romanlarında da bir uyğunluqla görünür və geniş təhlilərə şərait yaradır. Çünki roman, dediyimiz kimi, qəhrəmanın əlaqələrini, münasibətlərini, həyatının müxtəlif məqamlarını, bütünlükdə yazıçının məsləhət bildiyi tərəflərini yazıya gətirməyə imkan verir. Oxucu öz qəhrəmanı haqqında nə varsa hamısını oradan ala bilir. Onunla bağlı özündə geniş təsəvvür yaratmaq imkanı qazanır. R.Gənzəlinin romanları məhz bu mənada həm də informativ funksiya daşıyır. Bu cür ətraflı təqdimlər eyni zamanda qiymətləndirməyə, qəhrəmanın harada doğru, harada səhvlər etməsini irəli sürməyə də şərait yaradır. Eyni zamanda onun ətrafındakı və onunla bu və ya digər dərəcədə bağlı olan hadisələr də bura cəlb edilir. Məsələn, «Qiyamət qo-

panda» romanındakı təsvirlər sırf məişət hadisələrini, insan xarakterlərinin rəngarəngliyini, yüngül həyatı özlərinə peşə edənlərin həyat şəraitini, həyatın özünün həmin şəraiti yaşayanları cəzalandırmasını əks etdirir. Əsərin ilk abzası hər şeyi, nələrin baş verəcəyi haqqında informasiyanı təqdim etməsi ilə səciyyələnir. «Yanından yeddi dərə keçən, ətəyində oğru adamlar və heyvanlar gizlənən, başı şimşəklər görmüş qoca dağın dibindən torpaq yığıb kisəyə dolduran, evə gətirən, su ilə qarışdırıb çiməndə bədəninin hər yerinə yaxan, quruyandan sonra yuyunub təmizlənən qüsul verib, sonradan təzə aldığı alt və üst paltarlarını geyinən Nazənin elə bildi ki, tərtəmiz olub, daha onun keçmişindən əsər-əlamət qalmayıb». (səh. 3). Əslində bu Nazənin üçün belə görünə bilər. Ancaq həqiqətdə belə deyildir. Çünki onu tanıyanlar hansı xarakterə malik olduğunu, hansı həyat yolunu keçdiyini çox yaxşı bilirlər. Bizim xalq düşüncəsində əsil, bədəsil məsələsi var. Bu min illərin sınağından çıxıb və bayatılarımızdan, atalar sözlərimizdən dastanlarımıza qədər böyük yolu özündə ehtiva edir. Bayatılarımızın birində deyilir ki, «əsil al çirkin olsun, bədəsil gözəl alma». Eləcə də dastanlarımızda, məsələn «Kitabi-Dədə Qorqud» dastanının müqəddiməsində qadınların qiymətləndirilməsi var. Və onlardan biri Fatimə, Ayişə nəsli adı ilə vurğulanır. Hətta xüsusi olaraq qeyd edilir ki, «qız anadan görməyincə öyüd almaz». Və yaxud da «ana bilir oğul kimdən olduğun». Bütün bun-

lar və bu kimi nümunələr Nazəninin, qızı Dəryanın və bacısı Şahnazın şəxsində, hərəkətlərində və yüngül həyat tərzi keçirməsində əksini tapır. Hətta müəllif bir qədər də əvvələ varır və məsələlərə daha dəqiq təsəvvür yaradacaq aydınlıq gətirir. «Anası da həmin dağın dibindən gətirdiyi torpağın palçığında yuyunmuşdu. Onda onun əlli, əlli beş yaşı olardı. Ancaq Nazəninin heç qırx beş yaşı da olmamışdı. Boynuna, boğazına xırdaca qırışlar düşsə də, canı hələ çox şux idi və azı on il kişiləri yatağında məst edib ağıllarını başlarından ala bilərdi» (səh. 4). Bunlar xarakterin müəyyənləşməsi baxımından anlaşıqlı qənaətlərdi. Hətta Ziyadın anası ilə söhbətində də bu bütün tərəfləri ilə görünür. Ana öz oğluna söhbət zamanı həmin ailənin necə olmasını əks etdirəcək anlaşıqlı cavab verir.

«-Ana, Qərib dayının qızı neçədə oxuyur?

-Qərib dayı kimdi, ay bala?

-Qərib də… bığlı Qərib demirlər?

-Nə bilim, vallah, iki qızı var, biri ondadır deyəsən, o biri doqquzda. Onları neynirsən?

-Heç, elə-belə…

-Sən mənim canım.

-Ana, bilirsən, Nazənindən xoşum gəlir. Çox tərbiyəli qıza oxşayır.

-Yox, ay bala, bizimki onlarla tutmaz» (səh. 42). Bütünlükdə romanı oxuduqdan sonra «bizimki onlarla tutmaz» ifadəsi Nazəninin ailəsi haqqında hər şeyi, nə varsa hamısını ifadə edir. Bu deyimdən Ziyad özü nəticə çıxarmalı idi. An-

caq onu edə bilmədiyi üçün ailəsinə olmazın əzablar gətirir. Bu qüsurlar oğlu Tuqayın, qızı Dəryanın şəxsində tam təfərrüatı ilə ortaya çıxır. Qərib kişinin oğlu Ziyadın təmiz hissləri onun düşüncəsində doğru qərar çıxarmağa imkan vermir. Səhvlər təkrarlanır və daha ciddi səhvlərin gəlişinə şərait yaradır. Bundan əlavə romanda Məmmədbəy, Şəfəqnur obrazları da xarakter xüsusiyyətləri ilə müəllif amalının açımına xidmət edir. Hadisələr daha çox Ziyadın ailə faciələri üzərində qurulur. Nazəninin gəlin gəldiyi gündən ailədə yaratdığı narazılıqlar son olaraq onun Bakıya köçməsi ilə nəticələnir və burada bütün qüsurlar sonrakı həyat taleyində bütün tərəfləri ilə ortada görünür. «Və hələ indi də yadına düşdü ki, onun imdad bağladığı ocağın çırağı sönüb. Dərdli anlarında tələsdiyi bu evin sahibi dünyasını dəyişib» (səh. 249). Sürücünün «qiyamət qopur» ifadəsində Ziyadın bütünlükdə taleyi əksini tapır. Yazıçı da Ziyadın ailəsi timsalında çox doğru olaraq əsərini «Qiyamət qopanda» adlandırır. Son olaraq düşünürsən ki, məhz qiyamətin qopduğu zamanlarda bu cür hadisələr yaşanır. Ailənin nizamı pozulur, olmazın fəlakətlər baş verir. R.Gənzəli bunları məhz hadisələrin gedişində, təsvirlərdə Şahnazın Dubay səfərlərində, bacısı qızını da bura cəlb etməsində aydınlaşdırır. Və qiyamətin qopduğunu son dövrün hadisələri timsalında ümumiləşdirdiyi təsəvvürü yaranır.

Rasim Gənzəli həyatı görə bilən və gördüklərini yazıya gətirə bilən yaradıcılardandı. Onun zəngin yaradıcılığında bütünlükdə mühitimizin ictimai-mədəni münasibətləri, müstəqillik dövrünün problemləri, məişət hadisələri, əxlaqi dəyərlərin qorunması və çatışmamazlıqları məqamında gətirdiyi acılar hamısı bir tərəf kimi yazıçının təsvirlərində bütün incəliklərinə qədər əksini tapır. Ona görə də onun yaradıcılığı müasir həyatımızın, ədəbiyyatımızın, bütünlükdə xalqımızın tarixinin müxtəlif mərhələlərinin faktları timsalında çox məsələləri özündə əks etdirir. Ümumiyyətlə romanda «həyat çoxistiqamətli, dolğun təsvir edilir. Obrazların dünyagörüşü və dünyanı duyumu, xasiyyət və psixologiyaları mühitlərdə, gerçəyin gur nəhrində, əlaqə və münasibətlərdə açılır. Şəxsiyyətlərin kamilliyi, ideya-emosional yetkinliyi, siyasi-sosial mədəniyyətləri, mübarizələri və dramatik-psixoloji üzləşmələri ilə dövrün qlobal problemlərinə toxunulur. Ziddiyyətlər genişlənir, mürəkkəb əlaqə və münasibətlər, onlarla lövhə və mənzərələr bir bədii mərkəzdə cəmləşir» (A.Hacıyev. səh. 296). R.Gənzəlinin roman təhkiyəsində də hadisələrin əhatəliliyi, qəhrəmanların taleyi, onun ətrafındakılarla əlaqə və bağlantıları bir sistem kimi nəzərə çarpır. Ümumilikdə hamısı yazıçı amalına xidmət edir. Onun düşüncələrini, həyat hadisələrinə münasibətini əks etidərn fakta çevrilir. «Qara sevda» bu əhatəlilik mənasında yazıçı dünyagörüşünün açımını əks etdirən hadisədir.

G.Həsənli «Redaktordan» başlığı altında verdiyi yazıda xüsusi olaraq bir məsələni vurğulayır: «Qara sevda» romanında əski sovetlər birliyi zamanı yaranmış ədalətsizliklər, insanın insan başına gətirdiyi müsibətlər, dövrün ictimai bəlaları real bədii çalarları ilə canlandırır, həyat həqiqətləri real bir aspektdə ortaya qoyulur» (səh. 3). Doğurdlan da, romanda sovet dönəminin həyat tərzi, məişəti, rejimin qoyduğu qadağalar və insanların başına gətirilən olaylar bu və ya digər şəkildə özünün əksini tapır. Bütünlükdə əsərdə əksini tapan hadisə müxtəliflikləri, qəhrəmanların həyat tərzi, onların münasibətləri hamısı sənətkardan həmin rəngarəngliyi, fərqlilikləri ümumiləşdirmək bacarığı tələb edir. R.Gənzəli də bir yazıçı kimi həmin müxtəlifliklərdə özünüun həyat hadisələrinə münasibətini yaratdığı obrazların şəxsində ümumiləşdirir.

Yazıçı üçün ən böyük xoşbəxtlik düşüncələrini ümumiləşdirə və onu oxucu hissləri ilə uyğunlaşdıra bilmə bacarığıdı. Daha doğrusu, bütün hadisələri dünyəviliyə, oxucunun düşüncəsinə hesablaya bilmək imkanıdı. Yəni hadisənin həyat təmasıdı. «Qara sevda»da hadisələr Günalın küçəyə çıxması ilə başlayır. Bu başlanğıcın içində həyatın ikili tərəfləri – birində iki nəfərin son mənzilə yola salınması, digərində iki gəncin ailə həyatı qurması təsvir edilir. Bu təsvirlər eyni zamanda romanın daxilində gələcək ikili qarşılaşmaların baş vermə ehtimalını müəyyənləşdirir. Günal şəhərdə oğlanlar yataqxanasına gəlir və

Nazlının gətirdiyi məktubu Elsevərə vermək istəyir. Məktubda Elsevərin atası haqqında məlumat vardı. Məsələnin digər tərəfində Elsevərin içində Günala olan sevgi dayanır. Bunlar (Elsevər və Günal) bir qrupda oxuyurlar. Həmin məktubda atası ilə bağlı məlumat vardı. Elsevər rayondakı vəziyyətlə bağlı evlərinə yola düşməli olur. Müəllif həmin gedişdə qəhrəmanın iç aləmindəki hisslərini verir. «Xəyalının acılı-şirinli mərkəz nöqtəsi isə Araz olardı. Bu fəryadlı çayı görəndə Elsevərin sifəti müdrikləşir, xəyal onu darısqal küçədən öz qanadlarına alıb uzaq keçmişlərə, ümidli xoş gələcəyə aparardı. Xəyalında Arazın gur suları quruyar, göz dağı olan tikanlı məftillər yox olardı. Cənublu qardaş-bacılarımız qollarını geniş açaraq öz əzizlərinə – qardaş və bacılarına qovuşmağa yüyürərdilər. Sevincdən doğan göz yaşlarından Araz boyda çay yaranardı. Ancaq həmin çayın suları Araz kimi lil olmazdı, şəffaf olardı. Araz kimi qəzəbli axmazdı, sakit-sakit, aramla axardı. Ayrılıq zəncirini qırıb birləşmiş bacı-qardaşlara şirin ana laylası çalardı» (səh. 12-13). R.Gənzəlinin yaradıcılığı boyu vurğulanan problem məsələlərdən biri Araz ağrısıdı. Bu bütünlükdə ədəbiyyatımızın, ictimai-siyasi, mədəni düşüncəmizin mühüm hissəsidi. Məhz R.Gənzəlinin əsərlərində də müxtəlif vəziyyətlərdə vurğulanır. Çünki ikiyə bölünmüş xalqın ağrılarının nə olmasını ancaq həmin ağrıları yaşayan xalq billə bilər. Həmin ağrıları özlüyündə bir istiqamətdə Araz çayı ifadə edir.

Bu səbəbdən də Araz ayrılığa, həsrətə simvolizə olunmuşdu. Xalqın dərdlərinin ifadə faktına çevrilmişdi. Bunun isə kökündə rus və fars şovinizmi dayanırdı. Müəllifin «Qara sevda əsərində də bu problem bir məqam kimi özünə yer tapır. Maraqlı burasıdı ki, yazıçı sovet dövrü hadisələrinin təhlilini verəndə, obrazların mahiyyətini açanda, həyat hadisələrinə münasibətini aydınlaşdıranda məhz belə epizodik, lakin olduqca təsiredici hadisələri əsərə gətirir. Bu özlüyündə sənətkar düşüncəsinin hansı duyğularla yaşaması hadisəsidi. Hətta əsərin aparıcı obrazı olan Qılman Arazlının soyadında da həmin düşüncə özünə yer tapır.

Əsərdə hadisələr ümumilikdə sovetlər dönəminin problemlərinə yüklənib. Rayon prokuroru Şəkər Şirinzadənin Qılman Arazlı ilə söhbətində bu tam aydınlığı ilə görünür. Vəzifə səlahiyyətlərindən süni surətdə istifadə, təmiz adamların cinayətə sürüklənməsi, hətta həbsxanalarda çürüdülməsi kimi hallar özünü bütün aydınlığı ilə göstərir. «Rayon prokuroru Şəkər Şirinzadə öz kabinetində rayon sovxoz tikintisi idarəsinin anbardarı Qılman Arazlı ilə söhbət edirdi.

-Hə, Qılman kişi, deyirsən, neçə ildir anbar müdiri işləyirsən?

-İki il yarımdır.

İki il yarım, iki il altı ay.

....Bu iki il altı ayda anbarı yoxlayan olubmu? Müfəttiş gəlib anbarın işi ilə maraqlanıbmı?

-Yox, Şəkər müəllim, yoxlayan olmayıb. Elə Tağı Alışoğlundan təhvil aldığım anbardır» (səh. 14). Qılman həyatın bütün çətinliklərini çəkmiş, hər cür əzablarını görmüş bir şəxsdir. Onun taleyinə diqqət yetirdikdə bu tam aydınlığı ilə görünür. Atası Hacı Rəşid kulak kimi sürülmüşdü. Bu özlüyündə çox ağrılı mətləblərdən xəbər verir. Müəllifin əsərə gətirdiyi bu epizod bütünlükdə sovetlər dönəminin ən ağrılı hadisəsi kimi həmişə diqqət mərkəzində saxlanıbdı. Elə R.Gənzəlinin də əsərdə bu hadisəni qabartması təsadüfi deyildi. Bir növ yazıçı bununla xalqın ağrılarının ifadəsini oxucuya xatırlatmaq yolunu tuturdu. Onu da qeyd edək ki, Qılmanın atasının otuz yeddinci il hadisələrində tutulması ilə bütünlükdə məsələ qurtarmamışdı. Həm də qoyub getdiyi ailəyə yad əllər uzanmışdı. Ailə bir növ pis yollara sürüklənmişdi. Onun ağrısını isə oğlu Qılman, atası (Səlbinin) Kamandar çəkir. Onsuz da çətinliklərin, problemlərin içində vurnuxan Qılman babası Kamandarın ölümündən sonra olum-ölümlə üz-üzə qalır. Müharibənin başlanması onun işini daha da çətinləşdirir. «Təkcə bir dəfə ölümün çətinliyini duymuşdu. Qılman həmişə keçmişdən söz düşəndə bunu nağıl edərdi. «Acından ölürdüm. Ayaqlarımda taqət qalmamışdı. Səndələyə-səndələyə bu küçədən, o küçəyə addımlayırdım. Elə bil bununrla ölümümü yubatmağa çalışırdım. Hər an yıxıla bilərdim. Bir küçədən keçəndə qabağımı bir qadın kəsdi.

-Niyə yıxılırsan, oğul, xəstəsən?- dedi.

-Yox, acından ölürəm - dedim.

-Can bala, can! – bunu deyib getdi. Mən yoluma davam etdim. Bir az getmişdim, yenə həmin qadın mənqi saxladı. Əlindəki nazik, uzun fətiri mənə uzatdı. Çörəyin ətrindən başım fırlandı… Onun mənə baxmağına varmayıb yerə oturdum. Fətiri gözlərimə tapdım» (səh. 54). Bu sovetlər dönəminin faktıdı və insanların, özü də müharibə (sovet-alman müharibəsi nəzərdə tutulur) dövrü insanlarının necə çətinliklərlə qarşılaşdığı, hansı ağır həyat şəraitini yaşaması aydınlıqla görünür. Qılman müharibə dövrü ağrılarını yaşamış uşaqların ümumiləşdirilmiş obrazıdı. Onun müharibədən sonrakı həyatı, çoban işləməsi, evləndikdən bir il sonra Göydaşlıya kolxoz sədri təyin edilməsi, ailə həyatı və s. hamısı obrazın açımına xidmət edir, hansı həyat tərzi keçirməsi qənaətini formalaşdırır. Burada müəllif haşiyələri, müxtəlif epizodik hadisələr əsərdə təsirediciliyi artıran fakt kimi əhəmiyyət daşıyır. Məsələn, Mir Abbasla Qılmanın atası haqqında söhbətlərinə diqqət yetirək: «Bəli, əvvəldən Rəşidlə bir yerdə olmuşam. Baisə nə deyim olsun, bizi ev-eşiyimizdən, el-obamızdan didərgin saldı. Bizi Qazaxıstana apardılar. Orada işləyirdik. Heç müharibəyə də aparmadılar. Çox istəyirdik gedək müharibəyə. Deyirdik ya, qəhrəmanlıq göstərib bu adı üstümüzdən silərik, ya da bir havayı gülləyə qurban olub bu bədnamçılıqdan qurtararıq» (səh.74). Bu bütünlükdə həmin dövr

insanlarının düşüncəsi idi, adamların yaşadığı ağır şəraitin təsəvvürlərinin ifadəsidi. Yeni raykom katibinin Qılmanı çağırıb söhbətləşməsi və onu əsgərlimyə getməməkdə ittihamı və əsgərliyə yola salınması həmin dövrün mənzərəsidi. Burada digər istiqamət Günalla Elsevər, Fuad arasındakı münasibətlərin təbii məcrada davamıdır. Günalın elçilik məsələsidir. Bu bir növ bizim məişətimizin toy, evlənmə mərasimlərimizin təqdimidir. Yazıçı bunlarla əsərinə bədiilik gətirir, onun təsiredicilik məqamlarını artırır. «Lakin taleyi başqaymış Elsevərin. Doqquz aydı Günalın barmağında üzük yanırdı. Fuadın nişan üzüyü. Doqquz aydı Günalın qəlbinin «eşq» kitabına bir ad yazılmışdı. Fuad.

Günal Fuadın üzüyünü qəbul edəndə onların qarşısına şərt qoymuşdu. «Fuad bizim evdə yaşayacağına razı olacaqsa, onda üzüyü qəbul edirəm. Razı olmazsa bizimki tutmaz. Qoca nənəmi yadların pənahına qoya bilmərəm» (səh. 160). R.Gənzəli yaradıcılığı üçün maraqlı cəhətlərdən birisi müəllifin qəhrəmanını axıra qədər izləməsi, onun taleyini aparıb bir yana çıxarma cəhdidir. Ona görə də onun təsvirlərində hadisələr təbiiliyi, inandırıcılığı ilə seçilir. Bir növ müəllif amalının açımına xidmət edir. Biz əsərin ikinci hissəsində də obrazları, məsələn, rayon prokuroru Şəkər Şirinzadənin eyni hərəkətləri ilə göründüyünün şahidi oluruq. Bir zamanlar Qılman Arazlıya dedikləri indi bir başqa formada Rəşid Arazlıya tətbiq olunur. Əsərdə oxuyuruq: «Göy-

daşlıda - Qılman kişinin evində böyükdən tutmuş uşağa kimi hamı ağlayırdı. Qılman Arazlı həbs olunmuşdu.

…Şəkər Şirinzadə ilə Qılman Arazlı arasında çoxdandı münaqişə başlamışdı. Onların axırıncı söhbəti bu mövzuda olmuşdu.

-Qılman kişi, məni niyə saymırsan?

-Necə ki?

-İki dəfə çağırmışam gəlməmisən» (səh. 211). Məsələ aydındır, Qılman Arazlı da, Şəkər Şirinzadə də yaxşı bilir ki, məsələ nə ilə bağlıdır. Bu narazılıqlar nədən baş verir? Doğurdan da, R.Gənzəli əsərlərində kifayət qədər mürəkkəb, müxtəlif tipli xarakterlər görürük. Bunlar ümumilikdə müəllifin həyatı bütün tərəfləri ilə təqdim etmək cəhdindən irəli gəlir. Məsələn, Günalla ailə quran Fuadın tərəddüdləri, sonra səhvini başa düşməsi özlüyündə hadisələrin axarında, inkişafda getdiyini müəyyənləşdirir. Yazıçı əsərində , daha doğrusu, son səhifəsində «On ildən sonra» adında bir başlıq verir. Və burada artıq «mələk donuna bürünmüş iblis simalı böyük məmləkətin Allahın qəzəbi ilə dağılması, xalqların azadlığa qovuşması» təsvir olunur. Və xüsusi olaraq vurğulanır ki, artıq «doğmaları bir-birindən ayıran tikanlı məftillər sökülüb atılmışdı». Bütün bunlar cəmiyyətin müəyyən kəsiminin problemi kimi görünür və yazıçı bunları yaşanmış həyatın bir hissəsi kimi bədii fakta çevirir.

R.Gənzəlinin yaradıcılığında «Qurdlar və manqurdlar», Qurdbəşər» romanları sırf ictimai-

siyasi mühitin ümumi mənzərəsinin açımına, məmləkətin içində zaman-zaman yaşanan ağrıların aradan qaldırılmasına yönəlikli romanlardı. Bunlar, yəni hər iki roman, həm «Qurdlar və manqurdlar», həm də «Qurdbəşər» özünün məzmun və mündəricəsi, bədii dəyəri etibarilə daha çox siyasi düşüncənin hadisəsi kimi təhlillərə ehtiyac doğurur. Düzdü, onun publisistikasında, ayrı-ayrı hekayələrində, eləcə də povest və romanlarında nəzərə çarpan həmin siyasi-ictimai düşüncəni əks etdirən istiqamət burada qabardılır. Beşinci, onuncu kimi görünmədən əsas aparıcı xəttə çevrilir. Məhz bu tip romanların yazılması heç də təsadüfi deyildi. Azərbaycan ədəbiyyatında bunun hələ Y.V.Çəmənzəminlidən, M.S. Ordubadidən, Y.Səmədoğlundan və bir sıra başqalarından gələn uzun bir ənənəsi var. Rasim Gənzəlidə bu bir istiqamətdi. Digər istiqamət onun yaradıcı düşüncəsinin axarında həmişə epizodik hadisə və motiv kimi görünən ideyalardı ki, müəllif onu uzun illər içində bəsləmiş və son olaraq yazıya gətirmək qərarına gəlmişdi. Bəlkə də burada zamanını gözləmək düşüncəsi də vardı. Bu düşüncənin mahiyyətində bütünlükdə Azərbaycan ağrıları dayanır. O, yazıçı kimi bu ağrıları yaşamışdı. Və xalqın taleyüklü məsələsi kimi həmişə düşünmüş, bu düşüncələr onu uzun illər hərəkətə gətirmişdi. Çünki həm «Qurdlar və manqurdlar», həm də «Qurdbəşər» adi yazıçı təxəyyülünün faktı kimi yaranmamışdı. Burada yaşanmış ağrılarla dolu bir tarix dayanır. Bu-

rada əzilmiş, sıxıntılara, məhrumiyyətlərə, əzablara düçar olmuş xalq var. Bu romanlarda həmin xalqın mübarizə ruhu, sabaha inam duyğusu görünür. «Qurdlar və manqurdlar» romanının başlanğıcında verilən epiqrafda deyilir: «İki yüz ildən sonra bu dünyada olanlar bizim məşəqqətli ömrümüzü oxuyanda, bizləri yazıqlar və zavallılar kimi xatırlayacaqlar» (səh. 27). Bu düşüncənin özündə bir təəssüflənmə, acıma, küskünlük duyğusu var. Çünki R.Gənzəlinin təbiətindəki barışmazlıq, üsyankarlıq hissi onu bu düşüncəyə gətirib çıxarmışdı. O bir yazıçı, vətəndaş kimi bu olanlara təəssüflənir. Acıyır ki, böyük mədəniyyət yaratmış türk hansısa səbəblərdən belə məğlubiyyətlərə, parçalanmalara məruz qalmışdı. Eyni zamanda burada olan təəssüflənmələr, ağrılar təbiidi. Yazıçı duyğusu, düşüncəsi onu baş verən olayları, parçalanmaları görüb həmin ağrılara yüklənməyə gətirib çıxarmışdı. R.Gənzəli torpaq işğalını, xalqın, məmləkətin işğal edilərək iki hissəyə parçalanmasını, iki müstəbid əlində yaşamasının nə demək olduğunu çox yaxşı başa düşür. Və içərisindən həmin mənzərənin reallıqları keçir. Təsəvvüründə onları canlandırır. Onun yazıçı qəlbi bunları bir hayqırtı kimi püsgürür. Ayrı-ayrı qəhrəmanlarını mübarizəyə, azadlıq savaşına yükləməklə gələcəyə hazırlayır. Burada keçmişin ağrılarından çox gələcəyin azadlıq, müstəqillik, bütöv Azərbaycan savaşı görünür. Bu mükalimələrin arxasında Babəkin, Cavanşirin, Cavad xanın və bu silsilədən olan

onlarla, minlərlə mübarizə qəhrəmanının harayı eşidilir. Bu həmin şəxslərin şəhid qəhrəman ruhudu. O ruh zaman-zaman oyaqdı və bütünlükdə məmləkəti mücadiləyə daşıyır. R.Gənzəlinin roman təhkiyyəsində Qılman (ata), Eltürk (oğlul), Ayçiçək (Eltürkün sevgilisi), İran cəsusları Hacı Rza, Fərhad, Satqın Ərşad və s. kimi rəngarəng xarakterli obrazlar dayanır.

«Qurdbəşər» mürəkkəb strukturlu romandı. Onun mürəkkəbliyini bir istiqamətdə hadisələrin gərginliyi və münasibətlərin mürəkkəbliyi, müxtəlif xarakterlərin qarşılaşması yaradırsa, digər istiqamətdə bütünlükdə mövzunun məndəricəsi bu mürəkkəbliyi doğurur. Çünki romanda qoyulan məsələ imperiyaların mahiyyətini, bir məmləkətə qarşı müstəmləkəçi niyyətini açmağı zəruri edir. Burada maraqların toqquşması, insanların və insanlığın alçaldılması, böyük bir xalqın məhvinə yönəlikli düşüncənin ifadəsi, manqurdlaşdırma halı üst və alt qatda tam təfərrüatı ilə var. Ona görə də məhz mövzu haşiyələri siyasi maraqları, xalqın mübarizə ruhunu ifadə anlamında gərgin situasiyaları da zəruriləşdirir. Eltürkün bu taydan o taya – Cənubi Azərbaycana can atması və Gülüzlə birgə addımlaması bunu bütün aydınlığı ilə göstərir. Müəllif bu gedişdə Eltürkün içindəkiləri, bu tip hadisələrin hansı cəza ilə cəzalanmasını yazıçı təhkiyyəsində belə təqdim edir: «Və bunları Gülüzə demirdi. Onu da demirdi ki, onları tutub geri qaytarsalar ən azı olunan cəza edam olunmaları olardı. Axı

onların əlində çox qəddar, vəhşi cəza üsulları var idi. Başına isti su tökmək, dabanlarının dərisini soymaq, hündür yerdən buz kimi suyu gilə-gilə başa sızdırıb dondurmaq, qaranlıq yerdə ölənə qədər ayaq üstə saxlamaq, havasız yerdən nəfəsi qurtarana qədər saxlayıb öldürmək. Bunlardan xəbəri var idi Eltürkün. Və hərdən əzab çəkən vaxtlarında belə adamların ruhları ilə söhbət edirdi.

«-Sənə nə etdilər, yavrum?»

«-Barmaqlarımı qırdılar, dırnaqlarımı çıxardılar».

«-Günahın nəydi bəs?»

«-Burda günahı olanları öldürmürlər…» (səh. 4).

«Qurdbəşər» romanından verdiyimiz bu epizod hardasa yad, müəllif təxəyyülünün məhsulu olan hadisə deyil. Bunların hamısı həyati, imperiyaların, müstəbidlərin etdikləri faktların nümunəsidi. Tarixin dərinliklərindən iyirminci yüzilliyin rus və fars müstəbidliyində təkrarlananlardı. Özü də düşünülmüş və məqsədli olaraq həyata keçirilir. Ona görə də müəllif imperiya siyasətinə qarşı belə barışmazlıqda görsənir. Onun yaradıcı düşüncəsi, təhkiyyəsi bu tip romanlarda daha çox açılır və aydınlıqla nəzərə çarpan yaradıcı keyfiyyəti xatırladır. Cənubi Azərbaycanda baş verən narazılıqlarda fars müstəbidlərinin tətbiq etdikləri cəza tədbirləri, eləcə də Şimali Azərbaycanda keçən əsrin otuz yeddinci illərində repressiyada cəzalanmalar məhz bu tip amansızlıq-

larla olmuşdu. Azərbaycan ziyalılarının, bütünlükdə düşünə bilənlərin, içərisində bir parça mənlik hissi olanların hamısı məhz bu aqibəti yaşamışdılar. Məmləkətin o başından bu başına ağır və dəhşətli manqurtlaşdırma prosesinə rəvac verilmişdi. Bu bir növ nəsillərin, bütünlükdə xalqın genefondunun məhvinə yönəlikli bir siyasət idi. Bütünlükdə sovetlər dönəmində bir ölüm maşını işləmişdi. Oradan isə minlərlə, on minlərlə insan keçmişdi. Azərbaycan xalqının bir istiqamətdə mənəvi mədəniyyəti sarsıdılırdısa, yeni düşüncə tipi formalaşdırılırdısa, digər istiqamətdə bu cəza tədbirlərinin amansızlıqları ilə edilirdi. Məhz «Qara sevda» romanında sonda verilmiş «mələk donuna bürünmüş iblis simalı böyük məmləkət Allahın qəzəbi ilə dağılıb getmişdi. Xalqlar azadlığa qovuşmuşdu» (səh. 323) bir istiqamətdə həmin məhvin sonrakı mənzərəsidi ki, «Qurdbəşər»də davam etdirilir. Çünki Eltürklə Gülüz həmin düşüncəni, azadlıq havasını cənuba, Təbrizə aparırdılar. Onsuz da Təbriz zaman-zaman mübarizələrin, azadlıq mücadilələrinin məkanı olubdu. Burada həmişə etirazlar, inqilablar, düşmənlə barışmamazlıq, haqsızlığa üsyan ab-havası hökm sürübdü. Eltürkün yolda rastlaşdığı Çuval Həsənlə, Şərəf Həsənovla söhbəti ilk olaraq onda rejimin necə qorxunc yol tutduğu qənaətini formalaşdırır. Məhz bu səbəbdən də Metexanın məktublarında vurğulanan ifadələr Eltürkün yadına düşür: «Metexan yazır ki, bizim açıq, gözlə görünəsi düşmənlərimiz

çoxdu. Onları görürük və onlara qarşı mübarizə ruhumuzu kökləyirik. Ancaq görünəndən başqa görünməyən düşmənlərimiz də az deyil. Nə yazıqlar ki, bu düşmənlərin bir qismi elə öz aramızda, bizimlə bir torpaqda yeriyən və nəfəs alan insanlardı» (səh. 9). Ən ağrılısı və ən qorxulusu məhz bunlardı. Bütün zamanlarda kənar düşmənlər içəridə özlərinə dayaqlar axtarıblar. İndi də var. Ancaq indi daha qorxulu, daha hiyləgər düşmənlər dolaşır. Bu isə ümumi işə təsirdə olur. Bir növ dağıdıcı funksiyası yerinə yetirir. Məhz bu səbəbdən də Eltürkün atalı günlərini yazıçı diqqət mərkəzinə gətirir. Hansı ki, «o atalı günlərində atasının qəşəng-qəşəng nağılları var idi. O nağıllar ki, bu nağılların içində mütləq qurdlar olardı. Tülküdən, çaqqaldan danışılan nağıllardan atasının yaman acığı gələrdi. Deyərdi uşağa nağıl danışanda qurddan danışarlar» (səh. 9). Məhz qurddakı məğrurluq həmin uşaqların düşüncəsini, təbiətini formalaşdırır və formalaşmasına yardımçı olur. Ona görə də bunlar yazıçı tərəfindən buraya təsadüfi gətirilmir. Azərbaycanın azadlığı, mübarizəsi yolunda belə məğrur, cəsur oğlanlara çox ehtiyac vardı. Və gələcək üçün bu tip insanların formalaşdırılması bir məsələ kimi həmişə qarşıda durmuşdu. Ancaq rus və fars imperiya niyyətləri artıq neçə yüz ilə yaxındı ki, bunun qarşısını kəsmədə, manqurd yetişdirmə məqsədindədi. Savalan babanın da bu düşüncədə olması, yəni təbiətin cəsur varlığı qurdla bağlı nağıllar danışması həmin

məqsədə xidmət edirdi. Ona görə də də Babəkin tez-tez xatırlanması, ruhunun bu yerlərdə dolaşması həmin mübarizənin hələ bitmədiyini, qabaqda daha ağır mübarizələrin gözləndiyi təsəvvürünü formalaşdırır. Ərk qalası, Babək özlüyündə hər iki Azərbaycanda mübarizə simvoludu. «Bu anlarda Eltürk yüz il, min il, ondan çox-çox qabaq yaşamış babalarının ruhlarını başı üstündə görürdü. O ruhların içində Əmir Teymur da var idi, İldırım Bəyazid də. Soltan Səlim, Şah İsmayıl Xətai də… Və nəyə görəsə o ruhları Eltürk hər zaman ağlayan görürdü. Həm də qucaqlayıb ağlayan» (səh. 14). Yazıçının bu epizodu verməsi təsadüfi deyil. Çünki bu dünya nizamını tutan və böyük dövlət törənləri yapan insanların hardasa buraxdığı səhvlərin xatırlanmasıdı. Həmin səhvlərdi ki, düşmən ondan məharətlə istifadə etdi, bu gün də ondan etmədədi. O səhvlərin üzərində Avropa özünün xanimanını qurdu. Burada digər bir məsələ millətlərin, xalqların təbiətləri ilə bağıl olan mülahizələrdi. Və yazıçı çox doğru olaraq vurğulayır ki, «millətlər də insanlar kimidi. Kimisi azad, bəxtəvər, öz torpaqlarına sahib duran, kimisi də… Dili kəsilmiş, gözləri bağlanmış, qolları qandallı. Hələ bəlkə ürəyi çıxarılan, yerinə başqa nəsə qoyulan millətlər də var» (səh. 14). Bütün bunlar təsadüfi deyil, maşında Təbrizə doğru hərəkət edərkən qarşılaşdığı Çuval Həsənlə Şərəf Həsənov arasında söhbətdə yadına düşənlərdi. Doğurdan da millətlər də insanlar kimidi. Ancaq türkün

düşüncə tərzində bunlar, ürək yerinə nəsə başqa şey qoyulanlar yoxdu. Bu ancaq qarışıqlarda, yadlarda, gəlmələrdə var. Azərbaycanın taleyində isə bütün problemlər məhz bu cür göyərib. Bir də bu olduqca qorxunc iki bədheybət imperiyanın yetişdirdiyi insanlar var. Hansı ki, Eltürk onlarla qarşılaşır. Məhz həmin kəslərin əli ilə Azərbaycanımız nə qədər bəlalar çəkibdi. Elə torpaq itkilərimiz, müharibə uğursuzluqlarımız, sərvətlərimizin talanması hamısı bu tip insanların yuxarıda oturdulması nəticəsində baş veribdi. Bugünkü Azərbaycan mühiti həmin ağrıları yaşamadadı. Azərbaycanın faciəsinin kökündə dayananlar budu və uğursuzluqlarımız da onlardan gəlir. Düşmən qüvvələr bütün vəziyyətlərdə onlardan bəhrələniblər, onları yuxarılara, vəzifə kürsülərinə çəkməklə niyyətlərini həyata keçiriblər. Bu bir həqiqətdi və bu gün də, təkrar deyirik, davam etmədədi. Bütün bunları yazıçı Eltürkün düşüncələrində verir. Onun (Eltürkün) Təbriz ətrafındakı kəndlərdən birində Yurdanurla, Tehranda Metexanla görüşmə, müzakirələr aparma istəyi də buradan irəli gəlirdi. Sergey Nişin, Xoren Ovanesyan, Mehran Qulampurun yazıçının tərəfindən əsərə gətirməsi təsadüfi deyildi. Bunlar düşmən qüvvələri, imperiya maraqlarını və onun nökərlərinin canfəşanlığını, həm də böyük siyasəti təmsil edirlər. Yazıçı həmin şəxslərin çirkin keçmişini də təqdim edir. Onların hansı həyatı yaşadığını məqsəd və maraqlarını da bu və ya digər şəkildə yazıya gətirir. Meh-

ranın ağıllı, gözəl türk qızı Səriyyə ilə evlənməsi və onu qiymətləndirə bilməməsi, sonradan öz milətindən olan qızla evlənməsi, onun başına gələnlər bütün təfərrüatı ilə obrazı açmağa xidmət edir. Əsərdə Nərdoğanın oğlu Ərənol, Yetim İsmayılın oğlu Qorqud ürəyi yurd, vətən sevgisi ilə dolu olan obrazlardı. Özü də qəhrəman obrazlarıdı. Ananın (Nərdoğan) dilindən deyilən «Varolu öldürdünüz, ürəyiniz soyumadı. İndi də Ərənolu öldürmək istəyirsiniz» təsadüfi sözlər deyildi. Bu bir növ rejimin amansızlığını açmaq məqsədi daşıyır. Ağcagülün oğlunun şərlənərək dar ağacından asılması, Dəyanət kişinin qızının mola tərəfindən zorlanması, Zəmanə xanımın başına güllənin çaxılması və s. hamısı rejimin mahiyyəti idi. Müəllif də məhz bunları verməklə oxucuda bütöv təsəvvür yaradır. Və eyni zamanda bütünlükdə xalqı mübarizəyə, son döyüşə hazırlayır. Hadisələrin bu axarında bütünlükdə Azərbaycan görünür. Onun bəlaları, düşdüyü fəlakətlər göz önünə gəlir. Yazıçı bütün bunları ayrı-ayrı obrazların, xarakterlərin müxtəlifliyində təqdim edir. Və göstərməyə çalışır ki, bunlar nəticə etibarilə həmişəlik deyil. Hər olayın sonu olduğu kimi, imperiyaların da bir sonu var. R.Gənzəli bu sonluğu, mübarizəyə aparan yolu bütün təfsilatı ilə verir. Və bütünlükdə əsərdə Azərbaycanın azadlığa gedən yolu görünür. Bu yol uzaqda deyil. R.Gənzəli yaradıcılığı məhz bu xüsusiyyətləri ilə qazanır. Yəni onda təkcə hadisələrin təsviri, təbii axarı nəzərə çarpmır. Bu

axarda qəhrəmanların gedişə təsir etmək, qəti hərəkət bacarığı da var. Onlar bütünlükdə şəraiti, mühiti qiymətləndirə, xalqı azadlığa apara bilirlər. R.Gənzəlinin romanları digər istiqamətdə bu günün hadisələrini təqdimlə yekunlaşmır. Burada gələcək, sabahlar, işıqlı səhərlər var. Ona görə də R.Gənzəli yaradıcılığı son dövr ədəbi mühitin uğurlarına, ictimai-siyasi mühitin ağırlıqlarına yüklüdü. Və roman təhkiyəsində R.Gənzəli bir yazıçı kimi müxtəlifliklərlə, düşüncə, xarakter müxtəliflikləri ilə marağa səbəb olacaq mühiti təqdim edir. Xalqın ağrılarının, sabaha gedən yolunun ümumi mənzərəsini verir. Bütün bunlar R.Gənzəlinin bir yazıçı, vətəndaş kimi içindən keçir və həyat hadisələri ilə tamamlanır. Onun hansı düşüncəyə köklü olduğunu təsdiqləyir.

## SON SÖZ ƏVƏZİ

Bununla da Rasim Gənzəli haqqında düşüncələrimi ümumiləşdirməyə çalışdım. Nə yazdım, necə yazdım deyə bilmərəm. Bu ancaq ədəbi-nəzəri fikri araşdıranların, böyük oxucu kütləsinin işidir. Bir onu bilirəm ki, ürəyimdən keçənləri dedim. Sevindim ki, dedim. Böyük ədəbiyyatımız naminə müasir ədəbi mühitin istedadlı yazarlarından olan R.Gənzəlinin zəngin yaradıcılığını təhlil etdim. Və gördüm ki, hələ ədəbiyyatımızda araşdırılmalı çox problemlər var. Elə istedadlı yazarlarımız var ki, müasir mühit qarışıqlığında kölgədə qalıblar. Onların layiqli qiymətini verə bilməmişik. Başımızı bir qrup işbazlar, ədəbiyyatdan uzaq olan iddialılar, vəzifə və kreslo sahibləri qatıblar. Onların mühitə ünvanladığı yazılar mənsəbpərəstlikdən, yalançı təbliğatdan başqa bir şey olmayıbdı. Bu, R.Gənzəlinin yaradıcılığı ilə tanışlıqda ilk təəssüratımdı.

Daha sonra bildim ki, Azərbaycan ədəbiyyatı bütün qarışıqlıqlara, siyasi mühitin əllaməçiliklərə baxmayaraq həmişə ideallara köklənibdi. Süni mənsəb və şöhrət aludəçiliyi həqiqi ədəbiyyatın işi olmayıbdı. Ədəbi proses həmişə öz axarında ləngərli bir nəhr kimi yoluna davam etmədədi.

R.Gənzəli yaradıcılığında bir-birindən maraqlı istiqamətlər olduğunu müəyyənləşdirdim. Və bunların hamısını təhlil, və tədqiq zərurətində anladım. Onun publisistikası, hekayələri, povestləri, romanları bu anlamda çox məsələlərə aydınlıq gətirmək gücündədi. Çünki burada Azərbaycan nəsrinin inkişaf mənzərəsi bir istiqamət kimi görünür. Məlum olduğu kimi, Azərbaycan nəsri böyük bir yol gəlmişdi. Onun klassik nümayəndələrinin yaradıcılıq ənənələri məhz müasir ədəbi prosesin istedadlı nümayəndəsi R.Gənzəlidə uğurla daşınır.

İçimdə yaşanan ağrılarla, vıətən, yurd sevgisi ilə R.Gənzəlinin düşüncələri arasında bir yaxınlıq gördüm və onları  bütünlükdə məmləkətimiz naminə açmaq, bacardığım qədər təqdim etmək qərarına gəldim. Çünki burada təkcə mənim və yaxud da mənim əhatəmdə olanların yox, bütünlükdə Azərbaycanımızın problemləri əksini tapır. Azərbaycanımızın tarixən düşdüyü bəlalar, müxtəlif zaman kəsiyində olanlar son iki yüz ilin ağrıları, çar Rusiyası və İran irtica rejimi tərəfindən məmləkətimizin bölüşdürülməsi, sovetlər dönəminin ağrıları bütün tərəfləri ilə əksini tapır. Eyni zamanda son dövrün, yəni müstəqillikdən sonrakı dövrün hadisələri də bir istiqamət kimi R.Gənzəli yaradıcılığını izləyir. Onun düşüncəsinin bir hissəsinə çevrilir. Sovetlər dönəminin vurduğu yaralar, otuz yeddinci ilin repressiyası, köçürmələr, türkün milli-mənəvi dəyərlərinə vurulan zərbələr, aparılan məqsədyönlü siyasət,

torpaq itkilərimizin ağrısı onun əsərlərinin mövzu və mündəricəsini təşkil edir.

Son olaraq R.Gənzəlinin yaradıcılığında Azərbaycanımız və bütünlükdə Azərbaycan sevgimiz görünür. Onun problemlərinin həlli istiqamətində qətiyyətli addımlar atmağın gərəkliyi vurğulanır. Bu tapdanmış haqqın, itirilmiş məmləkətin bütövlüyünə olan çağırışdı. Və problemin mövcudluğundan R.Gənzəliyə qədər ədəbiyyatımızı izləyir. Bütün bunlar və bu kimi məsələlər düşüncələrimi bölüşməyə köklədi. Və mən də imkanım daxilində bura qədər dediklərimi dedim.

## M Ü N D Ə R İ C A T

Bədii sözə və düşüncəyə etiraf.......................3
Ön sözün təəssüratı altında oxuduğum kitab. ........................................................8
Sözün və qələmin güvənc olduğu yer............11
Bədii düşüncəmiz, mübarizəmiz və gen yaddaşımız ................................................38
Rasim Gənzəli yaradıcılığında bioqrafik düşüncə və onun müxtəliflik tipləri ..............64
Tipik şəraitdə tipik xarakter yaratmaq bacarığı......................................................99
R.Gənzəlinin povestləri - xarakterlər kolliziyası ...................................................134
Roman təhkiyəsi və Rasim Gənzəlinin roman yaradıcılığı .......................................156
Son söz əvəzi...............................................183

Allahmanlı Mahmud Qara oğlu

# RASİM GƏNZƏLİNİN BƏDİİ NƏSRİ

***Azərbaycan dilində***

**«Elm və Təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

***Texniki redaktor:*** **Toğrul Allahmanlı**
***Korrektor:*** **Həsənağa Ramazanlı**

Yığılmağa verilmiş **05.10.2012**
Çapa imzalanmış **14.11.2012**
Şərti çap vərəqi **11,7.** Sifariş № **489**
Kağız formatı **84x108 1/8.** Tiraj **500**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
**E-mail: elm_ve_tehsil@box.az**
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.